# BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

## ВЕСТНИК БАКИНСКОГО УНИВЕРСИТЕТА

## NEWS OF BAKU UNIVERSITY

**SOSİAL-SİYASİ**
***elmləri seriyası***

***серия***
**СОЦИАЛЬНО ПОЛИТИЧЕСКИХ НАУК**

***series of***
**SOCIAL-POLITICAL SCIENCES**



## № 2, 2020

Bakı – 2020

## HÜQUQ

# İNFORMASİYA SFERASINDA DAYANIQLI İNKİŞAF MƏQSƏDLƏRİ VƏ İNSAN HÜQUQLARININ UZLAŞDIRILMASI

**Ə.İ.ƏLİYEV, Ş.S.MƏMMƏDRZALI**
***Bakı Dövlət Universiteti***
***al.amir.ib@mail.ru, memmedrzali@gmail.com***

*Məqalə 2015-ci ildə BMT tərəfindən qəbul edilmiş "Dayanıqlı İnkişaf Məqsədləri üzrə 2030 Gündəliyi" proqramında əks edilmiş məqsədlər ilə insan hüquqlarının informasiya cəmiyyətində uyğunlaşdırılmasına və bir yerdə tətbiqinin elmi-nəzəri mümkünlüyünə həsr edilmişdir. Dayanıqlı inkişaf konsepsiyası və insan hüquqları üzrə beynəlxalq fəaliyyət uzun müddətdir ki, bir-birilə əlaqələndirilmədən icra edilmişdir. Bununla belə, dayanıqlı inkişaf nəzəriyyəsinin ən əsas amillərindən biri də insan hüquqlarının effektiv qorunmasını təmin etməkdir. BMT çərçivəsində bu əsaslar nisbətən daha son dövlərdə tanınmışdır. İnformasiya cəmiyyəti quruculuğu isə dayanılıq inkişaf üzrə 2030 Məqsədlərinin insan hüquqları ilə uzlaşdırılmasına yeni cəhətlər əlavə etmişdir. Belə ki, informasiya cəmiyyəti özü-özlüyündə inkişafın məhsulu olub, Dayanıqlı İnkişaf Məqsədlərinin (DİM) çərçivəsində nəzərdən keçirilə bilər. Eyni zamanda informasiya cəmiyyətinin də, DİM-də olduğu kimi bir sıra insan hüquqları əsasları vardır. Bu əsaslar daha çox informasiya hüquqları, təhsil hüququ formasında, habelə siyasi, sosial, mədəni və s. hüquqlar formasında özünü göstərir. İnformasiya cəmiyyətinin insan hüquqları əsaslarının bir çoxu həm də DİM-in realizəsində mühüm faktor kimi çıxış edir. Bununla belə, İKT-nin son nailiyyətlərinin fonunda və informasiya cəmiyyətindən bilik cəmiyyətinə keçid dövründə DİM və insan hüquqları arasında əlaqələri yenidən təhlil etmək, onları rəqəmsal mühitə də tətbiq etmək zərurəti meydana gəlmişdir.*

**Açar sözlər:** dayanıqlı inkişaf, informasiya cəmiyyəti, bilik cəmiyyəti, İKT, insan hüquqları, informasiya hüququ, innovasiya, rəqəmsal hüquqlar, informasiya təhlükəsizliyi, Dayanıqlı İnkişaf Məqsədləri, İnternet, təhsil hüququ

## BMT 2030 Fəaliyyət Proqramının hüquqi mahiyyəti

Cəmiyyətin və beynəlxalq birliyin hüquqi cəhətdən düzgün inkişaf yoluna istiqamətlənməsi, beynəlxalq və milli xarakterli ictimai münasibətlərdə iştirak edən hüquq subyektlərinin qanunauyğun davranışı təkcə insan hüquqları normaları ilə tənzimlənmir. Bu işdə insan hüquqları normalarına beynəlxalq təşkilatlar tərəfindən ictimai həyatın müxtəlif sahələrinə ünvanlanan fəaliyyət proqramları, inteqrasiya planları kimi layihələr də dəstək verir. İnsan hüquqları normalarına riayət edilməsi, hüquqların qorunması, təbliği və təmin edilməsi kimi ideyaları özündə əks etdirən bu cür beynəlxalq mexanizmlərdən biri də

BMT tərəfindən 2015-ci ildə qəbul edilmiş "Dayanıqlı İnkişaf üzrə 2030-cu il Gündəliyi"-dir.[27] Bu sənəd 2015-ci ilin 25–27 sentyabr tarixlərində keçirilən Dayanıqlı İnkişaf Sammitində qəbul edilmişdir. Gündəliyə əsasən, BMT tərəfindən qlobal problemlərin, sosial çətinliklərin həlli və sülhün bərqərar edilməsi naminə üzv dövlətlər üçün bir neçə məqsəd müəyyən edilmişdir:

1. Dünyanın hər bir yerində yoxsulluq və onun bütün formalarına son qoymaq;
2. Aclığa son qoymaq, qida təhlükəsizliyinə nail olmaq və dayanıqlı kənd təsərrüfatını təbliğ etmək;
3. Sağlam həyat tərzini təmin etmək və bütün yaş kateqoriyaları üçün rifahı təbliğ etmək;
4. İnklyüziv və keyfiyyətli təhsili təmin etmək və hər kəs üçün davamlı tədris imkanlarını təbliğ etmək;
5. Gender bərabərliyinə nail olmaq, eləcə də bütün qadın və qızların səlahiyyətlərini artırmaq;
6. Hər kəs üçün su və sanitariyanın davamlı idarəetməsini və mövcudluğunu təmin etmək;
7. Hər kəs üçün əlverişli, etibarlı, dayanıqlı və müasir enerjiyə çıxışı təmin etmək;
8. İnklyüziv və dayanıqlı iqtisadi inkişafı, eləcə də hər kəs üçün tam və məhsuldar məşğulluğu təbliğ etmək;
9. Möhkəm infrastruktur yaratmaq, inklyüziv və dayanıqlı sənayeləşməni və innovasiyanı təbliğ etmək;
10. Ölkələrarası və ölkədaxili qeyri-bərabərliyi azaltmaq;
11. Şəhərləri və digər insan yaşayış məskənlərini inklyüziv, təhlükəsiz, möhkəm və dayanıqlı etmək;
12. Dayanıqlı istehlak və istehsal modellərini təmin etmək;
13. İqlim dəyişikliyi və onun təsirlərinə qarşı mübarizə aparmaq üçün təcili addımlar atmaq;
14. Dayanıqlı inkişaf üçün okean, dəniz və digər su hövzələrini qorumaq və onlardan düzgün istifadə etmək;
15. Ekosistemlərin dayanıqlı istifadəsini müdafiə, bərpa və təbliğ etmək, meşələri dayanıqlı idarə etmək, səhralaşma ilə mübarizə aparmaq, torpaq deqradasiyasının qarşısını almaq və dayandırmaq, o cümlədən biomüxtəliflik itkisini dayandırmaq;
16. Dayanıqlı inkişaf uğrunda sülhsevər və inklyüziv cəmiyyəti təbliğ etmək, hər kəs üçün ədaləti təmin etmək, və bütün səviyyələrdə səmərəli, məsul və inklyüziv institutları yaratmaq;
17. İcra vasitələrini möhkəmləndirmək və dayanıqlı inkişaf üçün qlobal əməkdaşlığı canlandırmaq.

Bu məqsədlər siyahısı birlikdə "Dayanıqlı İnkişaf Məqsədləri" – DİM (ingiliscə "Sustainable Development Goals" – SDGs) adlanır və hər bir məqsədə uyğun "hədəflər" yuxarıda qeyd olunan 2030 Gündəliyində təsbit

edilmişdir. Yəni ki, 17 məqsədin hər birinin özünəməxsus "hədəflər siyahısı" da vardır. DİM BMT Baş Məclisinin qətnaməsi formasında qəbul edilsə də, onu ənənəvi beynəlxalq hüquq sənədi hesab etmək düzgün deyil. İlk öncə, 2030 Proqramı hüquqi xarakterli sənəddən daha çox, fəaliyyət məqsədlərini müəyyən edən ümumi siyahı kimi təsbit edilmişdir. Ümumilikdə, hüquq və Dayanıqlı İnkişaf Məqsədlərinin əlaqəsi də kifayət qədər maraq doğurur. Çünki DİM, əslində, tam beynəlxalq hüquq sənədi kimi yox, fəaliyyət məqsədləri kimi müəyyən edilmişdir. Ancaq bir sıra Məqsədlər vardır ki, onların həyata keçirilməsi üçün birbaşa hüquq normalarının implementasiyası vacibdir. Dayanıqlı İnkişaf Məqsədlərinin beynəlxalq hüquqda irəli gələn öhdəliklərlə, xüsusilə insan hüquqları öhdəlikləri necə uyğunlaşması da ciddi suallar meydana gətirmişdir [11, s.3]. Dayanıqlı İnkişaf Məqsədlərinin yaranma tarixini anlamaq və əhəmiyyətini daha yaxşı dərk etmək üçün BMT çərçivəsində 1960-cı ildən bu yana müəyyən edilmiş inkişaf məqsədləri və proqramlarını araşdırmaq mümkündür [8, s.68]. Bu zaman görə bilərik ki, DİM-in bu və ya digər müddəaları müxtəlif zamanlarda qəbul edilmiş sənədlərdə öz əksini tapmışdır. Belə sənədlərdən ən müasiri qismində isə DİM-dən daha öncə hazırlanmış Minilliyin İnkişaf Məqsədlərini təhlil etmək lazımdır. Minilliyin İnkişaf Məqsədləri BMT Baş Məclisi tərəfindən "Minilliyin İnkişafı Bəyannaməsi" formasında qəbul edilmişdir.[29] 2000-ci ildə təsbit edilmiş Minilliyin İnkişaf Məqsədləri ilk beynəlxalq sənəd idi ki, yoxsulluğun aradan qaldırılmasını müxtəlif meyarlar çərçivəsində inkişaf konsepsiyasının mərkəzində görürdü.[10;s.6] Dayanıqlı İnkişaf Məqsədləri isə bu meyarları daha da genişləndirmişdir. DİM çərçivəsində yoxsulluq təkcə iqtisadi mənada deyil, bütövlükdə çoxşaxəli inkişafın mərkəzinə qoyulmuşdur. Və 2030 Gündəliyində əsas məqsədin yoxsulluq şəklində deyil, rifah şəklində müəyyənləşdirildiyini deyə bilərik. Digər sözlə, DİM çərçivəsində yoxsulluq təkcə yaşam şəraitin yaxşılaşdırılması kimi deyil, təhsil, ekoloji təhlükəsizlik, əmək, hüquq, demokratiya, innovasiya və texnoloji inkişaf kimi istiqamətlərdə araşdırılır.

DİM təkcə hüquqi bir sənəd deyildir. DİM—biz həm siyasi, həm iqtisadi, həm də etik cəhətdən təhlil edə bilərik. Maraqlıdır ki, DİM-in hüquqi cəhətdən məcburiyyət qüvvəsi yoxdur və "Dayanıqlı İnkişaf üzrə 2030-cu il Gündəliyi" BMT Baş Assambleyası tərəfindən qəbul edilmiş tövsiyyə xarakterli bir qətnamədir. Bununla belə, BMT və digər aparıcı beynəlxalq təşkilatlar DİM-in yerinə yetirilməsinə ciddi önəm verir və bu yöndə üzv dövlətlər üçün layihələr, maliyyə yardımları ayırırlar. Beynəlxalq təşkilatların və digər beynəlxalq hüquq subyektlərinin 2030 Gündəliyi ilə bağlı yanaşmasını araşdıraraq deyə bilərik ki, DİM-ə hal-hazırda müəyyən bir adət hüququ norması xarakteri və ya dolayı məcburilik qüvvəsi verilmişdir. Çünki, DİM üzrə bir çox dövlətlərinin xüsusi milli fəaliyyət proqramları, qanunvericilik normaları, implementasiya-nəzarət mexanizmləri, ortaq layihələri, DİM üzrə ixtisaslaşmış dövlət qurumları yaradılmış, yəni, DİM bütün dövlətlərin ümumi qəbul edilmiş təcrübəsinə çevrilmişdir. Məsələn, ölkəmizdə DİM-in realizə edilməsi Dayanıqlı İnkişaf

üzrə Milli Əlaqələndirmə Şurası yaradılmışdır.[1] Bundan başqa, BMT-in İnkişaf Proqramının Azərbaycan Nümayəndəliyi də DİM-in ölkə miqyasında implementasiyasına dəstək göstərir.[3]

BMT üzv dövlətlərinin, demək olar ki, hamısı DİM-in implementasiyasına dəstək versə də, 2030 Gündəliyi bir sıra tənqidələrə də məruz qalır. DİM-in səmərəliliyi haqqında da fikirlər müxtəlifdir. Bir sıra müəlliflər DİM-in inkişaf mənasında yeni bir model olduğuna inanmasa da, digərləri baş verən son iqtisadi, ekoloji, sosial böhranlar zəminində DİM-in yenilikçi olduğuna iddia edir.[23;s.2] Fikrimizcə, DİM-in innovativ xarakterli beynəlxalq hüquqi-siyasi sənəd olduğu fikrini qəbul etmək mümkündür. BMT-nin fəaliyyət tarixini araşdırsaq, daha öncə təsbit edilən proqramlarda yol verilən bir sıra boşluqları görə bilərik. Bu boşluqlar üzv dövlətlərin proqramlara lazımi diqqət göstərməməsi, məsuliyyətlə icra etməməsi, proqramlar üzərində nəzarət-yoxlama mexanizmlərinin yüksək keyfiyyətdə işləməməsi və s. ilə xarakterizə edilə bilər. DİM-in yaradılmasında bu boşluqların aradan qaldırılmasına ciddi şəkildə önəm verilmişdir. Belə ki, DİM təkcə BMT tərəfindən müəyyən edilən və icra edilməsi tələb olunan şərtlər deyil. Üzv dövlətlər də özü-özlüyündə bu məqsədlərin onlar üçün nə qədər böyük əhəmiyyət kəsb etdiyini baş vermiş bohranlar kontekstində başa düşürlər. Məhz bu səbəbdəndir ki, BMT 2030 Gündəliyi qeyri-məcburi xarakterli qətnamə formasında olsa da, üzv dövlətlərin DİM-in realizə edilməsinə marağı yüksəkdir. Bu mənada bir sıra alimlərin DİM-in daha çox antroposentrik olması haqqından tənqidini də başa düşmək mümkündür.[11;s.16] Dayanıqlı inkişaf və onunla əlaqədar problemlər insan fəaliyyəti nəticəsində yaranmağa başlamışdır. Belə ki, məhz insan faktoru ekoloji, iqtisadi, sosial və s. xarakterli böhrana səbəb olmuşdur. Problemləri aradan qaldırmaq yönündə dünya dövlətlərinin pərakəndə fəaliyyəti isə vəziyyəti daha da pisləşdirmişdir. Buna görə də DİM-in daha çox insanyönümlü olması, daha çox insanların fəaliyyəti üzərinə tələblər qoyması tamamilə normaldır. İnsan fəaliyyəti nəticəsində beynəlxalq gələn dünyamiqyaslı problemlər elə insan fəaliyyəti ilə də həll edilməlidir.

Əslində, DİM-in ayrıca bir proqram kimi qəbul edilməsi uzun sürən müxtəlif xarakterli müzakirələrin və təklif edilən inkişaf konsepsiyalarının təhlili nəticəsində mümkün olmuşdur. İnkişaf proqramları və məqsədlərin təsbit edilməsi BMT Nizamnaməsində məqsədlər sırasında verilən “sosial tərəqqi və yaşamın daha yaxşı standartları” istəyinə uyğun gəlir.[34;s.20] Bundan başqa DİM 2030 Gündəliyinin 10-cu maddəsi də DİMİ-in xüsusi şəkildə beynəlxalq hüquqa, beynəlxalq insan hüquqları normalarına və BMT Nizamnaməsinə əsaslandığını vurğulayır. Bu faktlar BMT tərəfindən təsbit edilmiş Minilliyin İnkişaf Proqramı və Dayanıqlı İnkişaf Proqramına ümumi beynəlxalq-hüquqi yanaşmanı tətbiq etməyin mümkünlüyünü sübut edir. Beynəlxalq hüquq, xüsusilə insan hüquqları normalarına əsaslanma bizə birbaşa imkan yaradır ki, bəyan edilən DİM-i müxtəlif beynəlxalq və milli hüquq sahələrinə, xüsusi şəkildə isə insan hüquqları sahəsinə əlaqələndirək. DİM, demək olar ki, bütün

beynəlxalq hüquq prinsiplərinə dair müddəaları özündə əks edir. Xüsusilə şəkildə təkcə sülhə nail olma vurğulansa da, DİM dövlətlərin suveren bərabərliyi, sərhədlərin toxunulmazlığı, mübahisələrin dinc yolla həlli və s. kimi prinsiplərə sadiqdir. Şübhəsiz ki, DİM-i beynəlxalq hüququn ən sarsılmaz və yüksək normaları olan ius cogens normaları çərçivəsində də təhlil etmək mümkündür. BMT Beynəlxalq Hüquq Komissiyası tərəfindən ius cogens normaları üzrə iş tam başa çatmasa da [24], ayrı-seçkiliyin ləğvini ənənəvi olaraq toxunulmaz normalardan biri kimi qəbul edə bilərik. Bütövlükdə DİM-in hamısı millətlər, xalqlar, dövlətlər və regionlar arasında ayrı-seçkiliyin ləğvinə, bərabərliyin tam təmin edilməsinə yönəlmişdir. Düşünürük ki, belə bir genişmiqyaslı Məqsəd özü-özlüyündə subyektiv ayrı-seçkiliyin yolverilməsizliyi hüququndan daha irəli getmiş, daha əhatəli müddəalar təsbit etmişdir. Belə ki, subyektiv cəhətdən ayrıca insan hüququ olan ayrıseçkiliyin yolverilməzliyi həm beynəlxalq, həm də milli hüquqda konkret fərdlər arasında və kollektiv daxilində olan ictimai münasibətlərə tətbiq edilir. DİM isə bu ictimai münasibətlər dairəsini daha da genişləndirmişdir. 2030 Gündəliyi təkcə bir dövlət və ya kollektiv daxilində bərabərliyə yox, bütövlükdə dünyanın bərabərəhatəli inkişafına diqqəti yönəldir. Fikrimizcə, bu müddəa gələcəkdə insan hüquqlarının təfsiri və tətbiqinə bir istiqamət ola bilər. DİM-in başqa bir xarakterik xüsusiyyəti isə beynəlxalq hüququn digər sənədləri ilə müqayisədə yeni-yeni subyektləri cəlb etməsi və müvafiq öhdəliklər müəyyən etməsidir. Bildiyimiz kimi müasir beynəlxalq hüquqda dövlətlər, fərdlər, beynəlxalq təşkilatlar, QHT-lər, transmilli korporasiyalar və s. subyekt kimi nəzərdən keçirilir. Bunlardan fərdlər və bir sıra digər subyektlərin beynəlxalq hüquq qabiliyyəti məhdud hesab edilir. DİM üzrə 2030 Gündəliyi isə hətta məhdud beynəlxalq hüquq qabiliyyəti olan subyektlər üzərinə innovativ xarakterli öhdəliklər müəyyən etmişdir. Bu mənada DİM-in əhatə dairəsini bütövlükdə beynəlxalq hüququn əhatə dairəsindən daha geniş hesab edə bilərik. DİM-in təhlili bizə həm də onu deməyə əsas verir ki, 2030 Gündəliyi yaxın gələcəkdə adət hüququ xarakter alacaq və ya artıq almış bir sıra normalarını da əks etmişdir. Fikrimizcə, DİM-in genişmiqyaslı tətbiqi təhsil, ekoloji təhlükəsizlik və s. sahələrdə yeni prinsiplərin meydana gəlməsində mühüm rol oynayacaqdır.

**DİM və insan hüquqları**

Daha öncə də qeyd etdiyimiz kimi DİM 2030 Gündəliyi beynəlxalq insan hüquqları normalarına əsaslanır. Ancaq bu əsaslanmanı elmi cəhətdən tam işləyib hazırlamaq, DİM və insan hüquqları arasında əlaqələri daha da konkretləşdirmək lazımdır. Bu prosesdə informasiya cəmiyyəti tendensiyaları, İKT və informasiya əsrinin yeni nailiyyətləri də daim nəzərdə saxlanmalıdır. Tarixi baxımdan "dayanıqlı inkişaf" anlayışı 2030 Gündəliyindən çox-çox əvvəl təklif edilmişdir. Dayanıqlı inkişafın ayrıca konsepsiya kimi formalaşması 1980-ci illərə təsadüf etmiş, 20-ci əsrin sonlarında inkişaf etmiş və inkişafda olan dövlətlər arasında fəqliliklər, habelə ekoloji problemlərin qloballaşması ilə

xarakterizə edilmişdir.[19;s.3] Elə müzakirə etdiyimi DİM 2030 Gündəliyinə də fikir versək, bir çox Məqsədlərin qeyd olunan 2 problemlə əlaqəli olduğunu görə bilərik. Ancaq inklüziv təhsil, texnologiya və innovasiya kimi bir çox Məqsədlər vardır ki, onların təsbit edilməsi DİM 2030 Gündəliyini daha öncəki proqramlardan fərqli edir. 2030 Gündəliyinə nəzər yetirsək, məqsədlərin ümumi iqtisadi xarakter daşıdığını, ancaq yeni yanaşmaların irəli sürüldüyünü görə bilərik. Bu isə müasir dövrdə dayanıqlı inkişaf konsepsiyasının öz xarakterini dəyişməsi ilə izah edilə bilər. "Dayanıqlı inkişaf" anlayışı haqqında vahid izah olmasa da, bu terminin "gələcək nəsillərin öz ehtiyaclarını ödəmək qabiliyyətinə mane olmadan, müasir dövrün ehtiyaclarını qarşılamaq" mənası verdiyi qeyd olunur.[22;s.28] Müasir dövrün inkişafı isə təkcə iqtisadi göstəricilərin qalxması ilə ölçülmür. Bu mənada bir sıra müəlliflər inkişafı demokratiya, hüquq və azadlıqların təmin edilməsi ilə də əlaqələndirirlər.[14;s.23] Həqiqətən də, azadıqların təmin edilməsini inkişafa şərait yaradan amil kimi nəzərdən keçirmək mümkündür.[33;s.21] Belə ki, hüquqi cəhətdən sabitliyin təmin edilməsi inkişafın da dayanıqlı olmasına şərait yaradır. Digər sözlə, hüququn düzgün təşəkkülü dayanıqlı inkişafı da yönləndirə bilər. Daha öncə də qeyd etdiyimiz kimi hüquq və DİM arasında əlaqələr birmənalı deyil. Ancaq bir faktoru etiraf etmək lazımdır ki, DİM-in realizəsi hüquq olmadan təmin edilə bilməz. Hüququn bir sıra ənənəvi sahələri vardır ki, DİM-in implementasiyasında onların rolu böyükdür. Cəmiyyətin iqtisadi, sosial, qanuni əsaslarını müəyyən edən cinayət hüququ, konstitusiya hüququ, mülki hüquq, inzibati hüquq kimi sahələrin normalarına əməl etmədən DİM-in icrasına haqqında danışmaq mümkün deyil. DİM-in sıx əlaqədə olduğu nisbətən yeni sahələrdən biri də insan hüquqları sahəsidir. Maraqlıdır ki, BMT çərçivəsində DİM məqsədlərinin insan hüquqları ilə qarşılıqlı əlaqəsinə uzun müddət lazımi diqqət yetirilməmiş və onlar ayrı-ayrılıqda inkişaf etdirilmişdir.[8;s.77] Baxmayaraq ki, DİM 2030 Gündəliyini əks etdirən BMT qətnaməsində insan hüquqlarının beynəlxalq əsaslarına dəfələrlə istinad edilmişdir. Müasir dövrün qlobal insan hüquqları problemləri kontekstində bəzi alimlər 2030 Gündəliyində qeyd olunan bütün məqsədlərin uğurlu şəkildə həyata keçiriləcəyinə inanmır.[17] Lakin, fikrimizcə, insan hüquqları və DİM mexanizmlərinin birlikdə fəaliyyəti bu tip çətinliklərin həllində müsbət rol oyanacaqdır. Əslində, DİM ilə insan hüquqlarının ümumi əlaqəsi ilk baxışdan məlumdur. Bəzi alimlər DİM ilə insan hüquqlarının uzlaşmadığını və fərqli müstəvilərdə olduğunu iddia edirlər. Onların fikrincə, insan hüquqları daha konkret və dəqiq olub, geniş mənalı DİM-in effektiv icrasını sual altına qoyur.[14] Lakin bu fikirlərlə razılaşmaq çətindir, çünki DİM-i və insan hüquqlarını nəzəri cəhətdən qarşılıqlı müqayisə etsək, onların bir-birinə mane olmadığını, əksinə, DİM-in insan hüquqları fonunda daha sürətli və keyfiyyətli icra olunacağını deyə bilərik. DİM və insan hüquqları müasir dövrün ən ciddi problemlərini müəyyən etməklə (sülh və təhlükəsizlik, ekoloji böhran, sosial-demoqrafik çətinliklər, gender bərabərliyi və s.), bir-birilə uyuşur və üst-üstə düşür. Məhz buna görə də insan hüquqları

üzrə ixtisaslaşmış beynəlxalq qurumlar BMT Dayanıqlı İnkişaf Qrupuna (DİM-in icrası üzrə BMT nəzarət qrupu) qoşulmuşlar.[31[ Digər tərəfdən, 2030 Gündəliyində də deyildiyi kimi, DİM insan hüquqları üzrə beynəlxalq normalara və universal insan hüquqları ideyalarına əsaslanır.[27;par.10] DİM-in əsasında "Beynəlxalq Dayanıqlı İnkişaf Hüququ" və ya "Dayanıqlı İnkişaf Hüququ" adlı kompleks hüquq sahəsi formalaşır ki, onun əsas predmet elementlərindən biri əlaqəli insan hüquqlarının təhlilidir.[36] Bu məsələlər ilə hazırda müstəqil təşkilat kimi fəaliyyət göstərən Beynəlxalq Dayanıqlı İnkişaf Hüquq Mərkəzi də məşğul olur.[2]

**Dayanıqlı inkişaf və informasiya hüququ sahəsi**

İKT-nin dünya üzrə dinamik tətbiqi dövlətlərin iqtisadi fəaliyyətində əhəmiyyətli dəyişikliklərə səbəb olmuşdur.[15;s.19] Hazırkı dövrdə isə bu dəyişikliklər təkcə iqtisadiyyatda deyil, insan hüquqları sferasında, DİM-in digər aspektlərində də özünü göstərir. İKT-nin iqtisadi, sosial, siyasi və digər istiqamətlərdə inkişaf proqramları üçün mühüm rol oynadığı hələ 2010-cu ildə BMT-nin "Minilliyin İnkişaf Məqsədləri" konsepsiyası daxilində nəzərdən keçirilmişdir.[15;s.221] Ancaq İKT-nin DİM-in implementasiya prosesinə təsirləri nisbətən daha yeni elmi-praktiki problemdir. Digər tərəfdən, insan hüquqları və DİM-in qarşılıqlı əlaqəsində İKT-nin tutduğu yer də kifayət qədər təhlil edilməmişdir. BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığı DİM və insan hüquqlarının əlaqəsinin sistemini təqdim etmişdir.[26] Bununla belə, təqdim edilən sistem konkret olaraq İKT-nin insan hüquqları və əlaqədar DİM üzrə vəhdət şəklində tətbiqi üçün oynadığı rolu təyin etməyə kifayət deyil. Fikrimizcə, DİM və insan hüquqları üzrə İKT-nin mümkün təbiqi problemlərini informasiya hüququ daxilində nəzərdən keçirmək mümkündür. DİM ilə insan hüquqlarının qarşılıqlı münasibəti digər ənənəvi hüquq sahələri (cinayət hüququ, mülki hüquq, inzibati hüquq və s.) ilə yanaşı, yeni formalaşmaqda olan informasiya hüquq sahəsini də yaxından maraqlandırır. "DİM ilə informasiya hüquq sahəsinin və informasiya hüquqlarının əlaqəsi nədən ibarətdir?" sualına da bu fikirlərdən çıxış edərək cavab vermək mümkündür. Belə hesab edirik ki, DİM ilə informasiya hüquq sahəsinin qarşılıqlı əlaqəsini, ilk öncə, informasiyanın mübadiləsi prosesi ilə başlamaq olar. Məntiqi-nəzəri cəhətdən, informasiya hüquq sahəsinin formalaşması cəmiyyətin növbəti inkişaf mərhələsinə keçməsi, yəni inkişafının sürətlənməsi ilə bağlıdır. İnformasiya hüquq sahəsinin əsas predmetini təşkil edən İKT-nin hüquqi cəhətdən tənzimlənməsi problemləri də cəmiyyətin bütün sahələrində gedən inkişafın nəticəsidir. DİM və 2030 Gündəliyi də, öz növbəsində, bu cür hərtərəfli və kompleks inkişafın məhsuludur. Yəni ki, İKT, informasiya hüquqları və 2030 Gündəliyi ümumilikdə vahid bir inkişaf prosesinin, "informasiya cəmiyyəti" və "bilik cəmiyyəti"-nin tərkib hissələridir. Bu formada olan qarşılıqlı əlaqəni biz kompyuter proqramlarını nümunə göstərməklə rahat şəkildə izah edə bilərik. Kompyuter proqramlarının hüquqi cəhətdən tənzimlənməsi, şəxsi məlumatların gizliliyinin

və təhlükəsizliyinin təmin edilməsi, müvafiq hüquq normalarının təhlili kimi məsələlər, ilk öncə, informasiya hüquq sahəsinin predmetinə daxildir. Eyni zamanda həmin kompyuter proqramlarından düzgün və təhlükəsiz şəkildə istifadə DİM-in məqsədləri sırasında olan innovativ yanaşma, texnologiyalardan düzgün şəkildə istifadə, enerji resurslarının məqsədəuyğun idarə olunması, qida təhlükəsizliyinin yüksəldilməsi, tibbi təminatın inkişafı və s. deməkdir. Yəni ki, informasiya hüquq sahəsi təkcə əlaqədar insan hüquqlarını deyil, İKT-nin bütün ictimai və xüsusi sahələrdə olan təsirini və tətbiqat metodlarını hüquqi cəhətdən araşdırır. İKT-nin hüquqi tənzimlənmə meyarları isə Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsi zamanı ciddi şəkildə nəzərə alınır. Həmçinin, nəzərə almaq lazımdır ki, informasiya hüquq sahəsinin məqsədlərindən biri informasiya azadlığının bir subyektiv hüquq kimi təhlilindən ibarətdir. Öz növbəsində, Dayanıqlı İnkişaf Məqsədlərinin bir neçəsi də informasiya azadlığının təmin edilməsi elementlərini bəzi 2030 Məqsədlərinə daxil olan hədəflər siyahısında təqdim edir. Məsələn, 2030 Gündəliyi sağlam həyat tərzinin və ümumi rifahın təmin edilməsini məqsəd kimi qarşıya qoyur. İnformasiya azadlığı isə rəqəmsal texnologiyaların səhiyyə sahəsində tətbiqini, tibbi məlumatların yeni texnologiyalar vasitəsilə qorunmasını, elektron bazaların təhlil edilməsini və bu haqda əhalinin məlumatlandırılmasını, ictimai rifahın yüksəldilməsinə mane olan problemlər haqqında informasiyanın cəmiyyətə vaxtında çatıdırılmasını, rəqəmsal inkişaf hüququnu ehtiva edir. Digər tərəfdən, 2030 Gündəliyi gender bərabərliyi və qadınların ictimai həyatda iştirakını həll edilməli olan problem kimi qarşıya qoyur. İnformasiya hüquq sahəsinin normaları da qadınların texnologiyalardan sərbəst istifadəsini, dövlət və qeyri-dövlət sektorunun informasiya mübadiləsində ayrı-seçkilik qoyulmadan iştirakını tələb edir. 2030 Gündəliyi sənayeləşməni və innovativ yanaşmanı dəstəkləyir. Bu cür innovativ və texnoloji yanaşma isə İnternetə çıxışın tam təmin olunmasını, rəqəmsal informasiya azadlığından maneəsiz istifadəni nəzərdə tutur. Başqa bir tərəfdən yaşayış məskənlərinin inlyüziv və dayanıqlı olması DİM-ə daxil edilmişdir. Şəhərlərin və digər yaşayış məntəqələrinin təhlükəsizliyini və möhkəmliyini isə əhalinin informasiya azadlığı olmadan təsəvvür etmək mümkün deyildir. Həmçinin, 2030 Gündəliyi sülhsevər və inklyüziv cəmiyyəti təbliğ etmək, hər kəs üçün ədaləti təmin etmək, və bütün səviyyələrdə səmərəli, məsul və inklyüziv institutları yaratmaq məqsədi güdür. Bu məqsədə dair hədəflər sırasında isə cəmiyyətin informasiyaya çıxış hüququn təmin edilməsi, şəffaf idarəetmənin olması və korrupsiyaya qarşı mübarizə kimi ideyalar müəyyən edilmişdir.

Dayanıqlı İnkişaf Məqsədlərinin bütövlükdə və sistemli şəkildə realizə edilməsi informasiya sferasında olan insan hüquqlarının yaxından iştirakını nəzərdə tutur ki, informasiya hüquq sahəsi bu qarşılıqlı əlaqəni araşdırır və gələcəyini müəyyənləşdirir. Məsələn, DİM və 2030 Gündəliyinin ümumilikdə yerinə yetirilməsi bu işdə hamının bir-birinə dəstək olmasını və əlbir şəkildə effektiv implementasiyanı nəzərdə tutur. Lakin bu cür sistemli fəaliyyət üçün

2030 Gündəliyi haqqında məlumat əhaliyə lazımi səviyyədə çatıdırılmalı, onların bu haqda informasiyası zəngin olmalıdır. Başqa sözlə, əhalinin müasir dövrün problemləri və inkişaf tendensiyaları haqqında həqiqi, yeni və əsaslı məlumatı olmalıdır. İnformasiya sahəsindəki insan hüquqları vasitəsi ilə DİM haqqında geniş təbliğat və təşviqat aparılmalıdır. DİM və 2030 Gündəliyi naminə əməkdaşlığın yüksək səviyyədə təşkil edilməsi üçün media hüquqlarından, internet hüquqlarından geniş şəkildə istifadəni nəzərdə tutulmalıdır. DİM istiqamətində digər sahələrdə olduğu kimi informasiya sektorunda da vətəndaş idarəetməsinə ehtiyac böyükdür.

**DİM və informasiya cəmiyyətinin inkişafı**

İnformasiya cəmiyyəti informasiya hüququ sahəsinin predmet dairəsi içərisində xüsusi çəkiyə malik məfhumlardan biridir. İnformasiya cəmiyyətində inkişaf tendensiyaları bütövlükdə İKT nailiyyətlərini ehtiva etdiyinə görə DİM-in bu istiqamətdə təhlili də mühüm məsələlərdən biridir. İnformasiya cəmiyyəti və DİM bir sıra istiqamətlərdə qarşılıqlı əlaqələrə malikdir. İnformasiya cəmiyyətini təşkil edən əsas cəhətlər sırasında qeyri-istehsal sektorunun inkişafı, sosial sektor və dövlət sektorunun informasiya infrastrukturundan asılılı və s. əksini tapmışdır.[5;s.52] Bu əlamətləri DİM üzrə 2030 Gündəliyinin əsas müddəaları ilə müqayisə edərək bir sıra eyniliklər üzə çıxara bilərik. Bununla belə, informasiya cəmiyyəti ilə DİM arasında olan əsas əlaqənin informasiya təhlükəsizliyi üzərində qurulduğunu təklif edə bilərik.

Dünya üzrə cəmiyyətlərin tarixi formalaşması və inkişafındakı bəzi mərhələləri fərqləndirmək olar. Məlumdur ki, cəmiyyətin ilkin təzahür formaları kollektiv yaşayış növü olan qəbilə, tayfa və digər xırda birliklər formasında ibtidai icma şəklində olmuşdur. Bu zaman insanlar arasında informasiya mübadiləsi primitiv üsullarla baş verirdi. Sonrakı dövrdə danışıq və yazı dilinin, mədəniyyətin inkişafı, çap və elektron mexanizmlərin kəşfi informasiya mübadiləsini daha mürəkkəb etmişdir. Bu mənada informasiya cəmiyyətinin təşəkkülünə də biz dar və geniş mənada yanaşa bilərik. Geniş mənada informasiya cəmiyyəti insanlar arasında ilkin informasiya mübadiləsi prosesindən başlayaraq hazırkı süni intellekt, rəqəmsal hüquqlar və s. kimi yeniliklərin hamısını ehtiva edir və tarixi baxımından bir neçə min il yaşı vardır. Dar mənada isə informasiya cəmiyyəti son onilliklərdə informasiya ictimai çəkisinin xüsusi artması, informasiya texnologiyaların sürətli inkişafı ilə xarakterizə edilə bilər. Milli və beynəlxalq səviyyələrdə yeni inkişaf mərhələsi hesab olunan informasiya cəmiyyətinin formalaşması həlli vacib olan bir sıra məsələlərə səbəb oldu. Bu baxımdan informasiya təhlükəsizliyi və milli təhlükəsizlik konsepsiyasındakı rolu müasir cəmiyyətin qarşısında duran vacib problemlərdən biridir. İnformasiya təhlükəsizliyinə bir çox yanaşma təklif edilmişdir ki, bunlardan biri də insan hüquqları yanaşması ola bilər. İnsan hüquqları səmərəli informasiya cəmiyyətini təşviq etmək üçün vacibdir və informasiya təhlükəsizliyinin təməl bazası olmalıdır. İnsan hüquqlarına əsaslanan yanaşma,

kiber təhlükəsizliyə qarşı da həyata keçirilə bilər. İnsan hüquqları, informasiya təhlükəsizliyi ilə bağlı bir neçə nəticəni ehtiva edir. Hal hazırda informasiya hüququ ayrı bir hüquq sahəsidir və insan hüquqlarının informasiya təhlükəsizliyi ilə əlaqədi bu sahə daxilində araşdırıla bilər. İnformasiya sahəsində təhlükəsizliyin təmin edilməsinin hüquqi əsası tədqiqatçılar və elm adamları tərəfindən "informasiya təhlükəsizliyi", "kiber təhlükəsizlik", "İnternet təhlükəsizliyi" kimi müxtəlif mənalarda ifadə edilmişdir.[27;s.8-9]

Daha geniş məna kəsb edən "rəqəmsal təhlükəsizlik" məsələsini də nəzərdən keçirə bilərik. Rəqəmsal təhlükəsizlik, hətta ən kiçik rəqəmsal detalların, məlumat sayılmayan elementlərin təhlükəsizliyini təmin etmək fikrini dəstəkləyir. Təhlükəsizliyi nəyisə təhdidlərdən uzaq tutmaq üçün imkanlar və vasitələr sistemi kimi izah etmək olar. Bu mənada informasiya təhlükəsizliyi məlumat xarakterli bütün elementlərin təhlükəsizliyini təmin etmək deməkdir. Bu prosesdə insan hüquqlarının rolu fərqli yanaşmalar şəklində özünü göstərir. Bir çox insan hüquqları, informasiya təhlükəsizliyinə birbaşa və dolayı yolla təsir edən informasiya axınında qarşılıqlı əlaqədədir. Kiber təhlükəsizlik üçün də eyni fikri söyləmək mümkündür. Kibertəhlükəsizliyə dair məsələlər, xüsusən gizlilik, ifadə azadlığı və sərbəst məlumat axını baxımından bir çox cəhətdən insan hüquqlarına toxunur. İnformasiyaya gəldikdə isə, ilk növbədə ifadə və məlumat azadlığı vurğulanmalıdır. Maraqlıdır ki, informasiya təhlükəsizliyi pozuntuları həmişə insan hüquqlarının pozulması hesab edilmir. Məsələn virusların yayılması və ya hər hansı bir internet saytına hücum əslində fikir və ifadə azadlığına müdaxilə deməkdir. Bununla belə, biz adətən əlaqədar insan hüquqlarını kənara qoyaraq informasiya məkanına müdaxilə barədə danışırıq və müvafiq insan hüquqlarını axtarmağı unuduruq. İfadə və informasiya azadlığı informasiya təhlükəsizliyini insan hüquqları ilə əlaqələndirən yeganə konsepsiya deyil. İnformasiya təhlükəsizliyinin hamı üçün eyni dərəcədə təmin edilməsi ənənəvi bərabərlik hüququnu nəzərdə tutur. Şəxsi məlumatların kənar müdaxilələrdən qorunması şəxsi azadlıq və toxunulmazlıq hüququnun müasir bir elementi hesab edilə bilər. Qeyri-qanuni müdaxilədən qorunma da informasiya hüquqlarının qanuni şəkildə təmin olunduğunu ehtiva edir. Bütün beynəlxalq təşkilatlar tərəfindən mülkiyyət hüquqlarının yeni təfsiri, saytların və informasiya məhsullarının sahibliyini də əhatə edə bilər. Digər tərəfdən, informasiya təhlükəsizliyini inkişaf etmək hüququ, mədəni həyatda iştirak etmək hüququ, yaradıcılıq hüququ və s. ilə də əlaqələndirilə bilər. Bu nümunələr göstərir ki, bütün insan hüquqları qrupları informasiya təhlükəsizliyi ideyalarını mülki, siyasi, sosial və mədəni baxımdan mənimsəyir.

Bununla birlikdə, informasiya təhlükəsizliyi insan hüquqları sisteminin ancaq müsbət tərəfi deyil. Rəqəmsal mühitdən istifadə informasiya hüquqlarını sarsıdan fəaliyyəti də ehtiva edə bilər. Bu hallar həddindən artıq informasiya dövriyyəsi azadlığının ciddi təhlükəsizlik problemlərinə səbəb olmasının göstəricisidir. Əlavə etmək lazımdır ki, belə bir çətinlik qaçılmaz və məntiqlidir. Çünki ayrı-ayrı bölgələrdə və qlobal miqyasda inteqrasiya dövründə tam milli

informasiya məkanlarından yalnız nisbi mənada danışa bilərik. Bu nisbilik həm də informasiya məkanının son dərəcə geniş və müxtəlif olması ilə əlaqədardır. Eyni şey İnternetdə də var. İnsanların müxtəlif ölkələrin təşkilatları və vətəndaşları ilə əlaqə qurması artıq uzunmüddətli bir proses deyil. Bu fikrə əsaslanaraq, bəzi ölkələr sosial media və internet istifadəçilərinin sayı baxımından peşəkar olan Facebook, Instagram və s. istifadə edir. Sosial media heç bir sərhəd tanımır, ancaq bir sıra hüquq pozuntularının da çətin tapılmasına səbəb olur. İnsanın fərdi inkişafında və cəmiyyətin ümumi intellektual səviyyəsinin yüksəldilməsində İnternetin rolu böyükdür. Bununla əlaqədar olaraq, informasiya təhlükəsizliyinə əsaslanan İnternet azadlığını məhdudlaşdırmaq yox, müvafiq nəzarət mexanizmlərini inkişaf etdirmək lazımdır. Bu nəzarət və tənzimləmə mövzusu təkcə aktiv istifadə zamanı İnternetə tətbiq olunan hüquqlarla bağlı deyil, həm də İnternetlə əlaqəli, lakin real həyatda tətbiq olunan hüquqlarla da bağlı olmalıdır.

İnformasiya təhlükəsizliyi və kiber təhlükəsizlik fərdi insan hüquqları kimi qiymətləndirilə bilər. Məntiqi olaraq, bir insanın fiziki toxunulmazlıq və təhlükəsizlik hüququ varsa, ona aid olan məlumatların təhlükəsizliyi haqqında da subyektiv bir hüquq olaraq danışa bilərik. İnformasiya təhlükəsizliyinə gəldikdə, kollektiv informasiya təhlükəsizliyi hüququndan danışmaq mümkündür. Bu fikir yuxarıda göstərilən qeyri-dövlət mexanizmlərinin nəzarət funksiyası ilə də üst-üstə düşür. Kibertəhlükəsizlik fəaliyyətini tənzimləyən bir çox qanunverici aktları, demək olar ki, hər bir dövlətdə mövcuddur, lakin bu kifayət deyil. Mütəxəssislər kiberməkanda fəaliyyətlərini birləşdirmək üçün ümumi beynəlxalq sənədlərin və qlobal idarəetmənin qurulmasının zəruriliyini vurğulayırlar.[32;s.22] İnformasiya təhlükəsizliyini təmin etmək bir çox beynəlxalq təşkilatların funksiyalarına daxildir. Bununla birlikdə, informasiya hərəkəti formalarının müxtəlifliyi bu təhlükəsizlik məqsədinin tam reallaşmasına mənfi təsir göstərir. Hər bir təşkilat fəaliyyətinə uyğun olaraq informasiya təhlükəsizliyi standartlarını hazırlayır. Vahid qlobal informasiya təhlükəsizliyi strategiyasının olmaması hər bölgədə və ölkədə yerli şəraitin həddindən artıq müxtəlifliyi ilə də izah edilə bilər.

## Təhsil hüququ Dayanıqlı İnkişaf Məqsədi və informasiya mübadiləsi prosesi kimi

Şübhəsizdir ki, təhsilin keyfiyyətinin və effektivliyinin artırılması təkcə ayrıca bir inkişaf məqsədi kimi nəzərdən keçirilməyib, bütövlükdə bütün Dayanıqlı İnkişaf Məqsədlərinin və bütün insan hüquqlarının həyata keçirilməsi üçün əsas rolunu oynayır. Beynəlxalq hesabatlara əsasən, heç bir ayrı-seçkilik qoyulmadan təmin olunan təhsil sistemi bir müddətdən sonra iqtisadi-sosial sabitlik, ictimai rifah və sağlam həyat, iqtisadi artım və yoxsulluğun aradan qaldırılması kimi bir çox çətin məqsədlərə nail olmanı asanlaşdırır.[12] Məhz bu baxımdan təhsilin hüquqi cəhətdən tənzimlənməsinə ciddi önəm verilməli, "informasiya cəmiyyəti" və "bilik cəmiyyət"-lərində təhsilin oynadığı rol təhlil

edilməli və təhsilsiz inkişafın dayanıqlı olmayacağı vurğulanmalıdır. Fikrimizcə, insan hüquqları və DİM-in qovşağında yerləşən təhsili müəyyən spesifik xüsusiyyətlərlə xarakterizə etmək mümkündür. Bir subyektiv insan hüququ kimi təhsil haqqında beynəlxalq hüquq normaları və izahlar kifayət qədərdir. Yəni, təhsil hüququnun vacibiyyəti bütün aparıcı insan hüquqları mexanizmləri tərəfindən vurğulanır. DİM-dən biri kimi təhsil haqqında da geniş təfsirlər mövcuddur. Bu təfsirlər təhsilə 2030 Gündəliyində xüsusi diqqətin verilməsi və 4-cü Məqsəd kimi təsbit edilməsi ilə bağlıdır.

Təhsil prosesindəki əsas iştirakçılar olan uşaqlar və gənclər beynəlxalq birliyin və cəmiyyətin xüsusi diqqət göstərdiyi əhali qrupu hesab olunur. Bu qrupdan olan subyektlərin təhsil alması onların öz hüquqlarından digər ictimai və fərdi sahələrdə istifadə etmələrinə xüsusilə ciddi təsir edir. Öz növbəsində, 2030 Gündəliyi də uşaqların və gənclərin daha ixtisaslı təhsil alması, daha peşəkar vərdişlərə yiyələnərək cəmiyyətin həyatında daha mühüm rol oynaması məqsədini güdür. DİM-də qeyd olunan təhsilin keyfiyyəti və effektivliyi üzrə hədəflər bir subyektiv hüquq kimi təhsil üzərinə qoyulan kriteriyalar ilə xeyli oxşardır. Bu kriteriyaların eyniliyi həm DİM, həm də subyektiv hüquq kimi təhsil məsələlərinə kompleks şəkildə yanaşmağa imkan verir. Məsələn, təhsildə gender bərabərliyinin təmin olunması həm beynəlxalq hüquq normasının tələbi, həm də 2030 Gündəliyinin hədəflərindən biridir. Alimlərin də dediyi kimi, təhsil sahəsində kiçik bərabərsizliyə və ayrı-seçkiliyə yol verilməsi gələcəkdə daha irimiqyaslı ziddiyyətlərin yaranmasına gətirib çıxarır.[9] Başqa bir tərəfdən isə, təhsil özü komplek xarakter daşıyıb bütün ictimai məsələləri, o cümlədən də inkişaf problemlərini də əhatə etməlidir. Əks halda, təhsilin keyfiyyəti və müasirliyi, dünya standartlarına cavab verməsi sual altına qoyulacaqdır. Subyektiv mənada təhsil hüququ insan hüquqları sistemində özünəməxsus yer tutmuşdur. Bir tərəfdən təhsil hüquq ayrıca bir insan hüququdur. Təhsil hüquq insanların heç bir ayrı seçkilik qoyulmadan və bərabər şəkildə keyfiyyətli və müasir təhsil almaq, oxumaq, tədqiqat aparmaq və elmi fəaliyyətlə məşğul olmaq sərbəstliyini təsbit edir. Digər tərəfdən isə təhsil bütün insan hüquqlarının universallığının, nölünməzliyinin və bərabərliyinin təminatçısıdır. Başqa sözlə, bütün insan hüquqlarının təbliği təhsil vasitəsi ilə mümkündür. Buna görə də ayrıca bir istiqamət – “insan hüquqları üzrə təhsil” istiqaməti formalaşmışdır.[20;s.9] Bu istiqamət BMT-in müvafiq bəyannaməsində də öz rəsmi təsdiqini tapmışdır.[28] Eyni hal 2030 Gündəliyində də mövcuddur. Dayanıqlı İnkişaf Məqsədlərindən biri kimi təhsilə verilən diqqət ayrıca bir istiqamətin “dayanıqlı inkişaf üzrə təhsil” metodikasının işlənib hazırlanmasına gətirib çıxarmışdır.[21] Bu nəzəri və praktiki istiqamətin əsas mənası ondan ibarətdir ki, keyfiyyətli təhsilin təmin edilməsi artıq bütünlükdə 2030 Gündəliyinin icrası üçün vacibdir. Yəni ki, təhsil xüsusi İnkişaf Məqsədi olmaqdan əlavə, həm də bütün DİM sistemi üçün bünovrə rolunu oynayır. Tədqiqatçıların da qeyd etdiyi kimi, müasir dövrdə təhsil vasitəsi ilə cəmiyyətə dayanıqlı inkişaf izah olunur, vətəndaşların oynaya biləcəyi rol təhlil edilir [6; s.125-156]

Bu cür yanaşma subyektiv hüquq kimi təhsil hüququnun da mənası ilə uyğunlaşır.

**Nəticə**

İnformasiya sferasında DİM və insan hüquqlarının uzlaşdırılması özündə bir sıra çətinlikləri ehtiva edir. Bu çətinliklər və 2030 Gündəliyində müəyyən edilən insan hüquqları tələblərinin effektiv icrası dünya dövlətlərinin pərakəndə fəaliyyətini birləşdirməyi tələb edir. Etiraf etməliyik ki, siyasi və iqtisadi maraqlar arasında ziddiyyət DİM-in hərtərəfli icrasını xeyli zəiflədir. Nəticə olaraq inkişaf etmiş dövlətlər DİM-i daha güclü şəkidlə, inkişafda olan dövlətlər isə daha zəif şəkildə yerinə yetirir. Məsələnin bu cür qoyuluşu DİM və onun icrası ilə bağlı yaranan çətinliklərin həllində elm, təhsil və tədqiqat istiqamətində əməkdaşlığın əhəmiyyəti və xüsusi çəkisini xeyli artırır. Ayrıca Məqsəd kimi müəyyən edilən təhsil, elm və innovasiya üzrə fəaliyyət informasiya cəmiyyətində bütün tip məsələlərin həllinə, uzlaşdırılmasına yeni prizmadan baxmağa şərait yaradır. Hazırkı təhsil təlim-tədris prosesi olduğu üçün biz təhsil sisteminə ancaq dərs oxumağı və ya nəyisə öyrənməyi özündə ehtiva edən sadə bir mexanizm kimi baxa bilmərik. Fikrimizcə, təhsil prosesi təhsil hüququnun realizasiyasından əlavə həm də bir informasiya mübadiləsi prosesidir. İnsan hüquqları nöqteyi-nəzərindən təhsil prosesində, demək olar ki, bütün informasiya hüquqları və informasiya azadlıqları iştirak edir. Çünki təlim-tədris zamanı hansısa yeni fikirlər çatdırılır, bəzi fikirlər tənqid olunur, hansısa mühakimələrə etiraz olunur, elmi tədqiqatlar aparılır, yeni nəzəriyyələr formalaşır və s. Eyni zamanda təhsil hansısa utopik fikirlərə deyil, real və həqiqi informasiyanın cəmiyyətə çatıdırılması, həmin informasiyanın öütürülməsi, dəyişilməsi və qavranılması məqsədi güdür. Bu mənada təhsil prosesi və təhsil hüququ informasiya hüquqlarından istifadə üçün yeni bir müstəvi kimi informasiya hüquq sahəsinin predmet dairəsinə daxil olur. Başqa bir prizmadan baxdıqda, təhsil təlim-tərbiyə sistemi olub iştirak edən insanların inkişaf etməsinə, fərdi və ictimai cəhətdən püxtələşməsinə şərait yaradır. Bu mülahizə təhsil hüququ ilə kollektiv inkişaf hüququnun nə qədər yaxınmənalı olduğunu göstərir. Dayanıqlı İnkişaf Məqsədləri siyahısına təhsilin ayrıca məqsəd kimi daxil edilməsi də bu fikrimizi təsdiq edir. 2030 Gündəliyində təhsil subyektiv hüquq kimi yox, dayanıqlı inkişafın tələbi kimi baxılsa da, son nəticədə təhsil yenə də DİM-in hamısı üçün vacib olan informasiya mübadiləsi, təbliğ-təşviq mexanizmindən başqa bir şey deyildir. Məhz bu səbəbdən təhsil "informasiya cəmiyyəti" və "bilik cəmiyyəti"-nin formalaşmasında da müstəsna rola malikdir.

Təhsil digər insan hüquqlarının ümumi cəhəti olan universallığı özündə birləşdirir və bir subyektiv hüquq kimi qlobal vətəndaşlıq ideyaları ilə sıx bağlıdır. Təhsil hüququna biz eyni bir zamanda həm mülki, həm iqtisadi, həm sosial və həm də mədəni hüquq kimi baxa bilərik. Məhz bu səbəbdən də insan hüquqları üzrə bütün əsas beynəlxalq sənədlər təhsil hüququnu təsbit etmişlər.

Təhsil hüququ dövlətlər üzərinə bitmiş yox, davamedici öhdəlik qoyaraq əhalinin savadlılıq dərəcəsinin artırılmasını məcburi inkişaf edən tələb kimi müəyyən etmişdir. Bu mənada Azərbaycan Respublikasının Konstitusiyası birbaşa şəkildə təhsil hüququnu öz məzmununa daxil etmişdir. Ümumilikdə götürsək, təhsil hüququ və təhsil sferasında informasiya hüquqları ilə bağlı milli hüquq normaları bu və ya digər şəkildə bütün dövlətlərin qanunvericiliyində vardır. Lakin bu hüquq normaları öz xarakterinə, məzmununa və əhatə dairəsinə, tələblərinə görə müxtəlifdir. Təbiidir ki, hər bir ölkənin təhsil qanunvericiliyi o dövlətin daxili mühiti, sosial-siyasi kriteriyaların təsiri nəticəsində formalaşır və qonşu dövlətlərin qanunvericiliyini təkrarlamır. Universal insan hüquqları təşkilatı olan BMT çərçivəsində təhsil hüququ və təhsilin keyfiyyətinin artırılması üzrə bir çox sənədlər qəbul olunsa da, üzv dövlətlər bu beynəlxalq normaların implementasiyasını fərqli səviyyədə həyata keçirir. Təhsil sahəsində digər regional təşkilatların (Avropa Şurası, Avropa İttifaqı və s.) da qəbul etdiyi sənədlər bu istiqamətdə milli qanunvericiliklər arasında fərqlərin zəiflədilməsinə az təsir göstərir. Bu səbəbdən bəzi tədqiqatçılar universal təhsil standartlarınn həyata keçirilməsinin getdikcə daha da çətinləşdiyini, milli fərqlərin aradan qaldırılmasının qeyri-mümkünlüyü irəli sürürlər.[25] İnformasiya mübadiləsi müstəvisi kimi təhsil hüququ informasiya hüquq sahəsinin predmetinə daxildir və bu predmetin digər elementləri ilə də sıx şəkildə bağlıdır:

- Təhsil prosesi elektron hüquqları, informasiya təhlükəsizliyi, elektron əqli mülkiyyət və s. kimi informasiya hüquqları ilə sıx şəkildə bağlıdır
- İKT təhsil prosesində yeni metodologiya və üsullardan istifadəni şərtləndirir
- Təhsil sisteminin texnoloji cəhətdən inkişafı yeni tədris formalarının (məsələn, distant təhsil) yaradılmasına şərait yaradır

Yuxarıda qeyd olunan xüsusiyyətlərə görə təhsilə biz həm subyektiv insan hüququ, həm 2030 Gündəliyinin məqsədlərindən biri kimi, həm də informasiya hüquq sahəsinin yeni predmet elementlərindən biri kimi nəzərdən keçirə bilərik. Subyektiv hüquq kimi təhsil hüququnun əsas cəhətləri BMT-in İqtisadi, Sosial və Mədəni Hüquqlar üzrə Komitəsi tərəfindən müəyyən edilmişdir [30] :

a) Mövcudiyyət – Fəaliyyət göstərən təhsil qurumları və proqramları Üzv Dövlətin yurisdiksiyası daxilində qənaətbəxş miqdarda mövcud olmalıdır. Onların necə fəaliyyət göstərməsi özlərinin daşıdıqları əhəmiyyətin məzmunu da daxil olmaqla, bir çox faktorlardan asılıdır. Məsələn, bütün qurumlar və proqramlar, böüyk ehtimal ki, müvafiq binalar və ya başqa mühafizəni, hər iki cins (qadın və kişi) üçün sanitariya-təmizlik vasitələrini, təmiz içməli su, dövlət daxilində rəqabətə davamlı ödənişlər alan ixtisaslı müəllimlər və s. tələb edəcəkdir. Eyni zamanda bəzi qurumlar həmçinin kitabxana, kompyuter ləvazimatları və informasiya texnologiyaları kimi vasitələr də tələb edəcəkdir.
b) Əlçatanlıq – Üzv Dövlətin yurisdiksiyası daxilində təhsil qurumları və proqramları hər kəsə heç bir ayrı-seçkilik qoyulmadan əlçatan olmalıdır.

Əlçatanlıq üst-üstə düşən 3 məna çalarına malikdir:

Ayrı-seçkiliyə yol verməmək – təhsil qanunda və reallıqda heç bir qadağan olunmuş əsaslarla ayrı-seçkiliyə yol verilmədən hamıya, xüsusilə də həssas qruplara əlçatan olmalıdır;

Fiziki cəhətdən əlçatanlıq – Ya iştirak üçün məqbul sayılan hansısa coğrafi məkanda (məsələn qonşuluqdakı məktəbdə) və ya müasir texnologiyaların köməyi (məsələn, "distant təhsil" proqramına çıxış) olmaqla, təhsil təhlükəsiz fiziki çatım ərazisində olmalıdır;

İqtisadi əlçatımlıq – təhsil hamı üçün əlverişli olmalıdır........orta təhsil hamı üçün ödənişsiz olacaqdır. Üzv dövlətlərdən ikinci və ali təhsili də proqressiv şəkildə ödənişsiz etmələri tələb olunur;

c) Qəbuledilənlik - təhsilin forma və məzmunu, o cümlədən tədris proqramları və tədris metodları da daxil olmaqla, tələbə və müvafiq hallarda valideynlər üçün məqbul (məsələn, mədəni cəhətdən uyğun və yaxşı keyfiyyətdə) olmalıdır.....;

d) Uyğunluq - təhsilin dəyişkən cəmiyyətlər və icmaların ehtiyaclarına uyğunlaşması və tələbələrin müxtəlif sosial və mədəni şəraitlərdə ehtiyaclarına cavab verə bilməsi üçün əyilgən olmalıdır.

2030 Gündəliyində isə keyfiyyətli və inklyüziv təhsilin təmin edilməsi üzrə aşağıdakı hədəflər sadalanmışdır [4] :

- 2030-cu ilədək, bütün qız və oğlanların müvafiq və 4-cü məqsədin effektli təlim nəticələrinə nail olmağa imkan verən pulsuz, bərabər və keyfiyyətli ibtidai və orta təhsil pillələrini bitirmələrini təmin etmək;
- 2030-cu ilədək, ibtidai təhsilə hazır olmaları üçün bütün qız və oğlanların keyfiyyətli erkən uşaq inkişafı, qayğı və məktəbəqədər təhsilə çıxış imkanlarını təmin etmək;
- 2030-cu ilədək, bütün qadınlar və kişilər üçün maliyyə baxımından münasib və keyfiyyətli texniki, peşə və ali təhsilə, o cümlədən universitet təhsilinə bərabər çıxış imkanını təmin etmək;
- 2030-cu ilədək, məşğulluq, layiqli iş imkanları və sahibkarlıq fəaliyyəti üçün müvafiq bacarıqlara, o cümlədən texniki və peşə vərdişlərinə malik olan gənclərin və yetkin insanların sayını əhəmiyyətli dərəcədə artırmaq;
- 2030-cu ilədək, təhsil sahəsində gender əsaslı bərabərsizlikləri aradan qaldırmaq və əhalinin həssas qrupları, əlillər, aborigen xalqların nümayəndələri və həssas qruplardan olan uşaqlar üçün bütün səviyyələrdə təhsilə və peşə təliminə bərabər çıxış imkanını təmin etmək;
- 2030-cu ilədək, cinsindən asılı olmayaraq, bütün gənclərin və yetkin əhalinin əhəmiyyətli hissəsinin oxuma-yazma və hesablama bacarıqlarına malik olmasını təmin etmək;
- 2030-cu ilədək, bütün təhsil alanların başqa vasitələrlə yanaşı, dayanıqlı inkişaf və dayanıqlı həyat tərzləri, insan hüquqları, gender bərabərliyi, sülh və qeyri-zorakılığın təşviq edilməsi, dünya vətəndaşlığı konsepsiyası və mədəni müxtəliflik dəyərlərinin başa düşülməsi və mədəniyyətin dayanıqlı

inkişafa töhfəsi sahələrində maarifləndirmə vasitəsilə dayanıqlı inkişafı təşviq etmək üçün zəruri olan bilik və vərdişlərə yiyələnmələrini təmin etmək;
- Uşaq, əlillik və gender məsələlərinə həssas yanaşan və hamı üçün təhlükəsiz, zorakılığa yol verilməyən, inklüziv və effektiv təlim mühitini təmin edən təhsil müəssisələrini qurmaq və onları təkmilləşdirmək;
- 2020-ci ilədək, inkişaf etməkdə olan ölkələr, xüsusən də ən az inkişaf etmiş ölkələr, kiçik adalarda yerləşən inkişaf etməkdə olan dövlətlər və Afrika ölkələri üçün inkişaf etmiş ölkələrdə və digər inkişaf etməkdə olan ölkələrdə ali təhsil, o cümlədən peşə təlimi və informasiya və kommunikasiya texnologiyaları, texniki mühəndislik və elmi proqramlar üzrə təqaüdlərin sayını qlobal səviyyədə əhəmiyyətli dərəcədə artırmaq;
- 2030-cu ilədək inkişaf etməkdə olan ölkələrdə, xüsusən də ən az inkişaf etmiş ölkələrdə və kiçik adalarda yerləşən inkişaf etməkdə olan ölkələrdə müəllimlərin hazırlığı sahəsində beynəlxalq əməkdaşlıq vasitəsilə ixtisaslı müəllimlərin sayını əhəmiyyətli dərəcədə artırmaq.

Daha öncə də qeyd etdiyimiz kimi DİM-in reallaşdırılmasında dövlət, beynəlxalq təşkilatlar kimi ənənəvi subyektlərdə yanaşı, vətəndaş cəmiyyəti qurumları, xüsusilə elmi qurumlar üzərinə də ciddi öhdəliklər düşür.[18;s.64] Özəl sferaya aid edilən öhdəliklər daha çox iqtisadi xarakter daşıyır. Elm və təhsil sahəsində olan dayanıqlı inkişaf tələbləri isə həm dövlət, həm də qeyri-dövlət qurumlarının öz səylərini birləşdirməsini tələb edir. Bu mənada bir çox Avropa universitetləri DİM üzrə müxtəlif fənlər və tədris proqramları təklif edirlər.[7;s.1] Fikrimizcə, oxşar fənn və tədris proqramlarının tətbiqi Azərbaycan Respublikasının təhsil müəssisələrində təşkil edilə bilər. Dayanıqlı inkişaf konsepsiyalarının hüquqi təhlili və araşdırılması bir sıra hüquq sahələri daxilində mümkündür. Belə ki, DİM üzrə ayrı-ayrı mövzular mülki hüquq, konstitusiya hüququ, cinayət hüququ, biznes hüququ, vergi hüququ və s. fənlərə daxil edilə bilər. DİM və əqli mülkiyyətin innovasiya çərçivəsində uzlaşdırılmasını Ümumdünya Əqli Mülkiyyət Təşkilatının 2019-cu il broşürasında da görə bilərik.[35] Bu da bizə onu deməyə əsas verir ki, DİM əqli mülkiyyətə dair fənlər çərçivəsində də araşdırıla bilər. Bununla belə, düşünürük ki, DİM-in hüquqi təhlili üçün ən müvafiq sahə insan hüquqları və informasiya hüququ sahələridir. İnformasiya hüququ çərçivəsində dayanıqlı inkişaf konsepsiyasını informasiya cəmiyyəti, növbəti inkişaf forması olan bilik cəmiyyətinə keçid, İKT-dən dayanıqlı inkişaf üçün istifadə və s. aspektlərdə öyrənmək olar. İnsan hüquqları sahəsi isə bütövlükdə DİM və dayanıqlı inkişafın əsaslarını öyrənmək üçün mükəmməl elmi bazaya malikdir. Bu mənada ayrıca dayanıqlı inkişaf və inkişaf hüququ, sosial təhlükəsizlik və dayanıqlı inkişaf, ekoloji hüquqlar və dayanıqlı inkişaf, əmək hüquqları və dayanıqlı inkişaf və s. səpkidə tədrisi təşkil etmək mümkündür.

## ƏDƏBİYYAT


1. Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının yaradılması haqqında" 6 oktyabr 2016-cı il tarixli № 1066 saylı Fərmanı http://www.e-qanun.az/framework/33838
2. Beynəlxalq Dayanıqlı İnkişaf Hüquq Mərkəzinin rəsmi saytı - http://www.cisdl.org/about/
3. BMT-nin İnkişaf Proqramının Azərbaycan Nümayəndəliyinin rəsmi saytı - http://www.az.undp.org
4. Dayanıqlı İnkişaf üzrə 2030 Gündəliyi. Məqsəd 4: Hər kəs üçün inklüziv və keyfiyyətli təhsili təmin etmək və ömür boyu təhsili təşviq etmək
http://unazerbaijan.org/az/sdgs/dm4-keyfiyy%C9%99tli-t%C9%99hsil/
5. Əliyev Ə.İ., Rzayeva G.A., İbrahimova A.N., Məhərrəmov B.A., Məmmədrzalı Ş.S. İnformasiya hüququ. Dərslik. Bakı: "Nurlar" nəşriyyatı, 2019, 448 s.
6. Baker D.P. The schooled society: the educational transformation of global culture. USA, Stanford: Stanford University Press. 2014. 360 p.
7. Borowy I. Defining sustainable development for our common future: a history of the World Commission on Environment and Development (Brundtland Commission). USA, New York: Routledge. 2014. 280 p.
8. Browne S. Sustainable Development Goals and UN goal-setting. USA, New York: Routledge. 2017. 180 p.
9. Climent A.C. "Inequality and growth in advanced economies: an empirical investigation", The Journal of Economic Inequality, 8 (3). 2010, pp.293-321
10. Dodds. F., Donoghue D., Roesch J.L. Negotiating the Sustainable Development Goals: a transformational agenda for an insecure world. USA, New York: Routledge. 2017. 216 p. USA, New York: Routledge. 2017. 240 p.
11. French D., Kotzé L.J. Sustainable development goals: law, theory and implementation. UK, Cheltenham: Edward Elgar Publishing. 2018. 336 p.
12. ICSU & ISSC. Review of targets for the Sustainable Development Goals: the science perspective. France, Paris: International Council for Science (ICSU). 2015. 92 p.
https://council.science/wp-content/uploads/2017/05/SDG-Report.pdf
13. Idowu O.S., Schmidpeter R., Liangrong Z. The future of the UN Sustainable Development Goals: business perspectives for global development in 2030. Switzerland, Cham: Springer Nature AG. 2020. 404 p.
14. Inga T. W. and Williams C. "The Sustainable Development Goals and human rights: a critical early review",The International Journal of Human Rights 21, 2017. pp. 1023-1028.
15. Kaur H., Tao X. ICTs and the Millennium Development Goals: A United Nations perspective. USA, New York: Springer Science and Business Media. 2014. 271 p. s.19
16. Klimburg A., National cyber security framework manual. NATO Cooperative Cyber Defence Centre of Excellence. Estonia, Tallinn: NATO CCD COE Publications. 2012. 235 p
17. Nicolai S., Hoy C., Berliner T., Aedy, T. Projecting progress: Reaching the SDGs by 2030. Flagship Report. UK, London: Overseas Development Institute. 2015. 48 p.
https://www.odi.org/sites/odi.org.uk/files/odi-assets/publications-opinion-files/9938.pdf
18. Monkelbaan J. Governance for the Sustainable Development Goals: exploring an integrative framework of theories, tools, and competencies. Singapore: Springer Nature. 2019. 214 p.
19. Purvis M., Grainger A. Exploring sustainable development: geographical perspectives. UK, London: Earthscan. 2013. 416 p.
20. Rasmussen M.L. The human rights education toolbox: a practitioner's guide to planning and managing human rights education. Denmark's National Human Rights Institution. Denmark, Copenhagen: The Danish Institute for Human Rights. 2012. 131 p.
https://www.humanrights.dk/sites/humanrights.dk/files/media/dokumenter/udgivelser/hre_eng.pdf

21. Rieckmann M. Education for Sustainable Development Goals: learning objectives. France, Paris: UNESCO. 2017. 62 p. https://unesdoc.unesco.org/ark:/48223/pf0000247444
22. Roorda N. Fundamentals of sustainable development. 2nd edition. USA, New York: Routledge. 2017. 382 p.
23. Shawki N. International norms, normative change, and the UN Sustainable Development Goals. USA, Meryland: Lexington Books. 2016. 230 p.
24. Tladi D. Fourth report on peremptory norms of general international law (jus cogens). International Law Commission. Seventy-first session. Switzerland, Geneva. 2019. 63 p.
25. Unterhalter E. Walking backwards into the future: a comparative perspective on education and a post-2015 framework. A Journal of Comparative and International Education, 44(6), 2014, pp. 852–873. http://doi.org/10.1080/03057925.2014.957040
26. UN OHCHR. Sustainable Development Goals - Related human rights. https://www.ohchr.org/Documents/Issues/MDGs/Post2015/SDG_HR_Table.pdf
27. UN GA Resolution A/RES/70/1 “Transforming our world: the 2030 Agenda for Sustainable Development”. Adopted by the General Assembly on October 21, 2015 http://www.un.org/ga/search/view_doc.asp?symbol=A/RES/70/1&Lang=E
UN GA Resolution A/RES/70/1, par.10
28. UN GA Resolution A/RES/66/137 - United Nations Declaration on Human Rights Education and Training. Adopted by the General Assembly on December 19, 2011
https://undocs.org/en/A/RES/66/137
29. UN GA Resolution A/RES/55/2 - United Nations Millennium Declaration. Adopted by the General Assembly on September 18, 2000 https://undocs.org/A/RES/55/2
30. UN CESCR General Comment No. 13: The Right to Education (Art. 13), (Contained in Document E/C.12/1999/10). Adopted by the Committee on Economic, Social and Cultural Rights on 8 December 1999 https://www.refworld.org/pdfid/4538838c22.pdf
31. UN SDG at the Global Level - https://undg.org/about/undg-global/
32. USA Information Resources Management Association. Cyber Security and threats: concepts, methodologies, tools, and applications USA, Hershey: IGI Global. 2018. 1711 p.
33. Walker J., Pekmezovic A., Walker G. Sustainable Development Goals: harnessing business to achieve the SDGs through finance, technology and law reform. UK, Chichester: John Wiley & Sons LTD. 2019. 432 p.
34. Wilkinson R., Hulme D. The Millennium Development Goals and beyond: global development after 2015. USA, New York: Routledge. 2013. 264 p.
35. WIPO. WIPO and the Sustainable Development Goals. Switzerland, Geneva: WIPO. 2019. 30 p.
36. Yessin G. Sustainable Development Law (SDL) Research Guide. 2006 http://www.nyulawglobal.org/globalex/Sustainable_Development_Law.html

## ГАРМОНИЗАЦИЯ ЦЕЛЕЙ УСТОЙЧИВОГО РАЗВИТИЯ С ПРАВАМИ ЧЕЛОВЕКА В ИНФОРМАЦИОННОЙ СФЕРЕ

**А.И.АЛИЕВ, Ш.С.МАММАДРЗАЛИ**

### РЕЗЮМЕ

Статья посвящена гармонизации прав человека в информационном обществе и научно-теоретической целесообразности их совместного применения с целями, отраженными в «Повестке устойчивого развития до 2030 года», принятой ООН в 2015 году. Концепция устойчивого развития и международная деятельность в сфере прав человека давно не координируются. Однако одним из ключевых факторов в теории устойчивого развития является обеспечение эффективной защиты прав человека. В ООН

эти принципы были признаны совсем недавно. Построение информационного общества добавило новые аспекты к согласованию Целей в области устойчивого развития на период до 2030 года с правами человека. Таким образом, информационное общество само по себе является продуктом развития и может рассматриваться в рамках Целей в области устойчивого развития (ЦУР). В то же время информационное общество, как и ЦУР, имеет ряд правозащитных основ. Эти основы все больше проявляются в форме информационных прав, права на образование, а также политических, социальных, культурных прав и так далее. Многие из правозащитных основ информационного общества также являются важным фактором в реализации ЦУР. Однако на фоне последних достижений ИКТ и перехода от информационного общества к обществу знаний необходимо повторно проанализировать взаимосвязь между ЦУР и правами человека и применить их к цифровой среде.

**Ключевые слова:** устойчивое развитие, информационное общество, общество знаний, ИКТ, права человека, информационное право, инновации, цифровые права, информационная безопасность, цели в области устойчивого развития, интернет, право на образование

## HARMONISATION OF SUSTAINABLE DEVELOPMENT GOALS WITH HUMAN RIGHTS IN INFORMATION SPHERE

**A.I.ALIYEV, Sh.S.MAMMADRZALI**

### SUMMARY

The article is devoted to the harmonization of human rights in the information society and the scientific and theoretical feasibility of its joint application with the goals reflected in the "Agenda 2030 for Sustainable Development" adopted by the UN in 2015. The concept of sustainable development and international human rights work have long been uncoordinated. However, one of the key factors in the theory of sustainable development is to ensure the effective protection of human rights. Within the UN, these principles have been recognized more recently. Building information society has added new aspects to the harmonization of the 2030 Sustainable Development Goals with human rights. Thus, the information society is in itself a product of development and can be considered within the framework of the Sustainable Development Goals (SDGs). At the same time, the information society, like the SDGs, has a number of human rights foundations. These bases manifest themselves more and more in the form of information rights, the right to education, as well as political, social, cultural rights and so on. Many of the human rights foundations of the information society are also an important factor in the implementation of the SDGs. However, against the background of the latest achievements of ICT and the transition from the information society to the knowledge society, there is a need to re-analyze the relationship between SDGs and human rights, and to apply them to the digital environment.

**Keywords:** sustainable development, information society, knowledge society, ICT, human rights, information law, innovation, digital rights, information security, Sustainable Development Goals, Internet, right to education

## BEYNƏLXALQ MÜNASİBƏTLƏR

UOT 327

# AZƏRBAYCAN-AVROPA İTTİFAQI MÜNASİBƏTLƏRİ AVROPA QONŞULUQ SİYASƏTİ ÇƏRÇİVƏSİNDƏ

**A.M.ƏLİYEVA**
*Bakı Slavyan Universiteti*
*aygun.ibrahimova@yahoo.com*

*Prezident İlham Əliyevin hakimiyyətə gəlişinin ilk illərində Azərbaycan-Avropa İttifaqı münasibətləri yeni mərhələyə qədəm qoymuşdur. 2003-cü ildə qəbul edilmiş Avropa Qonşuluq Siyasətinə Azərbaycan 2004-cü ildə qoşulmuş və bu proqram çərçivəsində özünün bir çox iqtisadi, siyasi, hüquqi və inzibati islahatlarını həyata keçirmək imkanı qazanaraq, Aİ-nin texniki-maliyyə dəstəyini almışdır. Aİ ilə əlaqələrdə daha yüksək səviyyəli siyasi və iqtisadi inteqrasiya vəd edən AQS ona daxil olan ölkələr üçün tərəfdaşlığın gələcək inkişafı baxımından yeni bir mərhələ olmuşdur. Məqalədə Azərbaycan-Avropa İttifaqı münasibətləri və Azərbaycanın bu qurumun proqramlarında iştirakı nəzərdən keçirilir.*

**Açar sözlər**: Azərbaycan, Avropa İttifaqı, Avropa İttifaqının proqramları, Avropa Qonşuluq siyasəti

Hazırda Azərbaycanın daxili və xarici siyasət kursu region dövlətləri üçün nümunədir. Ölkə bütün sahələr üzrə davamlı inkişaf edir, beynəlxalq aləmdə onun nüfuzu durmadan artır. Xarici siyasətin prioritet istiqamətlərində əldə edilən uğurlar, ümumiyyətlə, daha dinamik diplomatik fəaliyyət göstərməyə imkan verir. Həmin kontekstdə xarici siyasətin prioritetlərini mütəmadi olaraq nəzərdən keçirməyə ehtiyac yaranır. Çünki sürətlə dəyişən geosiyasi mühitdə çevik adaptasiya qabiliyyətinə malik diplomatiya milli maraqları təmin etmək işində mühüm rol oynayır.

Bütövlükdə Azərbaycanın xarici siyasətinin prioritetləri məlumdur. Burada ikitərəfli əlaqələrə böyük diqqət yetirilir. Bununla yanaşı, beynəlxalq təşkilatlarda diplomatik fəaliyyəti gücləndirməyə də çox əhəmiyyət verilir.

Müstəqilliyin bərpasından sonra Azərbaycan dövləti ölkədə islahatların həyata keçirilməsi və dünya inteqrasiya proseslərinə daha sıx cəlb olunması istiqamətində mühüm beynəlxalq və regional təşkilatlarla çoxtərəfli əlaqələr yaratmışdır.

Xarici siyasətin prioritetləri sırasında beynəlxalq təşkilatlarla, o cümlədən iqtisadi təşkilatlarla əməkdaşlıq, enerji layihələrinin hazırlanması və

reallaşması, iki qitə arasında nəqliyyat dəhlizi funksiyasını yerinə yetirmək kimi istiqamətlər vacib yer tutur. Azərbaycan nüfuzlu beynəlxalq təşkilatlarla - Avropa İttifaqı (Aİ), Avropa Şurası (AŞ), o cümlədən Avropa Şurası Parlament Assambleyası (AŞPA), Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı (ATƏT) ilə sıx əməkdaşlıq edir. Bütün bunlar sübut edir ki, Azərbaycan artıq Qərb dünyasının, xüsusilə Avropa sivilizasiyasının ayrılmaz tərkib hissəsinə çevrilmişdir. Azərbaycan bu sahələr üzrə sistemli proqramlar həyata keçirən yeganə Qafqaz ölkəsidir.

Bildiyimiz kimi, müasir beynəlxalq münasibətlərin inteqrasiya proseslərində ən irəli getmiş inteqrasiya bloku Avropa İttifaqı sayılır və iqtisadi cəhətdən dünya nəhənglərindən biri olan bu ittifaqla sıx əlaqələr qurulması post-sovet məkanına daxil olan ölkələrin, o cümlədən Azərbaycanın xarici siyasətinin əsas istiqamətlərindən birini təşkil edir.

Dövlətüstü və eyni zamanda dövlətlərarası iqtisadi və siyasi təşkilat olan Avropa İttifaqının əsası 1951-ci il aprelin 18-də Avropa Kömür və Polad Birliyini təsis edən müqavilənin imzalanması ilə qoyulmuşdur. Müqavilə Avropanın altı dövləti – Fransa, Almaniya, İtaliya, Belçika, Hollandiya və Lüksemburq tərəfindən imzalanmışdır. Belə bir qurumun yaradılması təklifi 1950-ci il mayın 9-da Fransanın o zamankı xarici işlər naziri Robert Şuman tərəfindən irəli sürülmüş, ondan bir qədər əvvəl isə Fransanın Milli Planlaşdırma İnstitutunun başçısı Jan Monne tərəfindən söylənilmişdir [7].

1957-ci il martın 25-də Romada imzalanmış müqaviləyə əsasən Atom Enerjisi üzrə Avropa Birliyi və Avropa İqtisadi Birliyi təsis edilmişdir. 1965-ci ildə Brüsseldə yuxarıda adları çəkilən qurumların vahid orqanları yaradılmaqla bu üç təşkilat Avropa İqtisadi Birliyi adı altında birləşdirilmişdir [1,482].

1979-cu il martın 13-də valyuta dəyişmə mexanizmlərini ümumiləşdirmək məqsədilə Avropa Valyuta Sistemi təsis edildi. 1985-ci ildə Dövlət və hökumət başçılarının Milan sammitindən sonra Vahid Avropa Aktının imzalanması inteqrasiya proseslərini sürətləndirdi və 1993-cü ilə kimi vahid daxili bazar yaratmaq, eləcə də siyasi əməkdaşlığa doğru irəliləmək məqsədi qarşıya qoyuldu.

1992-ci il fevralın 7-də Hollandiyanın Maastrixt şəhərində Avropanın 12 dövlət başçısı tərəfindən Avropa İttifaqının yaradılması haqqında müqavilə imzalandı. Müqavilədə Roma müqaviləsinin müddəalarına bir sıra düzəlişlər olundu və bu sənəd 1993-cü il noyabrın 1-dən qüvvəyə mindi. Müqaviləyə Avropa İqtisadi və Valyuta İttifaqının yaradılması, eləcə də bu qurum çərçivəsində vahid valyutaya keçmə prosesinə dair bir sıra maddələr daxil edildi. Həmin vaxtdan Avropa Birliyi Avropa İttifaqı adlanmağa başlandı [1,483].

2004-cü il may ayının 1-də Kipr, Malta, Polşa, Çex Respublikası, Slovakiya, Sloveniya, Macarıstan, Latviya, Litva və Estoniya, 2007-ci il yanvarın 1-də isə Bolqarıstan və Rumıniya İttifaqa üzv qəbul edildilər. Beləliklə, Avropa İttifaqının genişlənməsi nəticəsində təşkilatın üzvlərinin sayı 27-yə çatdı. 2016-cı ildə İngiltərənin ittifaqdan çıxması nəticəsində üzvlərin sayı 26-ya enmiş oldu.

1993-cü ildən Azərbaycan dövlətinin xarici siyasətində Avropaya inteqrasiya prioritet istiqamətə çevrilmiş və bu kontekstdə beynəlxalq təşkilat kimi Avropa İttifaqı ilə fəal əməkdaşlığa başlanmışdır. Avropa və Asiyanın kəsişmə nöqtəsində yerləşən Azərbaycanın strateji mövqeyi Avropa İttifaqına üzv dövlətlərin də eyni zamanda, ölkəmizlə siyasi və iqtisadi münasibətləri inkişaf etdirmək marağını daha da artırmışdır [2,55].

1993-cü ildən başlayaraq Azərbaycan Avropa İttifaqı ilə münasibətlərdə maraqlı olduğunu bəyan etmiş və bu qurumla müxtəlif sahələrdə əlaqələr qurmağa başlamışdır. Azərbaycanın Avropa İttifaqı ilə münasibətlərinin perspektivləri bir neçə daxili və xarici faktorlardan asılıdır. Daxili faktorlar Avropa İttifaqının standartlarına çatmaq üçün Azərbaycanın siyasi, iqtisadi, soaial, mənəvi həyatında islahatların davam etdirilməsi, inkişaf etmiş qərb ölkələrinin qoşulduğu qloballaşmanın tələblərinə əməl olunması, açıq qapı siyasəti yürüdülməsi, daxili bazarın, istehsal və xidmətin tam liberallaşdırılması, ölkənin demokratik transformasiyasının başa çatdırılmasından və s. ibarətdir.

Xarici faktorlar sırasına Cənubi Qafqazda mövcud olan münaqişələrin aradan qaldırılması, o cümlədən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli, bölgə ölkələri arasında vahid əməkdaşlıq və təhlükəsizlik sisteminə inteqrasiya mühitinin yaradılması, hər üç ölkədə vahid normaya salınmış qanunvericilik, icra və məhkəmə hakimiyyətlərinin formalaşdırılması, beynəlxalq inteqrasiyanın gücləndirilməsi məqsədilə vahid hərbi komandanlıq, vahid pul sisteminin tətbiqi, açıq sərhəd, mal, işçi və digər əmək resurslarının sərbəst hərəkətinə imkan verən gömrük birliyi yaradılması üçün bir sıra suveren hüquqlardan imtina edilməsi və s. şərtlər daxildir [3].

Ümummilli liderimiz Heydər Əliyev hakimiyyətə gəldikdən sonra bu qurumla əlaqələrimiz daha da genişlənmiş, ilk vaxtlar münasibətlərimiz yalnız humanitar və iqtisadi xarakter daşısa da, bundan sonra siyasi əlaqələr də inkişaf etməyə başlamışdır. Hal-hazırda Aİ ilə qarşılıqlı əlaqələrimiz Ulu öndər Heydər Əliyevin layiqli davamçısı, Prezident İlham Əliyev tərəfindən də uğurla həyata keçirilir.

Məhz prezident İlham Əliyevin hakimiyyətə gəlişinin ilk illərində Azərbaycan-Avropa İttifaqı münasibətləri yeni mərhələyə qədəm qoymuşdur. Belə ki, bu illərdə ölkəmiz ittifaqın bir sıra mühüm proqramlarına qoşulmuş, və bu proqramlar içərisində diqqəti xüsusilə çəkən "Avropa Qonşuluq siyasəti" olmuşdur.

Avropa Komissiyası 2004-cü il mayın 12-də Cənubi Qafqaz ölkələrini özünün 2003-cü ildə qəbul edilmiş "Avropa Qonşuluq siyasəti"nə daxil etməyi Avropa Parlamentinə təklif etmiş və Antonius de Vries mayın 27-də keçirilmiş mətbuat konfransında bu sənədin hazırlanması zamanı əsas diqqətin ölkələrdəki demokratiyanın hansı səviyyədə olmasına yönəldiyini bildirmişdir [4].

"Avropa Qonşuluq siyasəti" aşağıdakı sahələrdə Aİ-nin şərq qonşuları ilə daha intensiv əməkdaşlığı təklif edir:

- Aİ-nin söykəndiyi insan hüquqlarına hörmət, demokratiya və hüquqi dövlət

kimi əsas dəyərlərə əməl edilməsi;
- Siyasi dialoq, birgə xarici və təhlükəsizlik siyasətində böhranlar üzrə tədbirlərdə və münaqişələrdə qarşı fəaliyyətdə iştirak imkanları;
- İqtisadi islahatların həyata keçirilməsi, ölkə qanunvericiliyinin Aİ qanunvericiliyinə uyğunlaşdırılması.

"Avropa Qonşuluq siyasəti" ticarət münasibətlərinin daha da intensivləşdirilməsini və qonşu ölkələrin Aİ bazarına çıxış imkanlarının artırılmasını da nəzərdə tutur:

- Ədliyyə, daxili işlər sahəsi dövlət institutlarının təkmilləşdirilməsi, onların səmərəliliyi və şəffaflığı;
- Energetika, nəqliyyat, ətraf mühitin mühafizəsi, təhsil və elm.

Azərbaycan üçün yaratdığı imkanlar isə aşağıdakılardır:

- Siyasi, iqtisadi və inzibati islahatların səmərəli şəkildə həyata keçirilməsi və birgə dəyərlərə hörmət edilməsində konkret irəliləyişlərə nail olunması müqabilində Aİ-nin daxili bazarında müəyyən paya sahib olmaq imkanı;
- Paralel olaraq vətəndaşların, əmtəənin, xidmətlərin və kapitalın sərbəst dövriyyəsini təmin etmək məqsədilə gələcək inteqrasiya və liberalizasiya prosesləri;
- Aİ ölkələri ilə daha səmərəli siyasi dialoq və əməkdaşlıq, güzəştli ticarət əlaqələri və açıq bazar, miqrasiya, narkotik və mütəşəkkil cinayətkarlıqla mübarizə sahəsində əməkdaşlıq, sərmayə qoyuluşunun təşkili imkanları, yeni maliyyə mənbələri, Dünya Ticarət Təşkilatına üzvlüyün dəstəklənməsi və s.

Avropa Komissiyasının Cənubi Qafqaz ölkələrinin də "Avropa Qonşuluq siyasəti"nə cəlb olunması tövsiyyəsi 2004-cü il 17-18 iyun tarixlərində Aİ dövlət və hökumət başçıları şurasının Brüsseldə keçirilmiş toplantısında təsdiq olunmuşdur. Azərbaycanın bu proqrama cəlb olunması məqsədilə prezident İ.Əliyev mayın 18-də Brüsseldə işgüzar səfərdə olmuş və Avropa Komissiyasının sədri Romano Prodi və genişlənmə üzrə üzvü Günter Verhogenlə görüşmüşdür. Görüş zamanı Azərbaycan-Avropa Komissiyası əməkdaşlığı və onun perspektivləri müzakirə olunmuşdur. Avropa Komissiyasının sədrinin müavini və Avropa Parlamenti ilə əlaqələr üzrə xanım Loyola de Plasio ilə görüş zamanı isə əsas müzakirə obyekti TRASEKA proqramı, Xəzərin enerji ehtiyatlarına dair imzalanmış müqavilələrin həyata keçirilməsi, Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin tikintisi, "Şahdəniz" yatağından çıxarılacaq qazın Avropaya nəqli məsələsi olmuşdur. Azərbaycan Respublikasının prezidenti İ.Əliyev həmçinin Avropa İttifaqı Şurasının Baş katibi ilə də görüşmüş, görüşdən əvvəl Avropa İttifaqına yeni 10 ölkənin qoşulmasını nəzərdə tutan "Aİ ilə Azərbaycan arasında tərəfdaşlıq və əməkdaşlıq protokolu"nun imzalanma mərasimi keçirilmişdir. Azərbaycan tərəfindən müqaviləni Avropa İttifaqı yanında nümayəndəliyimizin başçısı A.Məmmədov imzalamışdır [5].

Tərəfdaşlıq və Əməkdaşlıq haqqında Sazişin 43-cü maddəsinə əsasən Azərbaycan Respublikasının qanunvericiliyin uyğunlaşdırılması sahəsində üzərinə götürdüyü öhdəliyinin icra edilməsi məqsədilə Avropa İttifaqının hüquq ekspertlərinin dəstəyi ilə "Azərbaycan qanunvericiliyinin Avropa İttifa-

qının qanunvericiliyinə uyğunlaşdırılması üzrə 2010-2012-ci illər üçün Tədbirlər Planı" hazırlanmış və Azərbaycan Respublikasının Avropaya inteqrasiyası üzrə Dövlət Komissiyasının 23 oktyabr 2009-cu ildə keçirilmiş 3-cü iclasında təsdiq edilmişdir [3].

Həmçinin, AQS tərəfdaş ölkələr, o cümlədən Azərbaycan Respublikası, üçün mədəni, təhsil və ətraf mühit kimi sahələr üzrə əlaqələri təşviq edən müəyyən Aİ proqramlarında daha çox iştirak və texniki yardım imkanları təqdim etmişdir. Bu kontekstdə, xüsusilə Avropa Qonşuluq və Tərəfdaşlıq Aləti (AQTA) çərçivəsində Tvinninq, Texniki yardım və Məlumat mübadiləsi (TAİEX), Büdcəyə dəstək, Tempus, Erasmus Mundus kimi proqramlar qeyd oluna bilər.

AQS-in mərkəzi elementi isə Avropa İttifaqı ilə hər bir tərəfdaş ölkə arasında razılaşdırılmış və ölkə üzrə bir sıra qısa və orta müddətli prioritetlərin əks olunduğu Fəaliyyət Planlarıdır. AQS Strategiya Sənədinə əsasən, Aİ-nin tərəfdaş ölkələrlə münasibətlərini yaxın gələcək üçün tənzimləyən əsas sənəd Fəaliyyət Planları hesab olunur. 3-5 illik müddət üçün nəzərdə tutulan bu sənədlər hər bir ölkənin ehtiyac və imkanları, o cümlədən qarşılıqlı dəyər və maraqlar nəzərə alınaraq hazırlanmışdır [3].

Azərbaycan Respublikası da bu sahədə qarşıda duran vəzifələrin həlli istiqamətində ardıcıl addımlar atmaqla öz mövqeyini ifadə etmişdir. Bu məqsədlə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2005-ci il iyunun 1-də "Azərbaycan Respublikasının Avropaya inteqrasiyası üzrə Dövlət Komissiyasının yaradılması haqqında" imzaladığı sərəncamda Azərbaycan ilə Avropa İttifaqı arasında əlaqələrin daha da gücləndirilməsi, İttifaqın Azərbaycan üzrə Fəaliyyət Planının hazırlanması və həyata keçirilməsi üzrə səmərəli, əlaqələndirilmiş işin təmin edilməsi məsələləri öz əksini tapmışdır [1,498].

Aİ-nin 2004-cü ildən həyata keçirdiyi "Avropa Qonşuluq siyasəti" proqramının aparıcı qollarından birini məhz respublikamızla birgə iqtisadi layihələrin reallaşdırılması təşkil edir. Proqramın uğurla icra olunması üçün Aİ tərəfindən 225 milyon avro məbləğində vəsait ayrılmışdır [6].

Azərbaycan Respublikası - Avropa İttifaqı Fəaliyyət Planı 14 noyabr 2006-cı ilin tarixində Brüsseldə AR-Aİ Əməkdaşlıq Şurasının iclası zamanı qəbul edilmişdir. Beləliklə, daha əvvəl TƏS ilə tənzimlənən AR-Aİ münasibətlərinin gələcək inkişafının istiqamətləri AQS çərçivəsində AR-Aİ Fəaliyyət Planı ilə müəyyən olunmuşdur.

Qeyd etdiyimiz kimi, Avropa İttifaqı dünya siyasətində xüsusi çəkisi olan təşkilatlardan birirdir və bu qurumla qarşılıqlı münasibətlərin inkişafı dövlətimizin xarici siyasətinin əsas istiqamətlərindən birini təşkil edir. Avropa İttifaqının Azərbaycanın ticarət sahəsində ən böyük tərəfdaşlarından biri olduğunu nəzərə alsaq, "Avropa Qonşuluq Siyasəti" adlı proqram bu istiqamətdə Azərbaycan üçün yeni imkanlar açır və ölkəmiz əlverişli coğrafi mövqedə yerləşdiyindən bu proqramdan daha çox yararlanmağa səy göstərməlidir.

**ƏDƏBİYYAT**

1. Həsənov Ə.M. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı: Azərbaycan, 2005, 751 s.
2. Heydər Əliyev və Azərbaycan diplomatiyası. Bakı: ADU nəşriyyatı, 2005, 133 s.
3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi / www.mfa.gov.az
4. 525-ci qəzet, 28 may 2004
5. Xalq qəzeti, 19 may 2004
6. Azərbaycan qəzeti, 3 may 2009
7. www.europa.eu

## ОСНОВНЫЕ НАПРАВЛЕНИЯ СОТРУДНИЧЕСТВА АЗЕРБАЙДЖАНА И ЕВРОПЕЙСКОГО СОЮЗА: ЕВРОПЕЙСКАЯ ПОЛИТИКА СОСЕДСТВА

**А.М.АЛИЕВА**

**РЕЗЮМЕ**

В первые годы правительства президента Ильхама Алиева отношение между Азербайджаном и Европейским Союзом перешли на новый уровень. В 2004-ом году Азербайджан присоединился к Европейскому Политику Соседства который был принят в 2003-ем году. В рамках этой программы Азербайджан получил много шансов реализовать экономические, политические, юридические и административные реформы с поддержкой Европейского Союза по технике-финансам. Обещая, в отношениях с Европейским Союзом более высококачественная политическая и экономическая интеграция членам Европейского Политического Соседства стало новым уровнем развития стран в будущем. В этой статье напоминается отношения Азербайджана с Европейским Союзом и его участие в программах этой организации.

**Ключевые слова**: Азербайджан, Европейский союз, программы Европейского союза, Европейская Политика Соседства.

## THE MAIN DIRECTIONS OF AZERBAIJAN-EUROPEAN UNION COOPERATION: EUROPEAN NEIGHBORHOOD POLICY

**A.M.ALIYEVA**

**SUMMARY**

In the first years of management of President Ilham Aliyev was established new stage of cooperating between Azerbaijan and European Union. In 2004 Azerbaijan joined to European Neighborhood policy which accepted in 2003, meanwhile, got a chance to realize many economical, political, legal and administrative reforms with the financial-technical support of EU. European Neighborhood policy was new stage to member countries as the new development of counterpartying sphere promising more high level policy and economical integration. In this article was reviewed Azerbaijan-EU relations and participation of Azerbaijan in organization programs.

**Keywords:** Azerbaijan, The European Union, the programs of the European Union, European Neighborhood Policy

UOT (327)

# 1994-CÜ İLDƏ ATƏŞKƏSİN ƏLDƏ OLUNMASINADƏK DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNİN NİZAMLANMASINA DAİR GÖSTƏRİLƏN SƏYLƏR, QƏBUL EDİLMİŞ QƏRARLAR VƏ ONLARIN İCRASI

**F.M.AYDINLI**
***Bakı Dövlət Universiteti***
***farhad.aydinli@bsu.edu.az***

*Dağlıq Qarabağ münaqişəsi 1991-ci ildə Cənubi Qafqaz regionunda yerləşən dövlətlərin müstəqillik qazanmasından sonra yeni tarixi dövrə qədəm qoymuşdur. 1991-1994-cü illər Dağlıq Qarabağ münaqişəsinin hərbi müdaxilə fazası və danışıqlar prosesi bazasının formalaşdırılması dövrü kimi xarakterizə olunur. Bu dövrdə region gücləri, beynəlxalq təşkilatlar münaqişənin nizamlanması ilə bağlı təkliflər irəli sürmüş, atəşkəs razılaşmaları əldə edilmiş, lakin Ermənistan tərəfi bu razılaşmalara əməl etməmişdir. Eyni zamanda beynəlxalq təşkilatların, Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının qətnamələri və bəyanatları, Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinin bəyanatları, münaqişə ilə bağlı müşahidə missiyaları, cədvəlləri, Avropa Şurası, Avropa İttifaqı, İslam Əməkdaşlıq Təşkilatının, Müstəqil Dövlətlər Birliyinin bəyanatları Ermənistanın təcavüzkar siyasətinin qarşısını kəsə bilmədi, beləliklə, Azərbaycanın beynəlxalq müstəvidə tanınan torpaqlarının 20% hissəsi işğal olundu. Bu dövrdə Rusiyanın regionda aktiv siyasəti, Yaxın çevrə siyasətinin yürüdülməsi müşahidə edildi. Məqalədə 1994-cü il Bişkek protokolu və nəticədə atəşkəsin əldə olunmasına qədər tərəflər arasında görüşlər, nizamlanma prosesi və bu prosesə cəhd göstərən dövlətlərin siyasi kursu, sülh planları və beynəlxalq təkilatların qəbul etdiyi qərarlar təhlil edilmiş, rəsmi sənədlərə istinad edilmişdir.*

**Açar sözlər:** Dağlıq Qarabağ münaqişəsi, ATƏT-in Minsk qrupu, BMT TŞ-nin qətnamələri, atəşkəs razılaşmaları, Bişkek protokolu, Azərbaycan, Ermənistan

1991-ci il dekabr ayının 8-də Rusiya, Ukrayna və Belarus rəhbərlərinin SSRİ-nin dağılmasını şərtləndirən Belovejsk sazişini imzalaması, dekabrın 25-də M.S.Qorbaçovun hakimiyyətdən getməsilə SSRİ rəsmən süqut etmiş oldu. Bununla da SSRİ sərhədləri çərçivəsində 12 respublika müstəqillik əldə etdi. Lakin bu müstəqillik özü ilə bir sıra çətinliklərin, münaqişələri yaranması ilə xarakterizə olunmalıdır. Çünki Rusiya varisi olduğu SSRİ-nin süqutundan sonra regionda nəzarəti yenidən ələ almaq istəyi ilə siyasi münaqişə metodundan istifadə etməyə başladı. Bunun nəticəsi idi ki, Ermənistan və Azərbaycan arasında əsrin əvvəllərindən başlayan Dağlıq Qarabağ münaqişəsi artıq yeni mərhələyə qədəm qoydu. 1991-1994-cü illərdə keçmiş Dağlıq Qarabağ muxtar vilayətinin ərazisi, onunla qonşu olan yeddi inzibati rayon və digər ərazilər Ermənistan Respublikasının silahlı qüvvələri tərəfindən işğal edildi. Dağlıq Qara-

bağ münaqişəsinin aktiv hərbi müdaxilə fazası başlayandan etibarən bugünə qədər bir sıra rəsmi görüşlər keçirildi, vasitəçilik misiyaları yaradıldı, eyni zamanda qərarlar, qətnamələr qəbul edildi, lakin bütün bu proseslərin icrası və ona nəzarət mexanizmi 2020-ci il sentyabr ayının 27-dək təşkil edilmədi.

Müstəqillik əldə etdikdən sonra Ermənistan-Azərbaycan arasında Dağlıq Qarabağ münaqişəsinin nizamlanması istiqamətində ilk addım 1991-ci il sentyabr ayının 23-də atılmışdır. Rusiya Federasiyasının prezidenti Boris Yeltsin və Qazaxıstan Respublikasının prezidenti Nursultan Nazarbayevin vasitəçiliyi ilə Rusiyanın Jeleznovodsk şəhərində Dağlıq Qarabağ regionunda intensiv münaqişənin, silahlı qarşıdurmanın 3 il müddətində dayandırılması haqqında Ermənistan və Azərbaycan tərəfləri arasında razılaşma əldə edilmişdir. 1991-ci il 20-23 sentyabr tarixlərində münaqişə tərəflərinin razılığı ilə Boris Yeltsin və Nursultan Nazarbayev Bakı, Gəncə, Xankəndi, İrəvan şəhərlərinə səfər etmiş və razılaşmanın əldə olunması üçün plan hazırlanmışdır. 1991-ci il sentyabr ayının 21-də Ermənistanın müstəqillik əldə etməsindən sonra prezident Levon Ter-Petrosyan çıxış edərək Azərbaycana qarşı olan bütün ərazi iddialarından əl çəkdiyini, Dağlıq Qarabağla bağlı 1988-ci il status-kvo vəziyyətini qəbul etdiyini, bununla da Azərbaycanın ərazi bütövlüyünü tanıdığını bildirmişdir.[2] Bu açıqlamadan sonra regionda vəziyyəti nizamlamaq məqsədilə Rusiyanın Jeleznovodsk şəhərində Rusiya, Qazaxıstan, Azərbaycan və Ermənistan rəhbərlərinin görüşü nəticəsində razılaşma əldə olunur. Razılaşmaya əsasən vəziyyətin nizama salınması ilə bağlı Rusiya və Qazaxıstan nümayəndələrindən ibarət "işçi qrupu" yaradılaraq 1991-ci il oktyabr ayının 1-dən fəaliyyətə başlaması qərara alınır. Tərəflərin silahsızlaşdırılması, Sovet ordusu və daxili qoşunları istisna olmaqla, silahlı qüvvələrin bölgədən çıxarılması, qaçqın və məcburi köçkünlərin 2 həftə müddətində geri qaytarılması həyata keçirilməli, eyni zamanda 2 həftə müddətində bütün nəqliyyat və kommunikasiya xətləri bərpa edilməli, tərəflər arasında ikitərəfli münasibətlərin qurulması istiqamətində işlər aparılmalı, işçi qrupu müntəzəm olaraq 4 ölkənin rəhbərinə vəziyyət haqqında məlumat verməlidir.[13] Bütün bu səylərə, razılaşmaya baxmayaraq, Dağlıq Qarabağ ərazisində ciddi qarşıdurmalar yarandı, yerli əhaliyə qarşı hücumlar həyata keçirildi, bundan başqa 20 noyabr tarixində Xocavənd rayonunun Qarakənd kəndi yaxınlığında Mİ-8 vertolyotunun vurulması ilə bir sıra dövlət xadimlərinin, hərbçi və jurnalistlərin həlak olması razılaşmanın nəticəsiz qalmasına səbəb oldu.

Münaqişənin nizamlanması məqsədilə növbəti cəhd 1992-ci il fevral ayının 24-də İran tərəfindən həyata keçirilir. İranın xarici işlər naziri Əli Əkbər Vilayətinin nizamlanma prosesi ilə bağlı atdığı addım da fevralın 26-da Xocalı soyqırımının törədilməsi nəticəsində yarımçıq qalır.[1]

Azərbaycan və Ermənistan Respublikaları müstəqillik qazandıqdan sonra beynəlxalq sistemin bir üzvü olaraq beynəlxaq təşkilatlara qoşulmağa başladı. Belə ki, 1992-ci ildə 30-31 yanvar tarixində keçirilən Praqa görüşü ilə Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsinə (ATƏM, 1994-cü ildə Budapeşt sammitindən sonra Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı adlandırılmağa başlandı), 2 mart tarixində Birləşmiş Millətlər Təşkilatına (BMT) üzv qəbul edildilər və bununla da, Dağlıq Qarabağ münaqişəsinin nizamlanma

prosesinin beynəlxalq təşkilatlar səviyyəsində müzakirə edilməsi üçün sərfəli şərait formalaşdı.

1992-ci ilin mart ayının 24-də Helsinki şəhərində keçirilən ATƏM-in Xarici işlər nazirləri şurasının iclasında bu münaqişənin nizamlanması ilə bağlı olaraq Minsk konfransının (Belarusun təşkilata üzv olması ilə əlaqədar olaraq paytaxtında keçirilməsi nəzərdə tutulmuşdur.) çağırılması qərar alındı. May ayının 1-də Minsk konfransının təşkili, iclasların keçirilmə şərtləri və s. məsələrlə bağlı qərarlar qəbul edildi. Eyniadlı qrupa rəhbərlik İtaliyanın XİN-in rəsmisi Mario Rafaelliyə tapşırıldı.

1992-ci il may ayının 7-də İran İslam Respublikasının prezidenti Əkbər Haşemi Rəfsəncaninin təşəbbüsü ilə təşkil edilən görüşdə Azərbaycan və Ermənistan tərəfləri arasında atəşkəsin dayandırılması və münaqişənin sülh yolu ilə həll edilməsi ilə bağlı Tehran Bəyannaməsi imzalandı.[4, səh 54-56] Lakin bir gün sonra Ermənistan silahlı qüvvələri tərəfindən tarixi Azərbaycan torpağı Şuşa şəhəri işğal edildi. Bununla da Ermənistan tərəfi münaqişənin nizamlanması prosesində iştirak etməyəcəyini, beynəlxalq hüquq prinsiplərinə əks mövqeyini açıq şəkildə nümayiş etdirdilər.

1992-ci ilin sonuna qədər münaqişənin nizama salınması ilə bağlı bəzi səylər olsa da, Ermənistan tərəfinin işğalçı mövqeyi sayəsində bu səylər dəyərləndirilmir:

- 1992-ci ilin avqust ayının 26-da Qazaxıstan prezidenti Nursultan Nazarbayev yeni atəşkəs razılığının əldə olunması üçün səyi nəticəsində 27 avqust tarixində Qazaxıstan, Azərbaycan və Ermənistan rəhbərləri arasında Alma-Ata deklarasiyası imzalandı, daha sonra 1992-ci ilin iyul-avqust aylarında ATƏM-in səyləri nəticəsində hərbi əməliyyatların dayandırılmasına dair razılığın əldə olunması, Rusiya və Qazaxıstan tərəfindən münaqişənin nizamlanması ilə bağlı atılan addımlar, sentyabrın 1-dən 60 gün ərzində hərbi əməliyyatların dayandırılması ilə bağlı sentyabrın 3-də İcevan protokolunun imzalanması da mövcud durumu dəyişmədi və edilən vasitəçilik misiyalarını bir nəticə vermədi. Bu dövrə qədər artıq Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın beynəlxalq səviyyədə tanınmış əraziləri-Xankəndi şəhəri, Xocalı rayonu, Şuşa şəhəri, Ermənistanla keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin (DQMV) ərazisini birləşdirən Laçın rayonu işğal olunmuşdu.
- Sentyabrın 19-da Rusiya Müdafiə Nazirliyinin təşəbbüsü ilə Soçidə Cənubi Qafqaz regionu ölkələrinin müdafiə nazirlərinin görüşü keçirildi. Görüşdə əldə edilən razılaşmaya əsasən sentyabrın 25-dən atəşkəsə dair saziş imzalandı. Sazişə görə iki ay ərzində bölgədə hərbi əməliyyatlar dayandırılmalı, silahlı birləşmələr mərhələli şəkildə geri çəkilməli idi, lakin Ermənistan tərəfi bu dəfə də razılaşmanı pozur. Oktyabr ayında isə Xocavənd rayonu Ermənistan silahlı qüvvələri tərəfindən tərəfindən işğal olunur.

1993-cü ilin əvvəlindən etibarən isə Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı beynəlxalq səviyyədə müəyyən intensivlik müşahidə edil-

di. Belə ki, bu dövrdən etibarən ABŞ, Türkiyə, Fransa, Rusiya Federasiyası, beynəlxalq qurumlar münaqişənin nizamlanması prosesində öz səylərini artırdılar. 1993-cü il 5-8 yanvar tarixlərində Mario Rafaellinin başçılığı, ABŞ, Rusiya, Türkiyə, Azərbaycan və Ermənistan tərəflərinin iştirakı ilə Moskva şəhərində, 22 fevral tarixində Roma şəhərində görüşlər keçirildi. Roma görüşləri zamanı münaqişənin nizamlanmasına dair bir sıra məsələlər barəsində razılıq əldə olundu: atəşin dayandırılması, müşahidəçilər missiyasının işə başlaması, münaqişənin dinc yolla nizamlanması və sülh sazişinə hazırlıq prosesi. Bununla bağlı konkret sənədlər isə 26 aprel tarixində Praqa şəhərində keçirilməsi planlaşdırılan iclasda bəyənilməli idi. Eyni zamanda bu dövr Dağlıq Qarabağ münaqişəsi və regionda təhlükəsizliyin təmin olunması ilə bağlı Rusiya və Türkiyə əməkdaşlığının aktivləşməsi kimi xarakterizə oluna bilər. Belə ki, mart ayında tərəflərin əldə etdiyi razılaşmaya əsasən sülh planının layihəsi hazırlanmışdır. Plana əsasən atəşkəs elan edilməli, Ermənistan və Azərbaycan sərhəddində münaqişəyə yol verilməməli, nizamlanma prosesi Minsk qrupu çərçivəsində davam etdirilməli idi, lakin bütün səylərə baxmayaraq, razılaşmalar və planlar 2 aprel tarixində Kəlbəcər rayonunun işğal edilməsi ilə bağlı olaraq pozuldu. Kəlbəcərin işğalı Türkiyə Ermənistan sərhədlərinin bağlanması ilə nəticələndi.[6]

Kəlbəcər rayonunun işğal edilməsindən dərhal sonra BMT Təhlükəsizlik Şurasının sədri (işğal prosesini yerli erməni qüvvələrinin hərəkəti kimi qələmə verərək qüsurlu bəyanatla çıxış etmişdir) və Avropa İttifaqı Dağlıq Qarabağa dair bəyanatla çıxış etdilər. Bəyanatlardan dərhal sonra Rusiya da hərbi əməliyyatların dayandırılması məqsədilə tərəflər arasında görüşün keçirilməsi təşəbbüsünü ortaya qoydu. Bunun nəticəsi kimi aprelin 8-də Soçidə Rusiya, Azərbaycan və Ermənistan tərəflərinin iştirakı ilə görüş baş tutsa da, nəticəsiz yekunlaşdı.

Dağlıq Qarabağ münaqişəsinin nizamlanması prosesində Azərbaycanın beynəlxalq təşkilatlar səviyyəsində ilk uğurlarından biri 1993-cü ilin aprel ayının 25-29-da Pakistan İslam Respublikasının Kəraçi şəhərində keçirilən İslam Əməkdaşlıq Təşkilatının 21-ci konfransı zamanı qəbul edilən "Ermənistan və Azərbaycan arasında münaqişə" adlı 12/21-P nömrəli qətnaməsi hesab edilməlidir. Qətnaməyə əsasən erməni silahlı qüvvələrinin Azərbaycanın bütün işğal olunmuş ərazilərindən dərhal çıxarılması, Azərbaycan Respublikasının suverenliyinə, ərazi bütövlüyünə hörmət edilməsi tələb olunur. Eyni zamanda təşkilata üzv ölkələrdən, İslam İnkişaf Bankı və digər islam qurumlarından Azərbaycan Respublikasına təcili maliyyə, humanitar dəstəyin verilməsi, BMT Təhlükəsizlik Şurasından və sədrindən münaqişənin nizamlanması, erməni qüvvələrin Azərbaycan torpaqlarından çıxarılması ilə bağlı qətnamənin qəbul edilməsi istənilir.[9] Bu qətnamənin ardınca BMT Təhlükəsizlik Şurasının 1993-cü il 30 aprel tarixli 3205-ci iclasında 822 saylı qətnamə qəbul edilmişdir. Qətnaməyə əsasən Ermənistan və Azərbaycan arasında münasibətlərin gərginləşməsindən, bunun regionda sülh və təhlükəsizliyə hədə yaratdığından narahatçılıq ifadə edilmiş, Azərbaycanın ərazi bütövlüyü, sərhədlərinin toxu-

nulmazlığı, suverenliyi dəstəklənmiş, işğalçı qüvvələrin dərhal və qeyd-şərtsiz Azərbaycanın Kəlbəcər və digər işğal olunmuş rayonlardan çıxarılması tələb edilmiş, münaqişənin nizamlanması üçün ATƏM-in Minsk Qrupu çərçivəsində danışıqların və təmasların davam etdirilməsinin zəruriliyi bildirilmişdir [11].

1992-1993-cü illərdə Dağlıq Qarabağ münaqişəsinə dair Avropa İttifaqı 6, Avropa Şurası isə 2 bəyanatla çıxış etmişdir. Bütün bəyanatlarda münaqişə zonasında zorakılığa son qoyulması tələb edilir, erməni hərbi birləşmələrinin hücumları, gücə əsaslanan hərəkətləri pislənərək atəşkəsə və sülhə nail olmaq üçün tərəflərin ATƏM çərçivəsində danışıqlar prosesində iştirakına çağırışlar edilir. [5, səh 826-827, 849-853] Bütün bu çağırışlara, bəyanatlara baxmayaraq, təsir mexanizminin qeyri mövcudluğu münaqişənin nizamlanma prosesinə öz müsbət təsirini göstərməmiş, hətta zaman keçdikcə 1993-cü ilin sonunadək Ermənistan silahlı qüvvələri tərəfindən guya "təhlükəsizlik zolağı" formalaşdırmaq məqsədilə Azərbaycanın Dağlıq Qarabağ ətrafı daha 6 rayonu (Ağdam, Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan rayonları) işğal edilmişdir. Azəraycan torpaqlarının işğalı prosesi davam etdikcə BMT Təhlükəsizlik Şurası 1993-cü ildə 822 saylı qətnamənin ardından 29 iyul tarixində 853, 14 oktyabr tarixində 874, 11 noyabr tarixində 884 saylı qətnamələri qəbul etmişdir. Ümumiyyətlə Birləşmiş Millətləri Təşkilatının Təhlükəsizlik Şurasının Dağlıq Qarabağ münaqişəsi ilə bağlı 1993-cü ildə qəbul etdiyi 4 qətnamə haqqında bəzi məqamlara diqqət yetirməliyik:

**1.** Qətnamələr bir çox müsbət xüsusiyyətlərə malikdir, belə ki, burada Azərbaycan Respublikasının beynəlxalq səviyyədə tanınan suveren bir dövlət olması təsdiq edilir və onun ərazi bütövlüyü tanınır.

**2.** Dağlıq Qarabağ və ətrafında yerləşən sərhəd rayonlarının işğal faktoru təsdiq edilir, bu ərazilərdən işğalçı qüvvələrin dərhal tamamilə və qeyd-şərtsiz çıxarılması tələb edilir. Burada bir məqama da diqqət yetirmək lazımdır ki, BMT Baş Assambleyasının 14 dekabr 1974-cü il tarixli 2319-cu plenar iclasında qəbul edilən 3314 saylı qətnamənin 3-cü bəndinə əsasən işğal termini bir dövlətin silahlı qüvvələrinin digər suveren dövlətin ərazisinə hücum etməsi, güc tətbiq edərək onun ərazisinin bir hissəsini öz torpaqlarına əlavə etməsi kimi izah olunur.[12] BMT-nin qətnamələrində belə bir ifadəni işlətməsi Ermənistanı adlı olaraq qeyd etməsə də, işğalçı dövlət kimi təsdiq edir.

**3.** İşğal nəticəsində yaranmış vəziyyəti qeyd edərək, burada yaşayan çox böyük miqdarda mülki şəxslərin məcburi köçkün halına salınması faktı təsdiq edilir, bu şəxslərə humanitar yardımın edilməsi üçün qurumlara və dövlətlərə çağırış edilir.

**4.** Lakin bununla belə bəzi neqativ hallar, ikili standartlar da qətnamənin əsasını təşkil edir. Belə ki, birbaşa olaraq Ermənistan tərəfini işğalçı dövlət kimi deyil, Dağlıq Qarabağda yaşayan erməni işğalçı qüvvələrinin (yerli erməni qüvvələrinin) bu prosesdə iştirakını özündə ehtiva edir.

**5.** Qətnamələrdə silahlı qüvvələrin işğal olunmuş ərazilərdən dərhal çıxarılması tələb olunsa da, bunun dəqiq qrafiki və hansı formada aparılması

məsələsi açıqlanmır, bunun nizamlanması ATƏM-in Minsk qrupuna həvalə edilir. ATƏM-in qərarların qəbuletmə mexanizmində isə konsensus qaydasının mövcudluğu isə bu prosesin nizamlanma müddətini ləngidir və münaqişənin dondurulması, uzadılmasına xidmət edir.

**6.** ATƏM-in həyata keçirdiyi tədbirləri, bəyanatları və münaqişənin nizamlanma prosesində göstərdiyi səylər bəyənilir, lakin işğalçı dövlətə qarşı hər hansı bir ciddi təzyiq vasitələrindən istifadə nəzərdə tutulmur. Baxmayaraq ki, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icrası məcburi xarakter daşıyır [7], beynəlxalq sülhə təhlükə yaradır, lakin nizamlanma prosesinə nəzarət mexanizmi formalaşdırılmır.

**7.** Eyni zamanda Ermənistan işğalçı dövlət olsa da, qətnamələrdə ondan erməni qüvvələrinə öz təsirindən istifadə etməyə, bir növ kömək etməyə çağırır. Halbuki, bu mövqe çağırış xarakterli deyil, məcburedici xarakterli olmalıdır.

1993-cü ilin iyun ayının 3-4-də ATƏM təmsilçilərindən ibarət Roma şəhərində görüş keçirildi və münaqişənin nizamlanması ilə bağlı sənəd hazırlanaraq baxılması üçün tərəflərə göndərildi. Həmin sənədə əsasən, Ermənistan silahlı qüvvələri Kəlbəcər rayonunu 15 iyun tarixindən başlayaraq 20 iyun tarixinədək boşaltmalı, bölgəyə 50 nəfərdən ibarət ATƏM müşahidəçisi gəlməli, avqustun 7-dən gec olmayaraq Minsk qrupunun konfransı fəaliyyətə başlamalı idi. Bu şərtlərlə Azərbaycan tərəfi razılaşsa da, Ermənistan tərəfi bir ay vaxt istədi.[8, səh 188] Bu dövr Azərbaycanda təkcə torpaqların işğalı kimi deyil, eyni zamanda hakimiyyət böhranı kimi də yadda qaldı, belə ki, 1993-cü il iyun ayının 15-dək ölkədə bir neçə dəfə hakimiyyət dəyişikliyi baş verdi, bu isə öz növbəsində həm daxili, həm də xarici siyasətdə özünü mənfi cəhətdən biruzə verirdi.

Azərbaycan Respublikası Prezidentinin səlahiyyətini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin sədri Heydər Əliyev 1993-cü il 25 sentyabr tarixində Moskva şəhərində Müstəqil Dövlətlər Birliyinin (MDB) toplantısında iştirak edərək Azərbaycanın həmin quruma üzv olması haqqında sənədi imzaladı. Cənubi Qafqazda önəmli və ən güclü maraqlara sahib Rusiyanın Dağlıq Qarabağ münaqişəsində rolunu, beynəlxalq aləmdə yaranmış vəziyyəti və ölkənin Avropaya inteqrasiya prosesində qarşılaşdığı mənzərəni qiymətləndirən Heydər Əliyevin bu addımı münaqişənin nizama salınması yolunda dönüş nöqtəsi hesab edilə bilər. Çünki bu dövrə qədər beynəlxalq təşkilatlar, böyük dövlətlər tərəfindən qəbul edilmiş qərarlar, verilən bəyanatlar yalnız tövsiyyə xarakteri daşıyır, tərəflər arasında baş tutan görüşlər heç bir nəticə vermir, Ermənistan isə öz növbəsində Azərbaycanın beynəlxalq müstəvidə tanınan torpaqlarını işğal etməkdə davam edirdi. Bu dövrdən etibarən Heydər Əliyevin qətiyyətli siyasi kursu nəticəsində beynəlxalq təşkilatlara Azərbaycanın haqq səsinin çatıdırlması ilə yanaşı münaqişənin nizamlanması istiqamətində əməli addımlar atılmağa, Ermənistan rəhbərliyi ilə fərdi görüşlərin keçirilməsinə başlanıldı. Moskva görüşü ərəfəsində Ermənistan prezidenti Levon Ter-Petrosyanla Heydər Əliyev arasında görüş baş tutdu, bir sıra məsələlər müzakirə edilərək, atəşkəs müddəti oktyabr ayının 5-dən noyabrın 5-

dək müddətə uzadıldı.[3] Əlavə olaraq prezidentlər arasında münaqişənin nizamlanması və müzakirəsi məqsədilə 8 oktyabr tarixində Moskvada və 23 dekabr tarixində Aşqabadda ikitərəfli görüşlər həyata keçirildi.

Bu dövr ərzində ATƏM tərəfindən bir neçə dəfə münaqişənin nizamlanmasına dair təxirəsalınmaz tədbirlər planı haqqında yeni cədvəl tərəflərə təqdim edilsə də, bu layihədə işğalçı qüvvələrin ərazilərdən hansı vaxtda çıxarılacağı, xüsusilə də noyabr ayında Vyanada keçirilən görüş zamanı təqdim edilən cədvəldə Ermənistan silahlı qüvvələrinin Laçın və Şuşa şəhərindən çıxarılması nəzərdə tutulmur, bu məsələyə Minsk konfransında baxılacağı qeyd olunurdu. Məhz bu səbəblərə görə Azərbaycan tərəfi təqdim edilən cədvəllə və nizamlanma prosesi ilə razılaşa bilməzdi. Bununla da danışıqlar prosesi beynəlxalq təşkilatlar tərəfindən bilərəkdən uzadılır, dondurulurdu. Artıq 1993-cü ilin sonunadək Azərbaycan ərazisinin 20 faizi Ermənistan silahlı qüvvələri tərəfindən işğala məruz qaldı və bir milyondan çox insan öz torpaqlarından çıxarılaraq məcburi köçkün halına salındı. Beynəlxalq təşkilatlar, böyük dövlətlər isə məsələni kökündən həll etmək əvəzinə bir sıra mənasız bəyanatlarla çıxış etdi, qaçqın və məcburi köçkünlərə humanitar yardımın edilməsi məsələsi ilə bağlı çağırışlar edildi. Əslində ATƏM tərəfindən təşkil edilən görüşlər, qəbul edilən bəyanatlar, BMT Təhlükəsizlik Şurasının qətnamələri, eləcə də, müşahidə missiyalarının təşkili, sülh planının hazırlanması dair planların, cədvəllərin hazırlanması sonrakı dövrdə tərəflər arasında danışıqların siyasi bazasını formalaşdırmış oldu, lakin təşkilat çərçivəsində qərarların qəbulu zamanı konsensus prinsipi onun qəbuletmə mexanizmində bir boşluq kimi dəyərləndirilməlidir. Çünki bir çox qərarlarda Ermənistanın narazılığı qərarların qəbul edilməməsinə səbəb olur və nizamlanma prosesinə ağır zərbə vururdu. Bunun nəticəsində illər boyu ATƏT-in iş prinsipi, nizamlanma prosesində yaxından iştirak etməsi formal xarakter almağa başladı. Bundan başqa münaqişəsinin nizamlanma prosesi BMT və ATƏM-in birgə işi nəticəsində deyil, ayrı ayrılıqda aparılırdığı üçün nəticəsiz qalırdı, belə ki, BMT öz qətnamələrində münaqişəni nizamlamaq üçün nəzarət mexanizmini ATƏM-in məsuliyyətinə buraxırdı, lakin bu təşkilatın heç bir məcburedici mexanizmi olmadığı, indiyə qədər heç bir regionda sülhməramlı əməliyyat keçirmədiyi üçün atılan addımlar sülh razılaşmalarına səbəb ola bilmirdi. Əlavə olaraq hər bir üzv Dağlıq Qarabağ kimi çətin relyefi olan bir regiona sülhməramlı əsgər və ya müşahidəçi göndərmək üçün yalnız Rusiyanı görürdü.[10, səh 300] Bununla da Rusiya münaqişənin nizamlanmasın prosesində idarəçiliyi və nəzarəti birbaşa öz üzərinə çəkə bildi.

Münaqişənin başlandığı dövrdən etibarən Rusiya Cənubi Qafqaz regionunda daimi maraqlarını qoruyub saxlamağa, "Yaxın Çevrə" siyasətini həyata keçirməyə, həyati maraq zonasını nəzarətində saxlamağa çalışırdı. Təsadüfi deyildir ki, 1993-cü ildə Boris Yeltsin bir sıra beynəlxalq təşkilatlara keçmiş Sovet İttifaqı ərazisində sülh və əminamanlığın yaradılması üçün Rusiyaya xüsusi imkanların yaradılması fikrini ortaya atmışdır. Məhz bu fikir böyük

dövlətin böyük iddialarından, SSRİ-ni bərpa etmək istəyindən xəbər verirdi. Eyni ilə Cənubi Qafqaz regionunda da bu siyasəti yürütməyə başlamışdır. Rusiya bir neçə dəfə münaqişənin həlli planı barədə layihələr irəli sürmüş, iyul-avqust aylarında tərəflər arasında bir neçə dəfə atəşkəsin əldə olunması üçün vasitəçilik həyata keçirmişdir.

1993-cü ilin sonlarında isə daha bir sülh planı təqdim edilir. Plana əsasən Azərbaycan-İran sərhədləri Rusiya nəzarətinə götürülməli, Azərbaycanda rus hərbi bazaları formalaşdırılmalı, Xəzər dənizində Azərbaycanın iqtisadi maraqları 10 mil məsafəsində məhdudlaşdırılmalı idi, lakin Azərbaycan tərəfi bununla razılaşmadı. 1993-cü ilin dekabr ayından etibarən Azərbaycan Silahlı Qüvvələrinin cəbhənin bir neçə istiqamətində uğurlu hərbi əməliyyatları Rusiyanı münaqişənin həlli prosesində yaxından iştirak etməyə vadar edir. Belə ki, yanvarın 18-də Rusiya, Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin Moskva görüşündə yeni 16 maddədən ibarət plan müzakirə edilir. Plana əsasən Ermənistan Azərbaycan torpaqlarında olan əsgərlərini Dağlıq Qarabağa (keçmiş Dağlıq Qarabağ muxtar vilayətinin ərazisinə) toplamalı, Dağlıq Qarabağla ətraf rayonlar arasında bufer zona yardılaraq əsasını Rusiya hərbi qüvvələri olan sülhməramlılar yerləşdirilməli, erməni hərbi birləşmələrinin nəzarətində olmaq şərtilə Laçın rayonuna dəhliz statusu verilməli, Azərbaycan tərəfi Laçın və Kəlbəcərdə olan hərbi və texniki avadanlıqlarını tələb etməməli, Şuşaya erməni hərbiçiləri yerləşdirilməklə daha sonra 60 min Azərbaycanlı məcburi köçkün qaytarılmalı, Dağlıq Qarabağ bölgəsi erməniləri danışıqlar prosesində tərəf kimi qəbul edilməli, Azərbaycan-Ermənistan və Naxçıvan (Azərbaycan) arasında kommunikasiya xətləri bərpa edilməli, Azərbaycan Ermənistan sərhədinə Azərbaycan ordusunun nəzarət etməməli, Dağlıq Qarabağın respublika statusu tanınmalı, ətraf yeddi rayon azad edildikdən sonra Azərbaycan ordusu geri qaytarılmamalıdır və s.[8, səh 209] Plan yetəri qədər ziddiyətli və Azərbaycan üçün tamamilə məğlubiyyət demək idi və təbii ki, bununla razılaşmaq Dağlıq Qarabağın birdəfəlik itirilməsinə səbəb ola bilərdi. Ziddiyyətli danışıqlar prosesinə baxmayaraq, fevral ayının 18-də Moskvada tərəflər arasında mayın 9-dan atəşkəsin əldə olunacağı haqqında saziş imzalandı. Ümumiyyətlə 1994-cü il Azərbaycanın diplomatik uğurlarının qazanıldığı, münaqişənin formatında ciddi dəyişikliyin əldə edilməsi ili kimi qəbul edilə bilər. Belə ki, may ayının 4-də Heydər Əliyev Brüsseldə səfəri zamanı Azərbaycan NATO-nun "Sülh naminə təfədaşlıq proqramı"na qoşuldu, belə bir çətin diplomatik şəraitdə bu addımın atılması Azərbaycan diplomatiyasının, siyasi kursunun önəmli parçası hesab edilməlidir. Paralel olaraq May ayının 4-5-də Qırğızıstanın paytaxtı Bişkek şəhərində MDB Parlamentlərarası Assambleyanın təşəbbüsü ilə Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasına dair görüşlər həyata keçirildi. Görüşün yekununda hazırlanan Bişkek protokolu tərəflər arasında müxtəlif vaxtlarda imzalandı, lakin tarixi sənəd hesab edilən bu protokolla bağlı bir sıra məqamlara diqqət yetirməliyik:

1. Görüşün yekununda ilk olaraq Dağlıq Qarabağın "erməni icması" bu

protokolu imzaladı;

2. Protokola əsasən may ayının 8-dən 9-na keçən gecədən etibarən cəbhədə aktiv hərbi əməliyyatların dayandırılmasına, silahlı birləşmələrin işğal olunmuş ərazilərdən çıxarılmasına, məcburi köçkünlərin öz daimi yaşayış yerlərinə qaytarılmasına, BMT Təhlükəsizlik Şurasının qətnamələrinə yerinə yetirilməsinə nəzarət etmək məqsədilə MDB və Parlamentlərarası Assambleyanın fəal rol oynamasına çağırışlar edilir;

3. Protokol Dağlıq Qarabağın Azərbaycan icmasına imkan verilmədiyi, bir sıra şübhəli məqamlar olduğu üçün protokol Azərbaycan Respublikası Milli Məclisinin vitse-spikeri tərəfindən imzalanmamışdır;

4. ATƏM-in Minsk qrupundakı Rusiya təmsilçisi Vladimr Kazimirov tərəfindən may ayının 8-də protokol imzalanmış halda Bakıya gətirilmiş, protokolun 4-cü maddəsində "müşahidəçilər" termini "beynəlxalq müşahidəçilər" söz birləşməsi ilə, "tutulmuş ərazilər" termini isə "işğal olunmuş ərazilər" söz birləşməsi ilə dəyişdirilərək müvafiq qeydlər aparılmış, eyni zamanda imzalar arasına Dağlıq Qarabağın Azərbaycanlı icmasının rəhbəri Nizami Bəhmənovun adı əlavə edilərək (Bakıda olmadığı üçün imza çəkməmişdir) Milli Məclisin spikeri tərəfindən imzalanmışdır; [14]

5. Rusiya və ATƏM-in səyləri nəticəsində 12 may tarixindən saat 00:01-dən etibarən tərəflər arasında atəşkəs (qərar 9 may tarixində Azərbaycan Respublikasının Müdafiə naziri Məmmədrəfi Məmmədov, 10 may tarixində Ermənistanın Müdafiə naziri Serj Sarkisyan, 11 may tarixində isə "Qarabağ ermənilərinin komandiri" Samvel Babayan tərəfindən imzalanır.) imzalanır.[15]

6. Qeyd üçün bildirirəm ki, artıq bu dövrə qədər Ermənistanın hərbi təcavüzü nəticəsində Xankəndi şəhəri, Xocalı, Şuşa, Laçın, Xocavənd, Kəlbəcər, Ağdam, Füzuli, Qubadlı, Cəbrayıl, Zəngilan rayonları, həmçinin Tərtər rayonunun 13, Qazax rayonunun 7, Naxçıvanın Sədərək rayonunun isə 1 kəndi Ermənistan ordusu tərəfindən işğal edilmişdir.

7. Atəşkəs razılığının əldə olunması hər iki tərəf üçün müsbət qiymətləndirilsə də, Ermənistan tərəfi bu razılığa əsasən müharibədən qalib tərəf kimi mövqeyini möhkəmləndirməyə başladı. Təsadüfi deyildir ki, 26 il ərzində güclü müdafiə xətləri yaradıldı, təxmini hesablamalara əsasən, işğal edilmiş rayonlarda güclü mühəndis-istehkamların təşkil edilməsinə külli miqdarda vəsait ayrılmış, bir sıra şirkətlər bu prosesdə yaxından iştirak etmişdir. Azərbaycan isə bu razılaşma ilə daha böyük təhlükənin, işğal olunmuş ərazilərin miqyasının böyüməsinin qarşısını kəsmiş, bu müddətdən istifadə edərək enerji ehtiyatlarının Avropa bazarına çıxarılması yolu ilə iqtisadi yüksəliş əldə etməyə nail olmuşdur.

Atəşkəsin əldə olunması ilə tərəflər arasında Böyük Sülh sazişinə hazırlıq başlamalı idi və bununla bağlı olaraq Rusiyanın xüsusi nümayəndəsi Vladimr Kazimirov tərəfindən münaqişənin nizamlanmasına dair 3 mərhələdən ibarət plan təklif edilmişdir. Plana əsasən ilk növbədə atəşkəs əldə olunmalı və bu proses möhkəmləndirilməlidir. İkinci mərhələdə 34 gün ərzində işğal olunmuş Dağlıq Qarabağ ətrafı altı rayon (Laçın istisna olmaqla, Kəlbəcər, Ağdam,

Füzuli, Qubadlı, Cəbrayıl, Zəngilan) boşaldılmalı, silahlı qüvvələr çıxarılmalıdır, üçüncü mərhələdə isə Dağlıq Qarabağ bölgəsinin yekun statsu ilə bağlı müzakirələr başlanmalıdır. Təbii ki, bu layihə Azərbaycanın ərazi bütövlüyünə hədə yaratdığı üçün Bakı tərəfindən rədd edildi. Danışıqların yekunu olaraq bölgədə qismən atəşkəs əldə olundu, münaqişənin nizamlanması prosesində yeni mərhələ başladı və təklif edilən layihələr Azərbaycanın ərazi bütövlüyünü pozduğu üçün bölgəyə sülhməramlı qüvvələrin daxil olmasına şərait yaradılmadı.

Bu dövr Rusiyanın münaqişənin nizamlanma prosesində yaxından iştirakı kimi dəyərləndirilməlidir. ATƏM-in Minsk qrupunun fəaliyyətini pozmaqla şəxsi təşəbbüs göstərərək sülhməramlı olmayan, yalnız tərəflər arasında atəşi və silahlı qarşıdurmanı qismən dayandıran razılaşmaya nail olan Rusiya eyni zamanda vaxtilə Azərbaycandan çıxarılmış silahlı qüvvələrini yenidən "sülhməramlı qüvvələr" adı ilə regiona yerləşdirmək niyyətində idi, hətta dəfələrlə Heydər Əliyevlə bu barədə danışıqlar aparılmış, lakin məqsədə nail olunmamışdır. Heydər Əliyevin fikrinə əsasən, rus qüvvələri yalnız ATƏM-in təsis edəcəyi beynəlxalq sülhməramlı qüvvələr daxilində Azərbaycan ərazisinə daxil ola bilər. Çünki o dövr üçün rus qoşunlarının Azərbaycana daxil olması fəlakətlə nəticələnə bilərdi. Bununla belə, Ermənistan tərəfi 1994-cü il 9 iyun tarixində iki rus hərbi bazasının ölkə ərazisində 25 il müddətinə yerləşdirilməsi ilə bağlı Rusiya Federasiyası ilə hərbi müqavilə imzaladı.

Ümumiyyətlə 1991-1994-cü illərdə Dağlıq Qarabağ münaqişəsi ilə bağlı baş verən prosesləri təhlil edərkən görürük ki, Cənubi Qafqaz regionunda yeni müstəqillik əldə edən dövlətlərin daxili və xarici siyasəti, yaranan münaqişələr Avropa regionunda yerləşən ölkələrin, ABŞ və digər böyük güclərin ciddi maraq dairəsində deyil. Çünki keçmiş SSRİ ərazisində yerləşən bu ölkələr Rusiyanın birbaşa təsiri altında idarə olunurdu və Rusiyanın yaxın çevrəsində yerləşdiyi üçün orada böyük təsir gücünə malik idi. Rusiya isə öz növbəsində regionda yenidən nəzarəti ələ almaq istəyində idi, çünki Türkiyə və İran kimi regional güclərlə sərhədlərə malik olmaq və nəzarət etmək, eyni zamanda Xəzərin karbohidrogen yataqlarından istifadə etməsilə gələcəkdə Avropa regionunu bir istiqamətdə asılı hala salmaq niyyətində idi. Bundan başqa region daxilində süni formada yaradılan münaqişələr də Rusiyanın nəzarəti ilə uzadılır, dondurulur və həlli imkanları məhdudlaşdırılırdı. Avropa ölkələri isə münaqişə ilə bağlı birmənalı fikir ifadə etmirdilər. Təsadüfi deyildir ki, 2018-ci ildə Minsk Konfransının keçmiş sədri M.Rafaelli münaqişənin həlli prinsipləri haqqında danışarkən 2 səbəbə görə nizamlanma prosesinin yekunlaşmadığını bildirirdi, onlardan birincisi münaqişə tərəflərinin iradə nümayiş etdirməməsi, digəri isə beynəlxalq ictimaiyyətin sadiqliyinin olmaması. Lakin 1994-cü ildən sonra regionda vəziyyət tamamilə dəyişmiş, Avropa ölkələrinin və ABŞ-ın maraqları regiona cəlb edilmişdir. Artıq 1994-cü ildən sonra Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı əməli addımlar atılmış, yeni sülh layihələri hazırlanaraq tərəflərə təqdim edilmiş, eyni zamanda Azərbaycan regionda öz iqtisadi, siyasi və hərbi potensialını artıraraq nizamlanma prosesində öz möv-

qeyini ortaya qoya bilmişdir.

**ƏDƏBİYYAT**


1. Araz Aslanli, Brief History of Ceasefire in the Nagorno-Karabakh Conflict, https://www.ifimes.org/en/9921, istinad tarixi: 22.11.2020
2. ARMENIA YIELDING CLAIM ON ENCLAVE, https://www.nytimes.com/1991/09/23/world/armenia-yielding-claim-on-enclave.html?scp=1&sq=Armenia%20Yielding%20Claim%20on%20Enclave&st=cse, istinad tarixi: 22.11.2020
3. Azərbaycan Respublikası Prezidentinin səlahiyyətini həyata keçirən Azərbaycan Respublikası Ali Sovetinin sədri Heydər Əliyevin Ermənistan Respublikasının Prezidenti L. Ter-Petrosyanla Moskva şəhərində görüşü haqqında AR Milli Məclisinin qərarı, http://www.e-qanun.az/framework/8588, istinad tarixi: 19.11.2020
4. Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzi, Azərbaycan Respublikasının xarici siyasətinin əsas istiqamətləri (1991-2016), Bakı, Poliart MMC, 2017
5. Elçin Əhmədov, Ermənistanın Azərbaycana təcavüzü: Təhlili xronika (1987-2011), Ensiklopedik nəşr, Bakı 2012
6. Ermenistan'a sınır kapısı için 3 şart, https://www.hurriyet.com.tr/dunya/ermenistana-sinir-kapisi-icin-3-sart-8272816, istinad tarixi: 16.11.2020
7. XİN: BMT Təhlükəsizlik Şurasının qətnamələri məcburidir və hər zaman qüvvədədir, https://report.az/dagliq-qarabag-munaqishesi/xin-bmt-tehlukesizlik-surasinin-qetnameleri-mecburidir-ve-her-zaman-quvvededir/, istinad tarixi: 22.11.2020
8. Musa Qasımlı, Azərbaycan Respublikasının xarici siyasəti (1991-2003), I hissə, Bakı 2015
9. Resolution No. 12/21-P, Conflict between Armenia and Azerbaijan, https://www.oic-oci.org/docdown/?docID=4330&refID=1216, istinad tarixi: 17.11.2020
10. Tomas de Waal, Karabağ (Barış ve savaş süreçlerinde Ermenistan ve Azerbaycan), İstanbul, 2014
11. UN Security Council Resolution S/RES/822 (30 april 1993), http://unscr.com/en/resolutions/doc/822, istinad tarixi: 17.11.2020
12. United Nations General Assembly Resolution 3314 (XXIX) (Definition of Aggression), https://undocs.org/en/A/RES/3314(XXIX), istinad tarixi: 21.11.2020
13. Zheleznovodsk Declaration, https://peacemaker.un.org/sites/peacemaker.un.org/files/Azerbaijan_ZheleznovodskDeclaration1991.pdf, istinad tarixi: 22.11.2020
14. Бишкекский Протокол, http://vn.kazimirov.ru/doc9.htm, istinad tarixi: 19.11.2020
15. Соглашение о прекращении огня с 12 мая 1994 г., http://www.vn.kazimirov.ru/doc10.htm, istinad tarixi: 20.11.2020


## УСИЛИЯ ПО УРЕГУЛИРОВАНИЮ НАГОРНО-КАРАБАХСКОГО КОНФЛИКТА ДО ПРЕКРАЩЕНИЯ ОГНЯ В 1994 ГОДУ, ПРИНЯТЫЕ РЕШЕНИЯ И ИХ ВЫПОЛНЕНИЕ

**Ф.М.АЙДЫНЛЫ**

**РЕЗЮМЕ**

Нагорно-Карабахский конфликт вступил в новый исторический период с момента приобретения независимости государствами Южного Кавказа в 1991 году. 1991-1994 годы характеризуются как период военного вмешательства в Нагорно-Карабахский конфликт и формирования базы переговорного процесса. В этот период региональные державы, международные организации выдвинули предложения по урегулированию

конфликта, были достигнуты договоренности о прекращении огня, но армянская сторона не выполнила эти договоренности. В то же время резолюции и заявления международных организаций, Совета Безопасности ООН, заявления, наблюдательные миссии по конфликту, графики Совещания по безопасности и сотрудничеству в Европе, заявления Совета Европы, Европейского Союза, Организации Исламского Сотрудничества, Содружества Независимых Государств не смогли остановить агрессивную политику Армении. Таким образом, 20% признанных на международном уровне азербайджанских земель были оккупированы. В этот период наблюдалась активная политика России в регионе - политика «в ближнем зарубежье». В статье, со ссылкой на официальные документы, анализируются встречи сторон до Бишкекского протокола 1994 года и связанное с ним прекращение огня, процесс урегулирования и политический курс государств, предпринявших попытку этого процесса, мирные планы и решения, принятые международными организациями.

**Ключевые слова:** Нагорно-карабахский конфликт, Минская группа ОБСЕ, Резолюции Совета Безопасности ООН, соглашения о прекращении огня, Бишкекский протокол, Азербайджан, Армения

## EFFORTS TO RESOLVE THE NAGORNO-KARABAKH CONFLICT BEFORE A CEASEFIRE WAS REACHED IN 1994, DECISIONS AND THEIR IMPLEMENTATION

**F.M.AYDINLI**

### SUMMARY

The Nagorno-Karabakh conflict has entered a new historical period since the independence of the states in the Southern Caucasus in 1991. 1991-1994 is characterized as the period of military intervention in the Nagorno-Karabakh conflict and forming the basis of the negotiation process. During this period, regional powers and international organizations made suggestions for the resolution of the conflict, and ceasefire agreements were reached, but the Armenian side did not comply with these agreements. At the same time, the resolutions and statements of the international organizations, the UN Security Council, the statements of the European Security and Cooperation Council, the observation missions and timetables regarding the conflict, the statements of the Council of Europe, the European Union, the Organization of Islamic Cooperation, the Commonwealth of Independent States could not stop the aggressive policy of Armenia. Thus, 20% of Azerbaijan's internationally recognized territory was occupied. During this period, Russia's active policy in the region and its Near Abroad policy were observed. The article analyzes the negotiations between the parties before the 1994 Bishkek Protocol and the resulting ceasefire, the solution process and the political course of the states trying to do so, the peace plans and the decisions taken by international organizations, based on official documents.

**Keywords:** Nagorno-Karabakh conflict, OSCE Minsk Group, UN Security Council resolutions, ceasefire agreements, Bishkek Protocol, Azerbaijan, Armenia

BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№2 Sosial-siyasi elmlər seriyası 2020*

## FƏLSƏFƏ

**UOT 001**

**https://orcid.org/0000-0002-1781-8904**

# AZƏRBAYCANIN İSLAHATÇI DÜŞÜNCƏSİNDƏ QADIN FAKTORU: ŞƏFİQƏ ƏFƏNDİZADƏ

**A.X.KƏRİMOVA**
***Bakı Dövlət Universiteti***
***aygunxalilqizi@mail.ru***

*Azərbaycanın maarifçilik tarixində elə ziyalı qadınları olub ki, onlar ölkədə baş verən ictimai-siyasi hadisələrə biganə qalmayaraq, cəhalətə qarşı mübarizə aparır və həyatları bahasına xalqının, millətinin maariflənməsinə can atıblar. XX əsrin birinci yarısından başlayaraq Azərbaycanda başlayan maarifçilik hərəkatının inkişafında zərif çiyinlərini ağır tarixi yük altına qoyaraq zamanın ən çətin imtahanlarında bir ziyalı, maarifçi qadın olaraq maarifçilik tariximizin səhifələrinə adlarını qürurla yazmişlar. Onlardan biri də ilk Azərbaycan dili müəllimi, ilk qadın jurnalist, eləcə də Cümhuriyyət parlamentinin əməkdaşı olan Şəfiqə xanım Əfəndizadə olmuşdur. Şəfiqə Əfndizadə Azərbaycan qadınlarını daim təhsilli, savadlı, dünyagörüşlü görmək istəyirdi. Bunun üçün cəmiyyətdə ilk öncə qadınları maarifləndirmək lazım idi. Bu yolda o bütün islahatçı düşüncələrini ortaya qoyaraq, Azərbaycan cəmiyyətini dövrün inkişaf mərhələlərində görmək istəyirdi. Məhz bu islahatlarda qadının böyük əhəmiyyət kəsb etdiyini göstərirdi. Çünki o çox gözəl bilirdiki çəmiyyətdə istər məişət istər içtimai məsələlərdəki bütün qüsurlar cahillikdən, savadsizliqdan, təhsilsizlikədən baş verir. Cəmiyyətlərin inkişafında aparıcı qüvvə olan, nəsil yetişdirməkdə mühüm rol oynayan qadın tərəqqinin əsas qüvvəsidir. Məhz bu səbəbdən qadınların elmə, təhsilə, inkişafa yönləndirmək, haqq ve hüquqlarını müdafiə etmək bu maarifpərvər qadının həyat amalina çevrilmişdi. Şəfiqə xanım Əfəndizadə bu yolda bir insan ömrünə sığdıra bildiyi qədər fəaliyyətlər, maarifçilik tariximiz üçün daha üstün, qat qat böyük xidmətlər qoyub getmişdir.*

**Açar sözlər:** Təhsil, ziyalı, islahatçı qadın, maarifçi qadın, Şəfiqə Əfəndizadə,

## Giriş

Azərbaycanda maarifçilik Qərbə nisbətən gec başlasa xalqımızın maarifçi ziyalıları çətin və keşməkeşli tarixi zamanda millətin dirçəlişi, inkişafı, elm və təhsil sahəsində dövrün ən ağır məhdudiyyətləri içərisində fədakarlıqlar göstərərək zəmanənin ən ağır yükünü çiyinlərinə almışlar. Bu maarifçi ziyalılar sadəcə xaqlımızn kişi nümayənədləri deyil eyni zamanda məcbur qaldıqları halda cəmiyyətin bütün sahələrində zərif varlıq olduqlarını unudaraq kişilərlə çiyin-çiyinə hər bir ağır tarixi yükü də qaldırmağı bacarmışlar. Belə ziyalı, zəngin dünyagörüşlü, islahatçı düşüncələri ilə bir işiq tutub xalqına özünü,

həyatını həsr edən qadınlardan biri də Şəfiqə xanım Əfəndizadədir.

Azərbaycanın maarifçilik tarixində elə ziyalı qadınlar olub ki, onlar ölkədə baş verən ictimai-siyasi hadisələrə biganə qalmayaraq, cəhalətə qarşı mübarizə aparır və həyatları bahasına xalqının, millətinin maariflənməsinə can atıblar. XX əsrin birinci yarısından başlayaraq Azərbaycanda başlayan maarifçilik hərəkatının inkişafında zərif çiyinlərini ağır tarixi yük altına qoyaraq zamanın ən çətin imtahanlarında bir ziyalı, maarifçi qadın olaraq maarifçilik tariximizin səhifələrinə adlarını qürurla yazmişlar. Məhz həmin qadınlardan olan Şəfiqə Əfəndizadə o dövrün ilk Azərbaycan dili müəllimi, ilk qadın jurnalisti, eləcə də Cümhuriyyət parlamentinin əməkdaşı idi.

O, 1882-ci ildə Gürcüstanda tarixən Axısqa türklərinin yaşamış olduğu Axalsix rayonunun Azqur kəndində tanınmış pedaqoq Məmmədəmin Şeyxzadənin ailəsində doğulmuşdur. Şəfiqə xanımın atası eyni zamanda həm də onun ilk müəllimi idi. O, və bacısı ilə təhsilini məhz atasından alır. On dörd yaşında ikən Şəki şəhərinə (Nuxa) gələn Şəfiqə xanım burada atasının çalışdığı "Darüssiyada" məktəbinin nəzdində olan qızlar üçün ayrılmış qrupda dərs keçir. Burada çox qalmayan ziyalı xanım, az sonra Bakıya gəlir və burada qadın savadsızlığına qarşı mübarizə aparan maarifçi ziyalılarla bərabər çiyin-çiyinə çalışmağa başlayır. Tanınmış xeyriyyəçi H.Z. Tağıyevin Bakıda ilk qızlar məktəbini açmasıyla xalqımızın elm və təhsil tarixində və eyni zamanda Müsəlman Şərqində qadınların təhsil almasının təməiini qoyaraq təhsil tariximizdə yeni bir uğurlu səhifə açdı. Qızlar məktəbinin açılmasına baxmayaraq orda dərs verəcək müəllimlərin azlığı böyük çətinliklər yaradırdı. Məhz bu səbəblə N.Nərimanov Şəfiqə xanimin atası Məmmədəmin Şeyxzadəyə qızı Şəfiqəni bu yeni açılmış məktəbdə dərs deməyə dəvət edir. Məmmədəmin Şeyxzadə bu dəvətdən çox sevinsə də lakin qızının dövlət məktəbində təhsili olmaması səbəbiylə belə bir hüquqa malik olmadığını bildirir. Məhz bu səbəblə Şəfiqə xanım 1901 –ci ildə təkrar Tiflisə qayıdıb orada imtahan verərərək, müəllimlik attestatı alıb yenidən Bakıya qayıdır və burada Rus-müsəlman qızlar məktəbində ana dilini tədris edir. Başlamış olduğu bu tədrislə ilk ana dili müəllimi olub təhsil tariximizə adını qürurla yazdırır.

**1. Azərbaycanın qadın mətbuatında Şəfiqə Əfəndizadə**

Məlum olduğu kimi Azərbaycanda qadın mətbuatının yaranması XX əsrin əvvəllərinə təsadüf edir. Həmin zamanlarda cəmiyyətdə qadın problemi, ona qarşı haqsız münasibətlər, insan haqq və hüquqlarının qorunması kimi məsələlər əsrin demək olar ki, ilk onilliyində çıxan demokratik ruhlu qəzet və jurnallarda müzakirə olinmağa başlayaraq,dövrün aktual məsələsinə çevrildi. Cəmiyyətin ziyalı qismi artıq diqqətlərini qadınların maarifləndirilməsi, qadın azadlığı məsələlərinə yönəldərək, onun təlim və tərbiyədə necə vacib faktor olduğunu göstərməyə çalışırdılar. Həmin dövrün ictimai-siyasi xadimi, jurnalist, yazıçı Əhməd bəy Ağaoğlu cəmiyyətin qadın probleminə toxunaraq belə yazırdı: İslam qövmlərinin qurtuluş və irəliləmsini təmin etmək üçün Ağaoğlunun fikrincə xüsusilə iki əsas məsələnin həll olunması lazımdı. Qadın

məsələsi və Əlifbanın islahı məsləsi. Bir müsəlman qadını sərbəst və şüurlu bir ana və həyat yoldaşı olmalıdır. Məhz bu zaman qadın üzərinə düşən həmin sosial vəzifəsini yerinə yetirmiş olacaqdır. Bu şərtlər daxilində övladlarının xasiyyət və iradəsini tərbiyə edə bilər, yüksək duyğular təlqin edə bilər.

“Boğucu hərəm havası içində keçirilən tənbəl və sırf heyvani bir həyat, qadının bədəni inkişafınada icazə vermədiyindən irqin bədəni çöküşünədə yol almaqdadır. Əlifbanın güclülüyü isə oxuyub yazmaya çox çətinlik yaratdığından müsəlmanların ağıl və qəlblərini işıqlandırması yolunu qapatmışdır. Qadın və əlifba, budur İslam aləminin iki ən həqiqi düşməni, onun mualicə olunmayan xəstəliyi ki, onların təsiri altında bu aləm yavaş-yavaş məhv olunmaqdadır”. (Akçura, 1978, 203)

Bütün bunlar qadın mətbuatının yaranması üçün zərurət yaradırdı. Özünün mütərəqqi və islahatçı düşüncələrini mətbuat vasitəsilə daha rahat bir şəkildə ifadə etmək üçün Şəfiqə xanım Əfəndizadə mətbu çıxışlarına 1903-cü ildə fəaliyyətə başlayan Məhəmməd ağa Şahtaxtlının baş redaktoru olduğu dövrün populyar qəzeti “Şərqi-Rus” qəzeti vasitəsilə həyata keçirə bildi. Daha sonra isə "Dirilik” jurnalları və "Açıq söz”, "Füqəra füyuzatı” qəzeti ilə də əməkdaşlıq edərək, ictimayətdə qadınların vəziyyəti və mövqeyi mövzusuna həsr edilmiş məqalələrini çap etdirmişdir. Ş.Əfəndizadənin elmə, təhsilə xüsusilə də qadınlarin maariflənməsinə işiq tutan bir şəxsiyyət olması, jurnalistika və publisistika sahəsində tanınması, milli dirçəlişimizin uğur qazanmasında böyük rol oynamışdır.Çünki o, cəmiyyətimizə faydalı gənclərin yetişməsində qadının nə qədər önəmli faktor olduğunu uzaqgörənliklə anlayan bir ziyalı idi.

Şəfiqə xanım 1911-1912-ci illərdə çap olunan "İşıq” qəzeti vasitəsilə məhz bu məslələri aydınlatmaq üçün mətbuatı ən gözəl fürsət bilərək ondan istifadə edirdi. Şəfiqə xanımın XX əsrin ilk on illiyində jurnalistika mühitinə cəlb edilməsində bu qəzetin mühüm rolu olub. Onun yaradıcılığında daha çox qadın azadlığı müraciət etdiyi əsas mövzudur. O qadınların məişət problemlərini, sosial əzikliyini, savadsızlığın gətirdiyi izdirablarını görür, bütün bunların qarşısını almaq üçün yeganə çarə olaraq qadınlarımizın hər cəhətdən güclənməsini təmin etmək üçün təhsilin rolunun nə qədər əhəmiyyətli olduğunu bilirdi. O, dövrün qadınlarının cəmiyyətdə çəkdikləri əziyyətləri görərək yazırdı:

"Dünyada olan zülmlərin həpsini biz ünas (qadın) tayfası çəkir.”

Onun publisistik məqalə və hekayələrində əsasən qadına münasibət, qadının cəmiyyətdə rolu və digər məsələlərdən bəhs olunur. O, həm də ilk qadın jurnalist olaraq publisistik fəaliyyətlə məşğul olur. Yuxarıda da qeyd etdiyimiz kimi, onun ilk qələm təcrübəsi 1903-cü ildə "Şərqi-rus" qəzetində dərc edilir. Sonralar o istər bu qəzetdə istərsə də digər qəzetlərdə, qəzetdə dərc etdirdiyi məqalələrində qadınları maarifə, təhsil almağa çağırır,bu şəkildə inkişafın ən amansız düşməni olan cəhaləti ortadan qaldırmağın yolllarını axtarırdı. Şəfiqə xanımın bu ideyalarını xalqa,oxucuya çatdırmaq üçün isə mətbuat ən uyğun və ən operativ vasitə idi.

Görkəmli mətbuatşünas-alim Qulam Məmmədli "Sizə kim lazımdır”

biblioqrafik məlumat kitabında onun publisistik məqalələrinin "Sədayi-həqq", "Bəsirət", "Sovqat", "İttihad" qəzetlərində də çap olunduğunu qeyd edib (Məmmədli, 1990, 192)

Fars, rus, ərəb dillərini, klasik ədəbiyyatı mükəmməl bilən Ş. Əfəndizadə həmçinin Avropa mədəniyyəti ilə yaxından tanış olub. 1918-ci il mart qırğınlarında Bakını tərk edərək, İstanbulda yaşamış, soyqırım həqiqətlərini dünyaya yaymış fədakar ictimaiyyətçi idi. Ali təhsil almayan bu qadın yüksək bilik səviyyəsi, məlumatlılığı, səlis, aydın, savadlı nitqi ilə hamını heyran edib. O, 1919-cu ildən etibarən Cümhuriyyət parlamentinin bütün işlərində iştirak edib, iclasların gedişatını stenoqramçı kimi qələmə alıb

Azərbaycan qadınlarını daim təhsilli, savadlı, dünyagörüşlü görmək istəyən "Analar! Qızlarınızı oxudun!" deyə ilk dəfə qadınlara müraciət edən də məhz Şəfiqə Əfəndizadə idi. Çünki o çox gözəl bilirdi ki, çəmiyyətdə istər məişət istər içtimai məsələlərdəki bütün qüsurlar cahillikdən, savadsizliqdan, təhsilsizlikədən baş verir. Cəmiyyətlərin inkişafında aparıcı qüvvə olan, nəsil yetişdirməkdə mühüm rol oynayan qadın tərəqqinin əsas qüvvəsidir. Məhz bu səbəbdən qadınların elmə, təhsilə, inkişafa yönləndirmək, haqq və hüquqlarını müdafiə etmək bu maarifpərvər qadının həyat amalina çevrilmişdi. Şəfiqə xanım Əfəndizadə bu yolda bir insan ömrünə sığdıra bildiyi qədər fəaliyyətlər, maarifçilik tariximiz üçün daha üstün, qat qat böyük xidmətlər qoyub getmişdir.

## 2. Şəfiqə Əfəndizadənin islahatçı ideyaları

Şəfiqə Əfəndizadə adiyla və düşüncələriylə milli məfkurəmizin qürur duyduğu bir maarifçi, ziyalı xanımıdr.O sadəcə maarifçi xanım olaraq qalmır, eyni zamanda həm də islahatçı bir qadindir. Zəngin dünyagörüşü ona imkan verrdi ki, xalqın elm,təhsil və düşüncələrdəki yeniliyə, inkişafa doğru bir təkan rolunu oynasın Əsasən cəmiyyətin inkişafında qızların, qadınların təhsil almasına çalışan Şəfiqə xanım bütün dönüş nöqtəsinin başlanğıcını qadınların maariflənməsində görürdü. Məhz bu səbəblə idi ki,o dövrün" dindarları" ona qarşı amansız mövqedə dayanaraq, açıq şəkildə ona olan nifrətlərini bildirirdilər. Təsadüfi deyil ki,1917-ci ildə o, Cənubi Qafqaz müsəlmanlarının I qurultayında Şərq qadınlarının hüquqsuzluğu barədə danışdığı zaman burada yeni məktəblərin, teatrların açılmasını tələb edir. "Şəfiqə Əfəndizadə və S.Talışxanova adlı iki azərbaycanlı qadının çıxışından sonra vəziyyət qurultay nümayəndələrini qadın məsələsinə ciddi münasibət bildirməyə vadar etdi. Qadınların çıxışından sonra keçmiş Bakı qazısı Ağa Məhəmməd Kərim tribunaya çıxdı. Onları qadınları şəriət qanunlarına zidd olaraq kişilər qarşısında üzüaçıq çıxış etdiklərinə görə mühakimə etdi. Bütün zal qızışaraq ayağa qalxdı. Qazı tribunadan düşməyə məcbur oldu **...**" (Dünyaminqızı, 2011, s 4)

Şəfiqə Əfəndizadənin 1903-cü ildə Şərqi-Rus qəzetindəki "Bir çox ümidlərimiz" sərlövhəli məqaləsində yazırdı: "Ümidlərimiz çox böyükdür...Hər bir rəzalətin səbəbi cəhalətdir. Cəhalətdən çıxmağın dərmanı isə elmdir, maarifdir..." Bu sözlər kifayət edir ki, o mətbuatı islahatçı düşüncələr üçün bir

vasitə hesab edərək öz yenilikçi ideyalarını xalqa çatdırsın.

Şəfiqə Əfəndizadə Avropa mədəniyyəti ilə yaxından tanış olan mütərəqqi fikirli bir qadın idi. O, 1918-ci il mart qırğınlarında Bakını tərk edərək, İstanbulda yaşamış, soyqırım həqiqətlərini dünyaya yaymış fədakar ictimaiyyətçi xanım idi. O, 1919-cu ildən etibarən Cümhuriyyət parlamentinin bütün işlərində iştirak edib, iclasların gedişatını stenoqramçı kimi qələmə almışdı. Azərbaycan Xalq Cumhuriyyətinin parlamentinə daxil olan yeganə qadın jurnalit olan Şəfiqə xanımbura da bir ilkə imza atmış idi.

Ş.Əfəndizadə" Azərbaycan "qəzetinində dərc olunan "Seçki və qadınlar" adlı məqaləsində o dövr üçün böyük əhəmiyyət kəsb edən digər bir məsələyə - qadınların savadsızlıq üzündən seçki hüquqlarını, seçkinin mahiyyətini dərk etməmələrindən, bunun nəticəsində isə təbii olaraq bu prosesdən kənarda qalmalarından yazıb: "Həyatı sevmək, onu daha da gözəlləşdirmək lazımdır. İnkişaf qadınlıq və qadınlığın diriliyindədir. Qızların, qadınların səyi olmadan Vətənin, xalqın yüksəlişi qeyri-mümkündür. Başqa xalqların qadınları ictimai-siyasi həyatda kişilərlə bərabər fəaliyyət göstərərək, öz millətinin tərəqqisi üçün çalışan zaman Azərbaycan qadınları bu prosesdən kənarda qala bilməz". Həmin məqalədə qadınların seçkidə iştirakı zəruri məsələ kimi önə çəkilir və onların siyasi və vətəndaşlıq hüquqlarının kişilərlə bərabərliyi cəsarətlə qeyd edilib. (Azərbaycan, 1917)

İstiqlal aşiqi, vətən fədaisi Ş.Əfəndizadə publisistikasında dövrünün problemlərinə əsl jurnalist mövqeyindən yanaşmış, vətənpərvər şəxsiyyət kimi münasibət bildirib. Sovet dövründə də Şəfiqə xanım Əfəndizadə jurnalistlik fəaliyyətini davam etdirib, 1923-cü ildə fəaliyyət göstərməyə başlayan "Şərq qadını" jurnalı ilə fəal əməkdaşlıq edib. Redaksiya heyətinin üzvü seçilən bu ziyalı xanım jurnalın məsul katibi və bədii ədəbiyyat şöbəsinin müdiri vəzifəsində çalışmışdır.

Şəfiqə xanımın yaradıcılığında qadın azadlığı ən aktual və daha çox müraciət etdiyi mövzu olmuşdur. Onun publisistik məqalə və hekayələrində əsasən qadına münasibət, qadının cəmiyyətdə rolu və digər məsələlərdən bəhs olunur. O, qadınların kişilərlə müqayisədə geridə qalmasını qəbul etmirdi. Ş.Əfəndizadə millətin əsaslı bir mədəniyyət əldə etməsində hər iki tərəfin böyük rol oynadığını qeyd edib. Əsrin əvvələrində bir ziyalı xanımın bu fikirləri əslində gender bərabərliyini irəli sürən və müdafiə edən ən gözəl nümunə idi.

Dövrünün radikal ruhani təbəqəsinə də savaş açan Şəfiqə xanım daima mollaların və ruhanilrin qəzəbinə tuş gəlirdi. İntellektual biliyinə bələd olan Şəfiqə xanım hətta yas məclisində kişilərin yığışdığı məkana daxil olaraq, mollaların səhv danışdığını gördükdə onlara etirazını belə bildirməkdən çəkinmirdi . Bu, o dövr üçün həqiqətən çox böyük cəsarət tələb edən bir addım idi. Burdan eyni zamanda belə bir nəticə də çıxara bilərik ki, əgər Şəfiqə xanımın varlığı, cəmiyyətin gerlikçi,ehkamçı qismi üçün bu qədər qorxu və rəqabət yaradırdısa və özlərinə bu yolda acıq bir rəqib görürdülərsə deməli bu qadın həqiqətən də reformist düşüncəli bir xanım idi.

Əlbəttə ki, təhsili, qadın maariflənməsini özlərinə artiq bir yük, lazımsız bir ünsür hesab edən mühafizəkar düşüncəli insanlar üçün qadının təhsil alması, hərtərəfli dünyagörüşünə sahib olması bəzilərinin ürəyincə olmaya bilərdi. Lakin güclü bir cəmiyyəti sadəcə güclü qadın və onun tərbiyə etdiyi insanlar qurtara bilərdi. Qadınları cəmiyyətin ən yararsız və hüquqsuz üzvünə çevirən mühit və zəmanə üçün Şəfiqə xanım çox amansız mövqedə idi. O, bütün səy və gücləri ilə əsaslı bir dəyişim, inkişaf zərurətini çox gözəl ayird edir. Bunun yeganə çıxış yolunu isə Şəfiqə xanim təhsildə, islahatçılıqda görürdü. Təhsildəki islahat pilləsinin başlanğıcı isə sadəcə qadın faktoru ilə həll olunmalı idi. Qadın təhsilli olarsa deməli güclüdür. Qadınlar elm, təhsil, incəsənət və digər sahələrdə özünü sübut etməli, cəmiyyətin yararlı üzvü olduğunu hər kəsə isbat etməlidir. Çünki güclü qadın güclü şəxsiyyətdir, güclü anadır. Güclü ana isə cəmiyyətə,millətə yararlı insan yetişdirər. Beləliklə güclü, təhsilli, savadlı ana parlaq cəmiyyətdir.

Şəfiqə Əfəndizadənin ”qadin səsi” adlı məqaləsində bir ailə tablosu içərisində cərəyan edən hekayədə həqiqi, dünyagörüşlü, millətinə və irqinə sahib çıxa bilən, ailə tərbiyəsində milli kökə böyük üstünlük verən bir qadın obrazının dili ilə əsl Türk-Müsəlman ailəsinin necə olmasının incələdikdə sanki müəllifin bir Türk ailəsinə, Türk qadınına tövsiyyələrini görürük. Müəllif hekayədə Fəridə xanımın Avropada yaşadığı halda övladlarını milli ruhmilli tərbiyədə bəsləmiş, bir anadır. Hətta ona : “Fəridə xanım,qız övladına bu qədər təhsil gərəklimi”? sualına Fəridə xanım belə cavab verir: “Bundan sonrakı istikbalımızın parlaklığı, gələcək günlərimizin məsuliyyəti, ölkəmizin irəliləməsi bizim qucaqlarımızda böyüyən qiz uşaqlarıyla olacaqdır.”

Bu günkü fəlakət acıq söyləmək lazımdırsa biz qadınlara aitdir” deyə də fikrinə əlavə edirdi. (Əfəndizadə, 2016, s 109.)

Deməli, Bir Türk qadını harda yaşamasından asılı olmayaraq milli kimliyini unutmamalıdır. Böyütdüyü övladlarına ən çox da qız övladlarına gözəl təhsil, təlim tərbiyə verərək millətinin istiqbalına faydalı insan yetişdirməlidir. Əslində hekayədə qəhrəmanın dili ilə səslənən fikirlər Şəfiqə Əfəndizadənin öz şəxsi ideyası idi.

Şəfiqə xanım qızlarımızın,qadınlarımızın inkişafını o qədər vacib bir məsələ hesab edirdi ki, cəmiyyətin, dövlətin tərəqqisində qadın fəallığının üstünlüyünü dönə-dönə vurğulamaqdan yorulmurdu. Gələcəyin təməlinin qurulması bir qadının əllərində olduğunu yaxşı bilən Şəfiqə xanımın islahatçılıqda niyə bu qədər qadın faktoru üzərində dayandığını indi daha aydın görmək olur. Ailəni kiçik dövlət kimi hesab etsək bu dövlətin inkişaf mənbəyini, uğurunu təhsilli, mədəni, milli və dini kimliyində kamil olan bir qadında axtarmaq lazımdır. Övladına vətənpərvərliyi, insaniyyəti,mərhəməti bir sözlə bütün insani və bəşəri duyğuları ən ülvi hisləriylə təlqin etmək bir ananın ən ümdə vəzifəsidir. Bu günün qızları gələcəyin analarıdır, məhz bu səbəblə insan yetişdirmək kimi müqəddəs vəzifənin daşıyıcıları olan qızlarımızın təhsilli olması oğlanlarımızdan daha vacib sayılır.

Bir uşaq ilk tərbiyəsini anasının qucağında öyrənəcək, Vətən və millət hislərini yenə oradan alacaqdır. Analar aləmi elə bir aləmdir ki, ailə, millət, Vətən, cəmiyyət, mədəniyyət, insaniyyət, şəfqət, mərhəmət kimi müqəddəs şeylər məhz o aləmdədi, orada yaranır, böyüyür. Əgər qızlarımız mədəniyyətdən, kültürdən, məhrum qalmış olurlarsa, o millətin halı nə olur? Madəm bütün cəmiyyətin təməli, kökü qızlarımızdı, madəm ki, millətin hər bir vəziyyətində onlar məsuldurlar, təhsildə də oğullarımızdan çox qızlarımıza üstünlük verməliyik. (Əfəndizadə, 2016, 110)

**Nəticə**

Bəşəriyyətə şəfqət, mərhəmət və sülh simvolu olan bir qadın, cəmiyyətin inkişafı, dövlətin parlaq gələcəyinə töhvə verən anadır. Bu xüsusiyyətləri özündə birləşdirən, təhsilli, dünyagörüşlü, mütərəqqi ideyalı və islahatçı düşüncələriylə təhsil və düşüncə tariximizdə heç də kişilərdən geri qalmayan qeyrətli, həqiqi bir Türk qadını olan Şəfiqə xanımın bu yolda gördüyü işlər, çəkdiyi zəhmətlər danılmaz və çox qürurvericidir.

O, əsl Türk xanımına məxsus tərbiyə və fədakarlıqla, qəlbindəkii böyük millət sevgisiylə ən ağır tarixi şəraitdə millət və xalq üçün zərif çiyinlərində həqiqətən çox ağır bir yük daşımışdır. Onun qadın haqqında fikirlərinə görə "əgər bir qadın elm və irfandan nəsibsiz, məsuliyyətlərdən xəbərsiz, milli dəyərlərinə laqeyiddirsə, ona verilən vəzifələri haqqıyla etməyəcəyi dəqiqdir".

Təhsilli qadın övladının istiqbalına işıq saçan məşəl rolunu oynayır.Hər bir qadın övladının təlim və tərbiyəsində ilk müəllimdir. O, bəşəriyyətə insan bəxş etməli, insan formalaşdırmalıdır. Bütün bunların məsuliyyətini doğru anlayan Şəfiqə xanim Əfəndizadə həyatı boyu cəmiyyətin qadın problemi, qadın maariflənməsi uğrunda çalışmış,təqib və təhlükələrə baxmayaraq həyatının sonuna qədər qadın savadsızlığına və onun gətirdiyi fəsadlara qarşı mübarizə aparmışdır.

**ƏDƏBİYYAT**


1. Akçura Yusuf, Türkçülük: Türkçülüyün tarihi gelişimi, Türk Kültür yayını, İstanbul 1978
2. Azərbaycan qəzeti, 5-ci sayı, 26 Oktyabr 1917-ci il.
3. Dünyaminqızı Qərənfil, Ş. Əfəndizadə-I, Azərbaycan gəzeti 21 iyul -2011-ci il.
4. Əfəndizadə Şəfiqə, Qadın səsi, Qardaş köməyi Jurnalı, Bakı-2016
5. Məmmədli Qulam, Sizə kim lazımdır? Bibliografik məlumat, Bakı: Maarif, 1990.


**ЖЕНСКИЙ ФАКТОР В РЕФОРМАТОРСКОМ МЫШЛЕНИИ АЗЕРБАЙДЖАНА: ШАФИГА ХАНУМ ЭФЕНДИЗАДЕ**


**А.Х.КЕРИМОВА**


**РЕЗЮМЕ**


В истории просветительства Азербайджана были такие интеллигентные, образованные женщины, которые не оставались равнодушными к социально-политическим событиям в стране, боролись с невежеством и стремились просвещать свой народ и свою нацию ценой своей жизни. Начиная с первой половины XX столетия, они

возложили на свои хрупкие плечи тяжелый исторический груз развития просветительского движения, гордо записав свои имена на страницах нашей истории просвещения, сумев сдать один из тяжелейших экзаменов времени. Одной из них была первая учительница азербайджанского языка, первая женщина-журналистка, а также сотрудник республиканского парламента Шафига хан Эфендизаде. Шафига Эфендизаде хотела, чтобы азербайджанские женщины всегда были образованными, грамотными и просвещенными. Для этого сначала нужно было обучать женщин. На этом пути следовало учесть все этапы просветительской работы, осмыслить их. Именно эти реформы могли послужить просвещению женщин. Эфендизаде хорошо знала, что в обществе все недостатки, как в бытовых, так и в социальных вопросах, проистекают из невежества, неграмотности и отсталости. Это движущая сила развития женщин, которые являются ведущей социальной силой в развитии общества, играя важную роль в формировании каждого последующего поколения. Именно по этой причине улучшение положения женщин в науке, образовании и развитии, а также защита их прав и свобод стало жизненной необходимостью для этой просвещенной женщины. На этом пути Шафига ханум Эфендизаде имеет столько заслуг, сколько можно вместить в целую человеческую жизнь. Эта деятельность стала важной вехой в истории просвещения страны, в развитии прогресса.

**Ключевые слова:** Образование, интеллигент, женщина-реформатор, просветительница, Шафига Эфендизаде.

## THE FEMALE FACTOR IN THE REFORMIST THINKING OF AZERBAIJAN: SHAFIGA KHANUM EFENDIZADE

**A.Kh.KARIMOVA**

**SUMMARY**

In the history of Azerbaijan's enlightenment, there were such intelligent, educated women who did not remain indifferent to the socio-political events in the country, fought ignorance and sought to enlighten their people and their nation at the cost of their lives. Starting from the first half of the 20th century, they laid on their fragile shoulders a heavy historical burden of the development of the educational movement, proudly writing down their names on the pages of our history of education, having managed to pass one of the hardest examinations of the time. One of them was the first teacher of the Azerbaijani language, the first woman journalist, as well as Shafiga Khanum Efendizade, an employee of the republican parliament. Shafiga Efendizade wanted Azerbaijani women to always be educated, literate and enlightened. To do this, you first had to train women. On this path, it was necessary to take into account all the stages of educational work, to comprehend them. It was these reforms that could serve to educate women. Efendizade well knew that in society, all the flaws in both domestic and social issues stem from ignorance, illiteracy and backwardness. This is the driving force behind the development of women, who are the leading social force in the development of society, playing an important role in the formation of each subsequent generation. It is for this reason that improving the status of women in science, education and development, as well as protecting their rights and freedoms, has become a vital necessity for this enlightened woman. On this path, Shafiga khanum Efendizadeh has as many merits as can be accommodated in a whole human life. This activity has become an important milestone in the history of the country's enlightenment, in the development of progress.

**Keywords:** Education, intelligentsia, woman reformer, enlightened woman, Shafiga Efendizade.

## PSİXOLOGİYA

orcid.org/0000-0001-9771-1156

# YAŞLILIQ DÖVRÜNDƏ DİNİ İNANCLARIN HƏYAT KEYFİYYƏTİNƏ TƏSİRİ

**G.Ə.ƏLİYEVA**
***Bakı Dövlət Universiteti***
***gulshen.kovser@gmail.com***

*Din cəmiyyətin ən qədim institutlarından biridir və son 100 ildə psixoloqlar din amilinin insanların həyatına, yaşam tərzinə təsirini öyrənməyə başlamış, bu istiqamətdə tədqiqatlar aparılmışdır. Bir çox tədqiqatlarda müəyyən edilmişdir ki, dini amillərə bağlılığı olan yaşlı insanlar psixi və fiziki sağlamlıqlarından daha məmnundurlar (Koenig, McCullough, Larson, 2001). Məqalənin əsas məqsədi problemlə bağlı müasir ədəbiyyat nümunələrinin, aparılmış araşdırmaların ümumiləşdirilməsi, təhlil edilərək oxşar və fərqli məqamların müəyyən edilməsi və və həmin məqamlar üzərindən mümkün təkliflərin hazırlanması olmuşdur. Məqalə ilk növbədə deskriptiv xarakter daşıyır, belə ki, yaşlı insanların həyat keyfiyyəti amilinə din faktorunun necə təsir etməsi sualı ətrafında aparılmış tədqiqatlar, yazılmış məqalələrin mümkün bir qismi təhlil edilərək qeydlər toplanmışdır. Tədqiqatın ikinci mərhələsində isə cəzaçəkmə müəssisələrində cəza çəkən yaşlı məhkumların həyat keyfiyyəti probleminin öyrənilməsi istiqamətində din amilinin təsiri məqamları izlənilmişdir.*

*Ölkəmizdə bu istiqamətdə araşdırma nümunəsinə rast gəlinmədiyi üçün məqaləni bu istiqamətdə atılan ilk addımlardan biri hesab etmək olar və gələcəkdə yaşlı məhkumlar üzərində digər faktorlarla qarşılıqlı təsiri məsələlərinin araşdırılması nəzərdə tutulur.*

**Açar sözlər:** yaşlı insanlar, din amili, həyat keyfiyyəti, dua etmə, bağışlamaq, sosial dəstək.

**Tədqiqat metodu**: Məqalə həm deskriptiv (təsviri), həm də araşdırma xarakteri daşıyır. Belə ki, ilk növbədə mövzuya aid ədəbiyyat nümunələri, məqalələr və beynəlxalq nəşrlərdən əldə edilmişlər təhlil edilmiş, daha sonra isə "Həyat keyfiyyətinin ölçülməsi" - WHOQOL-BREF sorğusu tətbiq edilmişdir. "Həyat keyfiyyətinin ölçülməsi" - WHOQOL-BREF sorğusu 4 əsas struktur – fiziki sağlamlıq, psixoloji, sosial əlaqələr və ətraf mühit olmaqla, 26 bənddən ibarətdir. Tətbiq olunmuş vasitənin etibarlı və validliyi 23 ölkə vətəndaşları ilə sübut edilmişdir. 2 qrupun nəticələri t student, ikidən artıq qrupun nəticələri isə ANOVA ilə ölçülmüşdür (nəticələrin vacibliyi: $p<0,05$). Qeyd etmək lazımdır ki, sorğu nümunəsi əsasında ölkəmizdə ilk dəfə həyat keyfiy-

yətinin ölçülməsi istiqamətində ölçü vasitəsi hazırlanmışdır.
Tədqiqatın məhdud aspektləri:
- Mövzu ətrafında ölkəmizdə tətbiq edilən hansısa proqramın müəyyən edilməməsi;
- Yuxarıdakı səbəbdən irəli gələrək yalnız xarici təcrübənin təhlil edilməsi;
- Sorğu zamanı 85 yaşlı məhkumun iştirakı və yalnız 3 rejim üzərindən təhlillər aparılması;
- Dini inancların həyat keyfiyyətinə təsirinin yalnız şəxslərin gündəlik əhval ruhiyyə və depressiv simptomlar üzərindən fərqləndirilməsi.

**Ədəbiyyat nümunələrinin təhlili:** Dünyanın qabaqcıl tədqiqat mərkəzlərindən - ABŞ Kolumbiya Universiteti, Norveç İnstitutu, Viana İnstitutu, Avstriya Wittgenstein Mərkəzi əməkdaşlarının 2010-2050-ci illər üçün əhalinin yaşlı qruplarında din amilinin təsirinin öyrənilməsinə dair apardığı araşdırma 198 ölkə vətəndaşlarından toplanmış sorğu nəticələrinin təhlilini, müxtəlif ədəbiyyat nümunələrinin, məqalələrin müqayisəli təhlilini özündə əks etdirir (V.Skirbekk, M.Potanchokova, C.Hackett və M.Stonavski, 2016). BMT qeydlərinə əsasən demək olar ki, 2010-cu ildə yaşlı əhali bütün əhali kütləsinin 11%-ni təşkil edirdisə, 2050-ci ilədək bu faiz göstəricisi 22%-dək yüksəlməsi gözlənilir. Məhz bu tədqiqatda da yaşlı əhalinin gənc qruplarla müqayisədə daha çox dini inanclara bağlılığı, gənc əhalinin isə uzun müddətli təhsil alması, uzunömürlülük kimi məqamlardan irəli gələrək dini amillərdən uzaqlaşmasını müəyyən edilir. Müəlliflər əhalini 3 yaş kateqoriyasına əsasən (0-14, 15-59, 60-dan yuxarı) 5 din (islam, xristian, buddizm, iudaizm, hindu), həmçinin heç bir dinə mənsub olmayan şəxslər üzrə böldükdə 2050-ci ildə 60 yaşdan yuxarı əhalini kütləsinin daha 0-14 yaş qrupu ilə müqayisədə üstünlük təşkil edəcəyi xüsusi nəzərə çarpır. Həmin mənbənin tərcümə edilmiş təsviri aşağıda göstərilmişdir:

**Təsvir 1.** Dini mənsubiyyət üzrə yaş qruplarının paylanması, 2010. (Mənbə: V.Skirbekk, M.Potanchokova, C.Hackett və M.Stonavski, 2016)



**Təsvir 2**. Dini mənsubiyyət üzrə yaş qruplarının paylanması, 2050. (Mənbə: V.Skirbekk, M.Potanchokova, C.Hackett və M.Stonavski, 2016)




Hər iki təsvir üzərindən təhlil apardıqda məlum olur ki, hər bir dini mənsubiyyət üzrə yaşlı əhali kütləsində inkişaf qeydə alınır, 15-59, 0-14 yaş qruplarında isə azalma özünü göstərir. Eyni zamanda müəlliflər 60 yaşdan yuxarı əhalini də öz növbəsində 60-79 və 80 yaşdan yuxarı iki daxili qrupa böldükdə xüsusən ikinci qrupun daha inanclara bağlı olduğunu müəyyən etmişlər.

Regionlara əsasən təhlil apardıqda isə müəlliflər islam dininin Asiya, Sakit okean hövzəsi, Yaxın Şərq, Afrika ölkələri ilə yanaşı Avropada da; xristian dininin əsasən Avropa, Şimali Amerika, Latın Amerika, Afrika ölkələrində daha geniş yayılacağını, heç bir dini mənsubiyyətə malik olmayan insanların ən çox Avropa, Asiya, Sakit okena hövzəsi, Şimali Amerika, Latın Amerikası ölkələrində üstünlük təşkil edəcəyi proqnozu ilə çıxış etmişlər.

Din bir sıra ünsürlərdən ibarət kompleks fenomen olduğundan mürəkkəb xarakter daşıyır. ABŞ Fetzer İnstitutu 1999-cu ildən etibarən bu məsələ ilə bağlı araşdırmalar aparılması məqsədilə işçi qrup şəklində fəaliyyətə başlamışdır. Tədqiqatçılar din amilinin 12 ünsürünü müəyyən etmişdir. Daha sonrakı tədqiqatlarda isə həmin 12 ünsürdən 6-sının yaşlı insanların sağlamlığına olan təsiri öyrənilmişdir.

Həmin 6 məqam: ibadət yerlərində iştirak, dua etmək, dini uyğunlaşma, mübarizə (coping response), bağışlamaq, sosial dəstək, hadisələrə dini izah (meaning). Qeyd edilən məqamlar insanların həyatına, psixi və fiziki sağlamlığına təsirinin öyrənilməsi və bu məqamların öz arasında qarşılıqlı məntiqi əlaqənin aşkar edilməsi başlıca məqsədlərdən olmuşdur. Belə ki, bəzi tədqiqatlar bu faktorları ayrı-ayrılıqda təsirini öyrənməyə çalışsalar belə sonda bir daha qənaətə gəlinmişdir ki, həmin məqamlar bir-biri ilə sıx bağlıdır.

Tədqiqatçılar ibadət yerlərinə getmək, iştirak amilini tək bir faktor kimi qəbul etmir, belə ki, həmin yerlərdə iştirak sadəcə getməklə tamamlanmır, şəxs

orada dua edir, dini söhbətlərə, musiqilərə (ilahi, xor, kilsə musiqisi və s.) qulaq asır, rituallar və digər fəaliyyətlər icra edir. Belə olduqda hansı məqamın daha çox effektə malik olduğunu fərqləndirmək mürəkkəb xarakter daşıyır (Hummer və b., 1999). İbadət yerlərində (aparılmış tədqiqatlarda kilsə nümunəsi) iştirak edən şəxslərin daha çox dəstək alması və daha az psixoloji distress yaşaması müəyyən edilmişdir (Nooney və Woorum, 2002). Dini ibadət yerlərinə hansı tezliklə gedilməsi, iştirakçılıq gənc yaşlarında çox müşahidə edilirsə, yetkinlik yaşlarında getdikcə azalır və yaşlılıq dövründə yenidən yüksəlmə qeydə alınır (Bahr, 1970; Barna, 2002).

Bir başqa tədqiqatlar isə dua etmənin psixi sağlamlığa təsiri ilə bağlı araşdırmalara həsr edilmiş və müsbət təsirlərin aşkar edildiyi qənaətinə gəlinmişdir (Poloma və Gallup, 1991). Dua etmək stress faktoruna qarşı vacib mübarizə vasitəsi kimi də müəyyən edilmişdir (Pargament,1997).

Dua etməklə bağlı bir başqa tədqiqat bu fəaliyyət növünün başqalarına kömək etmək, Allahdan hansısa bir insan üçün yaxşılıq istəmək bir növ həmin şəxsə sosial dəstək xarakteri daşıyır. Müəlliflər bu fəaliyyət formasının yalnız köməyə ehtiyacı olan insan üçün deyil, həm də dua edən biri üçün də müsbət nəticələrini qeydə almışdır (Krause, 2003). Digər insana edilən köməyin və sosial dəstəyin hər iki tərəf üçün vacib məzmun daşıması digər tədqiqatlarda da öz əksini tapmışdır (Reissman, 1965). Eyni müəllifin bir sonrakı tədqiqatında isə dua etmənin şəxsin özünü qiymətləndirməsində də müsbət təsiri olduğunu aşkar etmişdir, belə ki, onlar hər bir hadisədə Allahın ən düzgün yolu, ən doğru cavabı bildiyini göstərir və hadisələri bilavasitə bu cavabla bağlayırlar (Krause, 2004).

Benson H. "İnancın qüvvəsi və biologiyası" adlı araşdırmasında (1996) dini ritualların, dua etmənin rahatladıcı effektini vurğulamış, eyni zamanda qan təziyiqinə, ürək döyüntülərə azaldıcı təsir göstərdiyi, bu fizioloji göstəricilərin isə eyni zamanda psixi sağlamlıqda assosiasiya yaratdığı qənaətinə gəlmişdir. Dini inancların potensial mexanizmə malik olduğu bir başqa tədqiqatda sosial izolyasiya, tənhalıq hallarının aradan qaldırılmasındakı rolu kimi müəyyən edilmişdir (Levin,2004). Yaşlı insanların gənclərdən daha çox dua etməsi halları bir başqa tədqiqatda da müəyyən edilmişdir (Gallup və Lindsay, 1999). Gənc yaş qrupların ilə müqayisədə yaşlılarda dua etmənin müsbət təsiri (dərin hisslər yaratması) ilə Peacock və Palmoanın tədqiqatlarında (1999) öz əksini tapmışdır.

Lakin həmin tədqiqat cross-sectional olduğundan, yaş, zaman və digər kohortlar üzrə fərqləndirmələr aparmaq mümkün olmamışdır. Yaşla bağlı fərqlər olduğu müşahidə edilsə də, lakin səbəbin aşkar edilməsi çətinlik yaradır. Schulz və Heckhausen (1996) həyata nəzarət nəzəriyyəsi bu problemin izahını insanların yaşlandıqca öz həyatlarına nəzarət imkanlarının azalması amili ilə bağlamışdırlar. Müəlliflər din amilinin digər bir funksiyasının çətinlikdə olan insanlara yardım etmək ilə izah etmiş və bu nöqteyi nəzərdən Pargament coping cavab reaksiyalarını (hansısa problemin öhdəsindən gəlmək,

mübarizə aparmaq) qeyd etmişdirlər. Bir sıra stress xarakterli hadisələrdə xüsusi koqnitiv və davranış cavab reaksiyalarının formalaşması həmin hadisə ilə mübarizədə vacib məqamdır.

Belə ki, bu hallarda şəxs kömək, güc və qüvvə üçün Allahdan yardım istəyir. Müəllif qeyd edirdi ki, müsbət coping cavab mexanizmlərinə malik olan insan stressli hadisələrdən, onların yaratdığı sağlamlıq problemlərindən daha az əziyyət çəkir. Bir sıra hallarda isə mənfi coping reaksiyaları formalaşmağa başlayır; şəxs yaşadığı ağır situasiyaları əvvəllər etdiyi hansısa səhv addımlara görə Allahın verdiyi cəza kimi qəbul edir. Müəllif bu problemin üzərində xüsusi araşdırma aparmağın labüdlüyünü vurğulayır, çünki bu məqamın da fiziki və psixi sağlamlıqda təsiri olduğu aşkar edilmişdir.

Digər bir sual isə coping –müdafiə mexanizmlərinin həyat boyu necə dəyişməsi ilə bağlı idi. Tədqiqatların birində yaşlılıq dövründə müsbət coping mexanizmlərinin gənclərlə müqayisədə daha çox qeydə alındığı müəyyən edilmişdir (Pargament, 1997). Dəyişilməsi mümkün olmayan və heç bir halda şəxsdən asılı olmayan yaxın birinin ölümü halları yaşlı insanlarda ən böyük stress halıdır. Belə vəziyyətlərdə Allaha sığınmaq, yaşananların səbəblərini onda axtarmaq yaşlı insanlara kömək edir (Gottlieb, 1997). Lakin müəlliflər bir daha araşdırmaların kifayət etmədiyini, müsbət və mənfi coping mexanizmlərinin daha detallı tədqiqini tövsiyyə etmişlər.

Tədqiqatlar göstərir ki, hər bir dində bağışlamaq məqamı xüsusi vurğulanır (McCullough, Pargament, Thoresen, Rye və b.2000). Burada başqalarının bağışlanması, özünün Allah tərəfindən bağışlanması, özünün öz daxilində bağışlanması kimi hallar fərqləndirilir. Bir çox tədqiqatlar digər insanların bağışlamaq üzərində durur, bu məqamın şəxsin psixi sağlamlığına olan təsirini təhlil etmişlər. İlk növbədə başqa insanları bağışlamağı bacaran birində digər insanlarla (hansılar ki, bağışlamağı bacarmır) müqayisədə daha müsbət təsir yaratdığını müəyyən edilmişdir (Thoresen, Harris, Luskin, 2000).

Müəlliflər bu 2 amil- bağışlamaq və fiziki sağlamlıq amili arasında əlaqənin aşkarlanması ilə də bağlı daha az sayda araşdırma aparıldığını və buna ehtiyac olduğunu göstərmişlər. Digər bir məqam isə, dinə bağlı olan insanların daha çox bağışlayan olmasını aşkar etmişlər (Bono və Mcullough, 2004). Krause və Ellison (2003) bağışlamaq prosesinin öz daxilində mürəkkəb məzmun daşımasını bildirmişlər. Qarşındakı insanı daha asan bağışlayan insanlar bu prosesi Allahın da bağışlayan olduğu fikri ilə əsaslandırmışlar. Lakin bağışladıqdan sonra problemi arxada qoyub yeni münasibətləri bərpa etmək öz növbəsində ayrıca bir çətinlikdir.

Müəlliflər şəxslərin hansısa bir davranışa, münasibətə və s. səbəblərə görə özünü bağışlaması probleminə də toxunmuşlar (Enright & Human development group, 1996). Şəxsin özünü bağışlamasını daha az depressiv simptomlarla əlaqələndirmiş və bunu bütün yaş dövrlərinə şamil etmişlər (Toussaint və b.2001). Digər araşdırmalar üzərindən ümumiləşdirmə aparıldıqda məlum olur ki, bağışlamaq şəxsin daha az qəzəb və nifrət hisslərini

yaşaması ilə bağlıdır, bu isə öz növbəsində daha az risklə ürək qan damar sistemi xəstəliklərinin yaşanması ehtimalına gətirib çıxarır. Eyni yanaşma ilə Worthington (2004) araşdırmalarında da rastlaşa bilərik, belə ki, bağışlamağı bacaran şəxslərdə daha az negativ emosiyalar yaşanır, bu isə öz növbəsində immun funksiyaların daha effektiv çalışmasına gətirib çıxarır.

Dini aspektdən bağışlamaq məqamları ilə şəxslərin yaş amili ilə hansısa bağlılıq olması fikri ətrafında araşdırmalar aparılmışdır. Lakin həmin tədqiqatların bir sıra çatışmazlıqları olsa belə ümumi nəticə olaraq, yaş artdıqca şəxsin bağışlamaq davranışının daha çox müəyyən edildiyi aşkar edilmişdir (Mullet və b.1997). Tədqiqatçılar yaşlı əhalidə məhz bu məqamları inkişaf etdirərək həyat keyfiyyətinə müsbət təsir edə bilməni vurğulamışlar (Hargrave və Anderson, 1992; Worthington,1993).

İbadət yerlərində insanların bir-birilərinə kömək etməsi, sosial dəstək göstərməsi də bir daha şəxslərin psixi sağlamlığında müsbət təsir olaraq göstərilmişdir (Krause, 2002; Cohen, 2004). Lakin yaşlılıq dövründə həmin təsirin araşdırılması daha az tədqiqatlarda öz əksini tapmışdır. Toplanmış nəticələri ümumiləşdirdikdə dini inancların yaşlılıq dövründəki şəxslərdə özünüqiymətləndirməyə, məmnunluq, optizmə səbəb olduğu; depressiyanın daha az səviyyəsi ilə bağlılığı özünü göstərir (Krause, 2004).

Dini amillərin müsbət təsirinin öyrənilməsi ilə yanaşı bir sıra müəlliflər də mənfi təsir məqamlarını müəyyən etmişlər (Krause, Ellison və Wulff, 1998). İbadət yerlərində baş verən bir sıra hadisələrin şəxslərdə depressiv əhval ruhiyyə yaratdığını, dini inanclarında şübhə yaşayan insanların asanlıqla distress yaşamasını müəyyən etmişlər. Digər bir boşluq isə yaşlı əhali qruplarında fərqli kohortlar üzrə dini inancların onların psixi və fiziki sağlamlığına təsir amilinin fərqləndirilməsi ilə bağlıdır. Müəlliflər bu problemin daha dərindən araşdırılmasını xüsusi vurğulayır. Bu istiqamətdə Meredith və Scheve (2002) tərəfindən aparılmış tədqiqat xüsusi maraq kəsb edir. Belə ki, müəlliflər II Dünya Müharibəsi dövründə yaşamış (1922-1927ci illərdə doğulmuş) yaşayan insanların əvvəlki və sonrakı kohortlardan daha çox dini amillərə bağlı olduqlarını fərqləndirmişlər. Bu şəkildə aparılan araşdırmalar yalnız yaş və din amili arasında əlaqəni deyil, həm də həmin dövrün müvafiq şəraiti ilə bağlı amillərin təsirini də özündə ehtiva edir. Digər bir fərqləndirmə cinslər üzrə din amilinin fərqləndirilməsi ilə aparılmış və müəəyən edilmişdir ki, yaşlı qadınlarda kişilərlə müqayisə dini amillərə bağlılıq daha çox qeydə alınır (Levin və b.1994).

Ədəbiyyat nümunələrinin təhlili zamanı digər bir sual isə din amilinin yaşlı insanların həyat keyfiyyətinə olan təsirinin müəyyən edilməsi ilə bağlıdır. Sosial tədqiqatçılar, psixoloqlar, sosioloqlar, filosof və ilahiyyatçıların bu sual ətrafında araşdırmalarına əsasən psixoloji rifah amilinə təsir edən 3 vacib məqam- sağlamlıq, maddi güvənlik və sosial dəstək fərqləndirilmişdir (Campbell, 1975; George, 1981; Larson, 1978). Başqa sözlə ifadə etdikdə, yaşlı insanların sağlamlıq problemlərinin olması, gəlirlərinin aşağı olması, getdikcə

azalan sosial dəstək hiss etmələri onların həyat keyfiyyətinə, psixoloji rifah halına təsir edir. Susan H.McFadden (Wisconsin Oshkosh Universiteti) din amilinin yaşlı insanların həyat keyfiyyətinə təsiri problemini öyrənərkən 3 səbəb göstərmişdir: yaşlı insanlar digər yaş kateqoriyaları ilə müqayisədə din amilinə daha bağlı olması, digər tədqiqatların da bir daha din amilinin onların psixi sağlamlığına müsbət təsir göstərməsi, və bir sıra negativ streotiplərin din institutları tərəfindən heç bir halda qəbul edilməməsi.

Məhz bu tədqiqatda da əvvəlki araşdırmalara istinad edərək yaşlı qadınların kişilərdən daha çox, həmçinin irqi fərqlərə əsasən Amerika əhalisinin qaradərili şəxslərin ağdərililərdən daha çox dini inanclara bağlı olması müəyyən edilmişdir (Levin, Taylor və Chatters, 1994). Tədqiqat nümunələri dini inanclarına bağlı yaşlıların öz rifah halını subyektiv qiymətləndirməsinin yüksək olduğu qənaətinə gəlmişlər (Moberg, 1990). Yaşlıların mütəmadi olaraq ibadət yerlərinə getməsi yaxın münasibətlərin qurulması, sosial dəstək alması, yalnızlıq hallarının aradan qaldırılmasına kömək edir. Koenig, Kvale və Ferrel (1988) tədqiqatlarında depressiya amili ilə dini inanclara bağlılıq faktoru arasında negativ korelyasiya olduğunu aşkar etmişlər.

Eyni vaxtda Georgia Centenarian Tədqiqat Mərkəzinin 60 yaşdan yuxarı 165 nəfərlə apardığı araşdırmada din amili ilə psixi sağlamlıq, həyatdan məmnunluq arasında heç bir vacib statistik əhəmiyyətə malik əlaqə tapılmadığını vurğulamışlar (Courtenay və b.1992). Digər bir uzunmüddətli tədqiqat, hansı ki 8 il müddətində toplanmış nəticələrə əsasən belə bir qənaətə gəlmişdir ki, şəxslərin həyatdan məmnunluq amili ilə din amili arasında əlaqə aşkar edilməmişdir (Markides, Levin və Ray, 1987). Koenig (1990) din amili ilə həyat keyfiyyəti arasında heç bir əlaqənin aşkar olunmaması əks fikri ilə bağlı bir çox tədqiqatların nəşr edilmədiyi fikrinə əsasən din amilinin yalnız müsbət təsir edə biləcəyi ilə bağlı ümumiləşmiş nəticəyə gəlinməsini qərəzli hesab etmişdir.

Digər bir tədqiqat Türkiyə Uludağ Universitetində aparılmışdır. Müəllif din amili ilə şəxslərin həyatdan məmnunluq səviyyəsi arasında əlaqənin aşkar edilməsi üçün 84 sualdan ibarət sorğu nümunəsi hazırlamış və Bursa vilayətində 495 nəfər şəxslərlə aparılmışdır (F.Balcı, 2011). İlk növbədə din amilinin şəxsin həyatdan məmnunluğuna, rifah halına müsbət təsir etdiyi fikrinin və uyğun olaraq bu təsirin fərqli demoqrafik göstəricilər üzrə dəyişdiyi sualının ətraflı tədqiqini qarşıya qoymuşdur. Həmin araşdırma bu nəticələrə yalnız bir vilayət əhalisi üzərindən gəlindiyini bir daha qeyd etmişdir. F.Balcı bu araşdırmasında əvvəlki müəlliflərin fikirlərinə bir daha istinad edərək dini inanclara bağlılığın insanların psixi və fiziki sağlamlığında müsbət təsirə malik olmasını, ayinlərin və ibadətlərin icra olunduğu yerlərdə birgə toplaşma məqamlarının isə öz növbəsində sosial dəstək, hansısa xəstəliklərdə birgə mübarizə kimi qiymətləndirmişdir.

Tədqiqatın eksperimental hissəsində çox maraqlı və vacib faktlar öz əksini tapmışdır, Allaha inanmaq (Pearson $r=0,453$; Sp.Corr=0,379; Sig.=$0,000<0,05$), taleh, qədər-qismət (Pearson $r=0,317$; Sp.Corr=0,192 Sig.=$0,000<0,05$), axirət

dünyası (Pearson r=0,123;Sp.Cor=0,12 Sig.=0,000<0,05), cənnət anlayışlarına inanmaq amili ilə həyatdan məmnunluq faktoru arasında statistik əhəmiyyətə malik müsbət korelyasiya aşkar edilmişdir.

Tədqiqatın ikinci mərhələsində 3 müxtəlif rejim üzrə cəzaçəkmə müəssisələrində cəza çəkən 85 nəfər yaşlı məhkum arasında həyat keyfiyyətinin ölçülməsi və onların dini inancları ilə hansısa bir əlaqənin, mümkün ola biləcək təsirin aşkar edilməsi qarşıya məqsəd qoyumuşdur.

Qeyd etmək lazımdır ki, şəxslərin həyat keyfiyyətinin ölçülməsi üçün WHOQOL-BREF sorğusu əsasında hazırlanmış sorğu nümunəsi tətbiq edilmiş, dini inaclarla bağlı isə psixodiaqnostik söhbət zamanı 3 punkt üzrə fərqləndirmə aparılmışdır: şəxsin dini inacları qorunub saxlanır, şəxsin dini inancları ilə bağlı heç bir fikri yoxdur, qeyri-müəyyən yanaşma qeydə alınır. Aşağıdakı təsvirdə şəxslərin say və faiz paylanması ilə tanış ola bilərik:

**Təsvir 3.** Şəxslərin say və faiz paylanması




Təsvirdə əks olunduğu kimi sorğuda iştirak etmiş yaşlı məhkumların 18 (21%)-ində dini inaclarla bağlı müsbət fikirlər qeydə alınır, həmin şəxslər mütəmadi şəkildə baş verən hadisələrin Allaha, öz talelərinin bir hissəsi olmasına, dua və ibadətlə bağlılıqlarını qeyd etmişlər; 24 (28%) nəfər şəxs isə dini inaclara, ibadət, dua və s.dini rituallarla bağlı heç bir fikrin, inancın olmadığını bildirmişlər. Lakin 43 (50%) nəfər iştirakçı, dəyişkən qeyri-müəyyən fikirlər bildirmiş, öz yanaşmalarında zamanla əmin olmadıqlarını vurğulamışlar. Lakin nəzərə almaq lazımdır ki, nəticələr yalnız 85 nəfər sorğu iştirakçılarına aid olduğundan bu faktın bütün yaşlı məhkumlara aid edilməsi doğru deyildir.

Tədqiqat zamanı "Həyat keyfiyyətinin ölçülməsi" sorğusunun gün ərzində əhval-ruhiyyəyə dair olan sualı ilə din amilinə münasibət faktı arasında təhlil aparıldıqda aşağıdakı rəqəmlər əldə edilmişdir. Belə ki, gün ərzində əhval ruhiyyələrini yaxşı qiymətləndirən şəxslər eyni zamanda dini inaclarla bağlı suala dini inacların qorunub saxlandığı və qeyri-müəyyən tipli cavablar vermişlər.

Təsvirdən də aydın göründüyü kimi gün ərzində əhval ruhiyyəsində dəyişiklər qeydə alınan yaşlı məhkumlarda isə əsasən dini inaclara dair fikirlərin olmaması və qeyri-müəyyən olduğu rastlanmışdır. Əhval ruhiyyəsi aşağı

olduğunu iddia edən şəxslər isə din amili, hansısa dua və ibadətlərlə bağlı heç bir fikrin olmadığını bildirmişlər (Pearson r=0,18, sig.=0,096). Əldə edilən statistik məlumatlar müqayisə edildikdə zəif müsbət korrelyasiya aşkar edilmişdir.

**Təsvir 4.** Əhval ruhiyyə və din amili arasında say paylanması




Sorğunun digər bir bəndi şəxsin gələcəyə dair fikirləri, yaxud hansısa planın olmasına aid edilmişdir. Hər iki yanaşma üzrə müqayisə aparıldıqda gələcəyə dair hansısa fikir və ya planları olmayan şəxslərin eyni zamanda da dini inanclarla bağlı qeyri-müəyyən fikirlərinin üstünlük təşkil etməsi qeydə alınır. Əldə edilən statistik məlumatlar müqayisə edildikdə müsbət korrelyasiya aşkar edilmişdir (Pearson r=0,299, sig.=0,005).

**Təsvir 5.** Yaşlı məhkumların gələcəyə dair fikirləri və dini inacları arasında göstəriciləri paylanması




Aparılmış tədqiqatın əvvəlki mərhələlərində depressiyanın ölçülməsi qısa screening vasitə tətbiq edilmiş və həmin nəticələrlə dini inanclara bağlılıq təhlil

edildikdə, dini amillərə bağlılıq ifadə edən şəxslərin depressiya göstəricisi 5,28±2,6; din faktoruna aid heç bir fikrinin olmadığı bildirmiş şəxslərdə 12,25±2,6; fikirlərinin və yanaşmasının dəyişkən olduğu müəyyən edilmiş şəxslərdə isə 9,86±4,2 təşkil etmişdir. Əldə edilən statistik məlumatlar müqayisə edildikdə zəif müsbət korrelyasiya aşkar edilmişdir (Pearson r=0,31, sig.=0,004).

**Nəticə və tövsiyələr:** Məqalənin xülasə hissəsində göstərildiyi kimi araşdırma deskriptiv xarakterli olub problemə dair aparılmış araşdırmaları, dərc edilmiş nəşrlərin incələnməsi, fərqli və ortaq məqamları ümumiləşdirmək, eyni zamanda gələcəkdə bu istiqamətdə aparılacaq digər emprik tədqiqatlar üçün zəmin yaratmaqdır. Beləliklə məqalə hazırlanarkən öyrənilən tədqiqat işlərinə istinadən müəyyən edilmişdir ki, din cəmiyyətin ən qədim institutlarından biri olaraq insanların həyatında özünəməxsus yerə malikdir. Dünyadan gələndən ölümünədək həyatda baş verənlərin səbəbini, xösbəxtlik amilini, proseslərin izahını axtaran biri üçün cavab qaynaqlarından ən mühidir.

- Yaşlılıq dövründə tədricən ömrünün sonuna yaxınlaşdığını hiss edən insan bu prosesləri qəbul etməsi, şəxsiyyətlərarası münasibətlərini idarə edə bilməsi onun dini bağlılığı ilə müəyyən bir qarşılıqlı təsirə malikdir. Aparılan araşdırmalara əsasən qeyd etmək olar ki, dini dünyagörüşünə bağlılığı olan insanlarda, baş verən proseslərin səbəbi və ən doğru cavab sahibinin Allah kimi göstərilməsi, taleyinin hələ o, doğulmamışdan əvvəl müəyyən edilməsi yanaşması yaşlı insanlara sakitləşdirici təsir göstərir;
- Şəxsiyyətlərarası münasibətlərdə baş verən konfliktlərin daha çox sülh yolu ilə həll etmək istəyi, qarşıdakını bağışlamaq mövqeyi dini nöqteyi nəzərdən daha doğru görür və bunun tətbiqi yaşlı insanlara öz müsbət təsirini göstərir;
- Eyni zamanda yaşlı insanların ibadət yerlərində toplanması, yalnız özü üçün deyil, həm də digərləri üçün dua etməsi, sosial dəstək rolunu oynayır. Dua etdiyi biri üçün hansısa xoşagələn hal baş verdikdə isə yaşlı insanın psixi sağlamlığına özünəməxsus məmnunluq qeydə alınır;
- Müəlliflər dini inanclara bağlılığı stresslə mübarizə vacib faktor kimi göstərmiş və rolunu xüsusi vurğulamışlar. Yalnız stresslə mübarizə aparmaq deyil, həm də həyata daha rahat uyğunlaşa bilməkdə köməkçi rolu müəyyən edilmişdir;
- Din amili, dua, ibadət etmə Coping mexanizmlərdən biri kimi də təhlil edilmişdir;
- Şükür, səbr, mərhəmət, sevgi kimi anlayışların hər bir dində mütəmadi vurğulanması öz növbəsində şəxslərin psixi və fiziki sağlamlığında müsbət təsir yaradır;
- Eyni zamanda bir qrup əks argumentə malik tədqiqatlarda həyat keyfiyyəti, rifah halı ilə din amili arasında yuxarıdakı müsbət məqamlarla yanaşı mənfi asılılıq müəyyən edilmişdir. Müəlliflər həmin məqamları xöşbəxtlik

anlayışının fərqli məzmun daşıması və bir sıra hallarda ibadət yerlərində yaşanan proseslərlə bağlayır, din amili vasitəsilə insanlardan istifadə, onların idarə edilməsi kimi müxtəlif situasiyaları səbəb göstərirlər;

- Müəlliflərin qeydlərinə istinadən din amilinin yaşlı insanların psixi sağlamlığına olan təsiri, coping mexanizmlərinin öyrənilməsi üçün tədqiqatın emprik aspektdə davam etdirilməsi, müxtəlif faktorlar, yaşam şərtləri nəzərə alınaraq tədqiqatın davam etdirilməsi tövsiyyə olunur.

**ƏDƏBİYYAT**


1. Barna, G. (2002). The state of the church –2002. Ventura, CA: Issachar Resources.
2. Baumeister, R. F. (1991). Meanings of life. New York: Guilford.
3. Benson, H. (1996). Timeless healing: The power and biology of belief. New York: Scribner
4. Bono, G., & McCullough, M. E. (2004). Religion, forgiveness, and adjustment in older adulthood. In K. W. Schaie, N. Krause, & A. Booth (Eds.), Religious influences on health and well-being in the elderly (pp. 163–186). New York: Springer.
5. Butler, R. N., & Lewis, M. I. (1982). Aging and mental health. St. Louis: Mosby. Carstensen, L. L. (1991). Selectivity theory: Social activity in life span context. Annual Review of Gerontology and Geriatrics, 11, 195–217.
6. Cohen, S. (2004). Social relationships and health. American Psychologist, 59, 676–684.
7. Fatma Balci, 2011, Psikolojik ve öznel iyi olma hali ile dini inanclar arasındakı ilişki üzerine bir inceleme, Uludağ Universiteti, Din Psikolojisi Bilim dalı, Türkiye, Bursa.
8. Fetzer Institute/National Institute on Aging Working Group (1999). Multidimensional measurement of religiousness/spirituality for use in health research. Kalamazoo, MI: Fetzer Institute.
9. Gallup, G., & Lindsay, D. M. (1999). Surveying the religious landscape: Trends in U.S. beliefs. Harrisburg, PA: Morehouse.
10. Girard, M., & Mullet, E. (1997). Forgiveness in adolescents, young, middle-aged, and older adults. Journal of Adult Development, 4, 209–220.
10. Koenig, H. G., McCullough, M. E., & Larson, D. B. (2001). Handbook of religion and health. New York: Oxford University Press.
11. Krause, N. (2002a). Exploring race differences in a comprehensive battery of church based social support measures. Review of Religious Research, 44, 126–149.
12. Krause, N. (2004b). Religion and mental health. In R. Hummer & C. G. Ellison (Eds.), Religion, family, and health. Oxford University Press.
13. Kuan-Yuan Wang, Kyle Kercher, Jui-Yen Huang & Karl Kosloski Aging and Religious Participation in Late Life Journal of Religion and Health ISSN 0022-4197,J Relig Health DOI 10.1007/s10943-013-9741-y
14. McCullough, M. E., Bellah, C. G., Kilpatrick, S. D., & Johnson, J. L. (2001). Vengefulness: Relationships with forgiveness, rumination, well-being, and the Big Five. Personality and Social Psychology Bulletin, 27,610–610.
15. Neal Krause,2006, Handbook of the Psychology of Aging, Chapter 22 “Religion and health in later life”. Academic Press
16. Susan H Mcfadden Religion and Well‐Being in Aging Persons in an Aging Society Article in Journal of Social Issues · April 2010 DOI: 10.1111/j.1540-4560.1995.tb01329.x
17. Vegard Skirbekk, Michaela Potančokovб, Conrad Hackett, and Marcin Stonawski, 2016, Religious Affiliation Among Older Age Groups Worldwide: Estimates for 2010 and Projections Until 2050, Journals of Gerontology: Social Sciences cite, 2018, Vol. 73, No. 8, 1439–1445 doi:10.1093/geronb/gbw144
18. Worthington, E. L. (2004). Commentary: Unforgiveness, forgiveness, religion and health

during aging In K. W. Schaie, N. Krause, & A. Booth (Eds.), Religious influences on health and well-being among the elderly (pp. 187–201). New York: Springer

## ВЛИЯНИЕ РЕЛИГИИ НА КАЧЕСТВО ЖИЗНИ В ПОЖИЛОМ ВОЗРАСТЕ

**Г.А.АЛИЕВА**

### РЕЗЮМЕ

Религия - один из старейших институтов общества, и психологи изучают религию более 100 лет и исследуют ее влияние на жизнь людей (Джеймс, 1997). Некоторые исследователи отметили, что люди, исповедующие религию, получают больше удовольствия от жизни, физического и психического здоровья, чем нерелигиозные пожилые люди (Koenig, McCullough, Larson, 2001). Данные, подтверждающие религиозную принадлежность по возрасту во всем мире, отсутствуют (Vegard S., Michaela P. et al., 2016). Настоящая статья носит описательный характер и представляет различные точки зрения, подходы, а также обобщает образцы современной литературы по проблеме и выявляет сходства и различия путем анализа и подготовки возможных предложений по этим вопросам. Это исследование является первым шагом, оценивающим религиозный аспект старшей возрастной группы, и в будущем его планируется продолжить на более старших заключенных, отбывающих наказание.

**Ключевые слова**: пожилые люди, религиозный аспект, качество жизни, молитва, извинения, социальная поддержка.

## THE IMPACT OF RELIGION ON QUALITY OF LIFE IN LATE LIFE

**G.A.ALIYEVA**

### SUMMARY

Religion is one of the oldest institutions of the society, and psychologists have been studying religion for over 100 years, and investigate its influence to people’s lives (James, 1997). Some of the researchers mentioned that people who are involved in religion they enjoy better their lives, physical and mental health than older adults who are not religious (Koenig, McCullough, Larson, 2001). There has been a lack of data documenting religious affiliation by age around the world (Vegard S., Michaela P.et al.2016). The current article is descriptive in nature, and presents different point of view, approaches, also summarize the samples of modern literature on the problem, and identify similarities and differences by analyzing and to prepare possible proposals on these points. This research is the first step that estimates religious aspect of older age group, and in the future it is planned to continue on older prisoners serving facilities.

**Keywords:** older people, religious aspect, quality of life, praying, apologizing, social support.

BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№2 Sosial-siyasi elmlər seriyası 2020*

## PEDAQOGİKA

**UOT 37, 02; 371**
**https://orcid.org/0000-0001-8973-1763**
**https://orcid.org/0000-0003-2469-6666**

# TƏHSİLDƏ YOXLAMA VƏ QİYMƏTLƏNDİRMƏ SİSTEMİNİN MÜASİR PARADİQMALARI

**M.A.İSMİXANOV, N.B.İMAMVERDİYEVA**
***Bakı Dövlət Univesiteti***
***m.ismixanov@mail.ru, naza-52@mail.ru***

*Məqalədə ənənəvi və müasir qiymətləndirmənin müqayisəsi əsasında ənənəvi qiymətləndirmənin nöqsanları, onların səbəbləri və doğurduğu fəsadlar, eləcə də yeni qiymətləndirmənin xüsusiyyətləri, üstünlükləri, müasir yanaşmaları - paradiqmaları təhlil edilmişdir.*

*Müasir yoxlama və qiymətləndirmə sistemində innovativ yanaşmalar çox müxtəlif sahələri əhatə edir. Bu, yeni qiymətləndirmə sisteminin, ilk növbədə, dövlətin təhsil siyasətinə, təhsilin keyfiyyətinin yüksəldilməsinə yönələn yeni metodologiyaya, konsepsiyaya, humanist qiymətləndirmə prinsiplərinə (ədalətlilik, obyektivlik, xeyirxahlıq, şəffaflıq, elmilik, sistemlilik və s.) əsaslanmasında ifadə olunur. Yeni metodologiya və prinsiplər, öz növbəsində, yoxlama və qiymətləndirmə sistemini bütövlükdə yeni əsasda qurmağı, təhsilin keyfiyyətini yüksəltməyə yönələn obyektiv və etibarlı qiymətləndirmə mexanizmini yaratmağı, əsaslı dəyişikliklər aparmağı tələb edir.*

*Ənənəvi yoxlama və qiymətləndirmə üçün xarakterik olan mexanizmlər (yaddaşa - hafizəyə yönəlişlik, passivlik, yoruculuq, kəmiyyətə aludəçilik, subyektivlik, ədalətsizlik, sistemsizlik və s.) indi öz yerini yeni yanaşmalara verir. Keyfiyyətə, məntiqi təfəkkürə, fəallıq və müstəqilliyə, inteqrativ biliklərə, praktik məsələ və problemlərin həllinə, innovativ ölçmə vasitələrinə, diferensiv qiymət göstəricilərinə, müntəzəm yoxlama və qiymətləndirməyə, stimullaşdırıcı vasitələrə və s. əsaslanan müasir qiymətləndirmə mexanizmi bu sahədə yeni yanaşmalar kimi bütövlükdə təhsilin səmərə və keyfiyyətini yüksəltmək baxımından mühüm əhəmiyyət kəsb edir.*

**Açar sözlər:** qiymət, qiymətləndirmə, yoxlama, monitorinq, yeni qiymətləndirmə sistemi, innovativ vasitələr, paradiqma.

Müasir təhsil konsepsiyasının mühüm istiqamətlərdən biri təhsil sistemində yoxlama və qiymətləndirmə prosesini yeni paradiqmalar əsasında qurmaqdan ibarətdir. Hazırda ölkəmizdə təhsil, o cümlədən ali təhsil özünün yeni inkişaf dövrünü yaşayır. Təhsil Qanununda [9], eləcə də, təhsil sahəsində dövlət tərəfindən qəbul edilən çoxsaylı sənədlərdə təhsilin inkişafının digər aktual sahələri ilə yanaşı onun keyfiyyətinin yüksəldilməsi, səmərəli idarə olunması, monitorinq-qiymətləndirmə sisteminin tətbiqi, yeni qiymətləndirmə vasitələri və mexanizminin həyata keçirilməsi kimi məsələlərə böyük əhəmiyyət verilir.

"Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda təhsil sisteminin bütün pillə və səviyyələrini əhatə edən yeni qiymətləndirmə vasitə və texnologiyalarının hazırlanması təhsilin inkişafının mühüm strateji hədəfi kimi müəyyən olunmuşdur. Orada göstərildiyi kimi, təhsilin yüksək keyfiyyətini təmin etmək üçün təhsil sahəsində monitorinq, keyfiyyət və fəaliyyət göstəriciləri sistemi inkişaf etdirilməlidir. [1]

Qiymətləndirmə təhsil prosesini daim müşayiət etmiş, onun ayrılmaz tərkib hissəsinə çevrilmişdir. Tarix boyu qiymət və qiymətləndirməyə olan baxışlar da dəyişmişdir. Bu gün də qiymətləndirmə, onun şərtləri, göstəriciləri, meyarları ilə bağlı müxtəlif yanaşmalar mövcuddur. Qiymət və qiymətləndirmə bir halda kəmiyyət göstəricisi kimi, yəni, bilik və bacarıqların hansı həcmdə - tam və ya qismən mənimsənilməsi, ikinci halda keyfiyyət göstəricisi kimi, yəni necə mənimsənilməsi, onları əsaslandırmaq, yeni hallara yaradıcı tətbiq etmək imkanları kimi başa düşülür. Üçüncü halda isə hər iki yanaşma vəhdətdə götürülür.

İlk iki yanaşma birtərəfli olub, qiymətin dolğunluğunu, obyektivliyini təmin etməyə imkan vermir, belə yanaşma təhsilalanları da öyrənmə prosesinə birtərəfli istiqamətləndirir - ya hafizəyə (bəzən əzbərçiliyə), ya da təfəkkürə yönəlir. Bu da, öz növbəsində, təhsilin keyfiyyətinə, inkişafetdirici, yaradıcı xarakterinə mənfi təsir göstərir. Keyfiyyətli təhsil isə hafizə və təfəkkürün, ağlın, nəzəri və praktik fəaliyyətin vəhdətinə əsaslanır. Çünki bilik yalnız o zaman bilikdir ki, o, hafizə və təfəkkürün, zehni qabiliyyətlərin vəhdəti ilə mənimsənilmiş olsun. Bu sahədə qiymətləndirmənin də rolu böyükdür. Çünki tələbə (şagird), adətən, müəllimin sorğu və qiymətləndirmə metodikasına görə dərslərə, məşğələlərə hazırlaşır, öyrənmə və fəaliyyət taktikasını müəyyənləşdirir.

Qiymət və qiymətləndirmə bəzi pedaqoji mənbələrdə (xüsusən rus dilində nəşr olunmuş "Pedaqogika" kitablarında) eyniləşdirilir, sinonim sözlər kimi işlədilir: "otsenka", "otmetka" (V.Titov, L.Krıvşenko və b.). Əslində bu anlayışlar mənaca yaxın olsa da, funksional baxımdan eyni (identiv) deyildir. "Otsenka" sözünü "otsenivaniye" (qiymətləndirmə) kimi işlətmək daha münasib olardı; terminlərdəki dolaşıqlığı aradan qaldırmaq imkanı yaranardı.

Qiymət və qiymətləndirmə ilə yanaşı digər anlayışların da (nəzarət, yoxlama, diaqnostika, monitorinq və s.) şərhində vahidlik yoxdur: çox zaman bu anlayışlar qarışdırılır, müxtəlif mənalarda işlədilir. Anlayışları diferensasiya etmək, onların əlaqə və asılılıqlarını, hər birinin təlim prosesində yerini və rolunu düzgün müəyyənləşdirmək həm nəzəri, həm də praktik əhəmiyyət kəsb edir.

Qiymətləndirmə dedikdə, hər hansı bir şeyi, obyekti, prosesi onun keyfiyyəti, səviyyəsi baxımından dəyərləndirmək, ölçmək başa düşülür. Digər sahələrdə olduğu kimi, təlimdə də belədir: qiymətləndirilən sahə, məsələn, tələbənin bilik və bacarıqları müvafiq göstəricilər, meyarlar əsasında ölçülərək əldə olunan nəticələr, onların keyfiyyəti, müvəffəqiyyət səviyyəsi dəyərləndirilir. Qiymətləndirilən sahələr (məsələn, ayrı-ayrı fənlərin xüsusiyyətləri, təlimin səmərəliliyi, tələbələrin zehni inkişafı, müstəqilliyi və yaradıcı fəallığı və s.) mahiyyət və xarakter baxımından müxtəlif, spesifik xüsusiyyətlərə malik olduğu

üçün onları eyni meyarlarla ölçmək və qiymətləndirmək olmaz; hər bir halda qiymətləndirməyə diferensiv yanaşmaq lazım gəlir. Təhsilin keyfiyyətinin müəyyənləşdirilməsində əsas göstərici tələbənin (şagirdin) təlim nəticələri olduğundan həmin nəticələrin düzgün meyarlar əsasında obyektiv yoxlanılması və qiymətləndirilməsi də keyfiyyəti üzə çıxaran ən etibarlı mənbə hesab olunur. Təhsilin keyfiyyəti isə onun mövcud normalara, standartlara, göstəricilərə uyğunluğunda ifadə olunur. Təhsildə nəzarət və qiymətləndirmə mexanizmi məhz "keyfiyyət modeli" üzərində qurulmalı, onun yüksəldilməsinə xidmət etməlidir.

"Qiymətləndirmə" "qiymət" anlayışı ilə eyni deyildir [7; 285]; o, həm əldə olunan nəticəni, həm də qiymətin formalaşdırılması prosesini əks etdirir: tələbənin bilik və bacarıqlarını yoxlayıb onların keyfiyyətini, müvafiq normalara uyğunluq səviyyəsini müəyyən edir, veriləcək qiyməti formalaşdırır, şifahi formada verildikdə onu tələbəyə elan edib əsaslandırır və s. Deməli, qiymət qiymətləndirmənin yekun mərhələsidir; qiymətləndirilən göstəricilərin ümumiləşdirilmiş nəticəsi kimi konkret rəqəm, bal, simvollar vasitəsilə ifadəsidir.

Qiymətləndirməyə ənənəvi və müasir baxışlar, yanaşmalar kəskin şəkildə fərqlənir. Müasir qiymətləndirmə yeni paradiqmalara - yaddaşa, hafizəyə əsaslanan statik qiymətləndirmədən ağlın, təfəkkürün inkişafına, tələbələrdə müstəqil düşünmək, nəticələr çıxarmaq, bilik və bacarıqları müxtəlif hallara, problemlərin həllinə tətbiq etməyə yönələn və təhsil keyfiyyətinin dinamikasını müəyyənləşdirən qiymətləndirmə sisteminə keçidi nəzərdə tutur. Yeni qiymətləndirmə sistemi özünün mahiyyəti, məqsədi, funksiyaları, innovativ xarakteri, yeni ölçmə vasitələri, meyarları və s. cəhətdən böyük üstünlüklərə malikdir.

Yeni qiymətləndirmə sisteminə keçidin vacibliyi, ilk əvvəl, ənənəvi qiymətləndirmə funksiyalarının məhdudluğu ilə bağlıdır. Ənənəvi qiymətləndirmə, bir qayda olaraq, yoxlama funksiyası daşıyırdı: tələbə (şagird) verilən tapşırığı yerinə yetiribmi, hansı həcmdə yerinə yetirib? və s. Müəllim, əsasən, hazırlığın kəmiyyət tərəfinə daha çox fikir verir, bilik və bacarıqların keyfiyyət tərəfinə, yəni, materialın nə dərəcədə şüurlu dərk olunmasına, nəzəri biliklərin yaradıcı tətbiqinə o qədər də diqqət yetirmirdi [2; 3]. Qiymətin öyrədici və stimullaşdırıcı funksiyalarından kifayət qədər istifadə edilmirdi. Tələbə (şagird) bir çox halda bilik və zehni inkişaf naminə yox, qiymət xatirinə oxuyurdu; yüksək qiymət almaq bəzilərinin əsas məqsədinə çevrilmişdi. Əslində isə qiymət məqsəd yox, vasitə rolunda çıxış etməlidir; təhsilalanları möhkəm biliklərə, həyatı bacarıqlara, yaradıcı axtarışlara sövq etmək vasitəsi olmalıdır. Hələ vaxtilə elmi pedaqogikanın banisi, böyük çex pedaqoqu və mütəfəkkiri Y.A.Komenski (XVII əsr) təlimdə yoxlama və qiymətləndirmənin öyrədici funksiyasına xüsusi diqqət yetirmişdir. Onun fikrincə, yoxlama və qiymətləndirmə təkcə bilik və bacarıqları, mövcud səhvləri aşkara çıxarmaqla kifayətlənməməli, təhsilalanların diqqətini səhvləri doğuran səbəbləri tapmağa və onları düzəltməyə yönəltməli, bu məqsədlə stimullaşdırıcı təmrin, yarış və oyunlara geniş yer verilməlidir. Tələbələri (şagirdləri) təlimdə özünüyoxlamaya, özünüqiymətləndirməyə cəlb etmək də bu baxımdan böyük əhəmiyyətə

malikdir [4; 170].

Müasir təlimdə yoxlama və qiymətləndirmə funksiyaları genişlənir: ənənəvi funksiyalarla (nəzarət, yoxlama, tərbiyə) yanaşı, təhsilin keyfiyyətinin yüksəldilməsi və tədris prosesinin səmərəli idarə edilməsi funksiyasını da yerinə yetirir. Yeni yoxlama və qiymətləndirmə sistemi bir çox kompleks funksiyaları həyata keçirir. Onların başlıcaları aşağıdakılardan ibarətdir:

- təhsilalanların təlim nəticələrini, bilik və bacarıqların mənimsənilməsi dərəcəsi və səviyyəsini düzgün aşkara çıxarmaq (nəzarət və yoxlama funksiyası);
- mənimsəmə prosesindəki səhvləri, çətinlikləri, onların səbəblərini müəyyənləşdirmək (diaqnostik funksiya);
- təhsil nəticələrini, bilik və bacarıqların keyfiyyətini düzgün, obyektiv dəyərləndirmək (ölçmə, qiymətləndirmə funksiyası);
- təlim nəticələrində, bilik və bacarıqlarda mövcud kəsirlərin aradan qaldırılması istiqamətində lazımi əməli işlərin, profilaktik tədbirlərin görülməsi (korreksiya funksiyası);
- bilik və bacarıqlarda yol verilən səhvlərin səbəbləri, onların təhlili, müvafiq nəticələrin çıxarılması, səhvlərin islahı istiqamətində sistemli iş aparmaq və bu məqsədlə müxtəlif təmrin, yarış və oyunların, disput və diskussiyaların keçirilməsi (öyrədici funksiya);
- təhsilalanların zehni inkişafı, müstəqillik və yaradıcı fəaliyyətinin formalaşdırılması, nəzəri biliklərin zehni və həyati məsələlərin, problemlərin həllinə yönəldilməsi, təlimə, fənnə və peşəyə marağın, motivasiyanın yaradılması (inkişafetdirici və stimullaşdırıcı funksiya);
- təlim keyfiyyətinin, fənnin və elm sahəsinin mənimsənilməsinin səmərəliliyini yüksəltmək, tədris prosesini təkmilləşdirmək istiqamətində zəruri tədbirlər planlaşdırıb həyata keçirmək (proqnozlaşdırma funksiyası);
- təhsilalanları fəallaşdırmaq, onlarda özünəinam, təlimə səy, borc və məsuliyyət hissləri, iradəlilik, dözümlülük aşılamaq, faydalı vərdişlər, düzgün ünsiyyət mədəniyyəti, humanist və xeyirxah münasibət və s. kimi müsbət keyfiyyətlər formalaşdırmaq (tərbiyə funksiyası).

Göründüyü kimi, müasir yoxlama - qiymətləndirmə sistemi təlim prosesində müxtəlif funksiyaları reallaşdırır, daha böyük əhəmiyyət kəsb edir; öz xarakterini dəyişərək ənənəvi funksiyalarla bütövlükdə təlim prosesinin keyfiyyətinin idarə edilməsi funksiyalarını vəhdətdə həyata keçirməyə imkan verir. O, monitorinqin başlıca tərkib hissəsi kimi təlim prosesi və onun nəticələrinin üzə çıxarılması, təhsil keyfiyyətinin yüksəldilməsi və inkişaf dinamikasının müəyyən edilməsində mühüm vasitə rolunu oynayır [3; 299]. Monitorinqin səmərəliliyi - zəruri məlumatların toplanması, təhlili, lazımi profilaktik, operativ və korreksiya tədbirlərinin həyata keçirilməsi obyektiv və müntəzəm aparılan yoxlama və qiymətləndirmədən, onun nəticələrinin düzgün nəzərə alınmasından çox asılıdır.

Təhsilin keyfiyyətinin yüksəldilməsi istiqamətində keçirilən monitorinq və qiymətləndirmə müxtəlif istiqamətləri əhatə edir:

• tələbə səviyyəsində - mənimsəmənin və zehni inkişaf dinamikasının yüksəldilməsi;

• müəllim səviyyəsində - peşəkarlığın inkişafı, innovativ metodların və yeni texnologiyaların tətbiqi, nəzəri hazırlığın yüksəldilməsi;

• kafedra, fakültə və müəssisə rəhbərliyi səviyyəsində - idarəetmə metodlarının təkmilləşdirilməsi, tələbə və müəllim fəaliyyətinin stimullaşdırılması, tədris-maddi bazanın möhkəmləndirilməsi, təlim üçün əlverişli şəraitin yaradılması və s.

Nəzərdən keçirilən istiqamətlər üzrə səciyyəvi göstəriciləri, meyarları müəyyənləşdirmək, bu əsasda inkişaf dinamikasını, irəliləyişin və ya gerilələmənin xarakterini, səbəblərini təhlil edib dəyərləndirmək, korreksiya və proqnozlaşdırma tədbirlərini işləyib həyata keçirmək vacibdir.

Yoxlama və qiymətləndirmənin monitorinq-idarəetmədə rolunun artırılmasının mühüm şərtlərindən biri onun mexanizminin təkmilləşdirilməsi ilə bağlıdır. Bunun üçün ənənəvi qiymətləndirmə mexanizmində kök salmış problem və nöqsanlardan xilas olmaq, yeni, innovativ mexanizmlərə keçmək vacibdir. Ənənəvi yoxlama və qiymətləndirmə üçün nisbətən xarakterik problem və nöqsanlar sırasında aşağıdakıları göstərmək olar: qiymətləndirmədə obyektivliyin pozulması, subyektivliyə yol verilməsi; yoxlama və qiymətləndirmənin dəqiq meyarlara, normalara əsaslanmaması; qiymətləndirmədə, bir qayda olaraq, kəmiyyət göstəricilərinə üstünlük verilməsi, keyfiyyətin lazımınca nəzərə alınmaması; qiymətləndirmə və onun vasitə və metodlarına vahid mövqedən yanaşılmaması; qiymətləndirmə ilə bağlı təhsilverənlərin (xüsusən gənc müəllimlərin) bu sahədə pedaqoji-metodik səviyyəsinin aşağı olması; qiymətləndirmədə bəzən sui-istifadə hallarına yol verilməsi; təhsil müəssisələrində bir çox halda yoxlama və qiymətləndirmə nəticələrinin müntəzəm təhlili və monitorinqinin aparılmaması və s.

Qiymətləndirmə mexanizmində yol verilmiş nöqsanlar təhsilalanların təlim müvəffəqiyyətinə, səyinə, fənnə və müəllimə münasibətinə, psixi halına təsirsiz qalmamışdır. Ənənəvi təhsil təcrübəsində yoxlama və qiymətləndirmə ilə bağlı özünü göstərən nöqsan və çatışmazlıqların aradan qaldırılması hazırda ölkəmizdə həyata keçirilən təhsil islahatının mühüm bir sahəsini təşkil edir [6; 10]. Müasir dövrdə yeni yoxlama - qiymətləndirmə sistemi cəmiyyətin ehtiyac və tələbatlarını nəzərə almaqla təhsilin keyfiyyətini yüksəltməyə, obyektiv və etibarlı qiymətləndirmə mexanizminin yaradılmasına, qiymətləndirmədə yeni yanaşmaların meydana gəlməsinə xidmət edir. Hazırda təhsilalanların təlim nəticələrinin qiymətləndirilməsi ilə bağlı başlıca innovativ yanaşmalar sırasında aşağıdakıları göstərmək olar:

- yoxlama və qiymətləndirmə təhsilalanların bilik və bacarıqlarının kəmiyyət göstəriciləri ilə yanaşı və daha çox keyfiyyət göstəricilərinin üzə çıxarılması və dəyərləndirilməsinə yönəldilir. Bütövlükdə təhsil sistemində, o cümlədən monitorinq və qiymətləndirmədə təlimin keyfiyyət təminatı başlıca strateji prioritetə çevrilir;

- hazırda elmi-texniki tərəqqi, innovasiyalar və modernləşmə, bazar iqtisadiyyatı şəraitində praktik bilik və vərdişlərlə zənginləşməyən, sırf nəzəri xarakter daşıyan təhsil öz fundamental əhəmiyyətini getdikcə itirdiyindən təhsildə, o cümlədən monitorinq-qiymətləndirmə sistemində akademik biliklərlə yanaşı, praktik bacarıq və vərdişlərin, səriştələrin inkişafına qayğı ön plana keçir [1]. Bu isə gələcəkdə təhsilin sosial-iqtisadi inkişafa təsiri, gənc nəslin əmək bazarına daha yaxşı hazırlanması baxımından çox əhəmiyyətlidir;

- yoxlama və qiymətləndirmə zamanı qoyulan suallar üzrə passiv cavablara əsaslanan ənənəvi sorğu və yoxlamalardan təhsilalanların zehni işinə, müstəqilliyinə, məntiqi, tənqidi və yaradıcı təfəkkürünə əsaslanan fəal yoxlama və qiymətləndirməyə keçilir;

- müasir qiymətləndirmə sistemində təhsilalanların "bilik" və "bacarıqları" ilə bağlı anlayışlar da dəyişikliyə uğramışdır: ənənəvi yoxlama və qiymətləndirmədə prioritet təşkil edən faktoloji biliklər və alqoritmik bacarıqlar öz yerini yaxşı dərk edilmiş və ümumiləşdirilmiş biliklərə və onların qeyri-standart hallara, zehni və praktik məsələ və problemlərin həllinə tətbiqini nəzərdə tutan bacarıq və səriştələrin formalaşdırılmasına verməkdədir;

- yoxlama və qiymətləndirmə sisteminin müasir paradiqmalarından biri inteqrativ yanaşma ilə bağlıdır: bir-birindən təcrid olunmuş bilik və bacarıqların sorğusu və dəyərləndirilməsi inteqrasiyalı, biliklərarası, fənlərarası əlaqələrə əsaslanan yoxlama və qiymətləndirmə ilə əvəz olunur. Təhsilin keyfiyyətinin qiymətləndirilməsi üzrə Beynəlxalq monitorinq (PİSA) məhz bu mexanizmə əsaslanır: monitorinqin proqramında ayrı-ayrı bilik sahələrinin inteqrasiyalı tətbiqinə əsaslanan fənlərarası problemlərin həlli təklif olunur, yoxlanılanların bilik və bacarıqları ilə yanaşı informasiyalarla işləmək səriştələri də qiymətləndirilir;

- müasir yoxlama və qiymətləndirmə təlim prosesinin idarə edilməsinin digər ünsürləri ilə - diaqnostika və korreksiya ilə vəhdət təşkil edir: aparılan dəqiq diaqnostika sayəsində qiymətləndirmənin düzgünlüyü və obyektivliyi təmin olunur; bu da öz növbəsində, ayrı-ayrı tələbə və ya şagirdlərlə aparılacaq fərdi korreksiya işlərini müəyyənləşdirib həyata keçirməyə imkan verir;

- obyektivliyə, xeyirxahlığa və humanizmə əsaslanan yoxlama və qiymətləndirmə təhsilalanları daha yaxşı oxumağa, öz güclərinə inanmağa, gələcək peşə-ixtisas sahəsinə yüksək səy, məsuliyyət və motivasiya ilə yanaşmağa sövq edir, keyfiyyətli təhsilə stimullaşdırır;

- müntəzəm keçirilməyən ənənəvi qiymətləndirmə sistemli yoxlama və qiymətləndirmə ilə əvəz olunur; 100 bal sistemində tələbə il boyu müntəzəm çalışmalı olur, hər bir sahə üzrə müəyyən edilmiş balları toplamaq məcburiyyətində qalır; minimum semestr balını toplamayan imtahana buraxılmır, imtahanda minimum keçid balını toplamayan tələbənin fənn üzrə kredit borcu qalmış olur [10; 6]. Bu isə tələbələrin məsuliyyətini, bütün tədris müddətində səyini və fəallığını artırmağa imkan verir;

- müasir yoxlama və qiymətləndirmə üçün səciyyəvi cəhətlərdən biri də

yeni dəyərləndirmə metodlarına geniş istinad edilməsi, ənənəvi və yeni nəsil ölçmə vasitələrinin kompleks tətbiqi ilə təhsilalanların təlim nəticələrinin daha dərindən və hərtərəfli şəkildə aşkara çıxarılıb obyektiv qiymətləndirilməsindən ibarətdir;

Yoxlama və qiymətləndirmə sisteminin səmərəliliyi ənənəvi və innovativ ölçmə metod və vasitələrinin optimal inteqrativ tətbiqindən çox asılıdır. Ənənəvi qiymətləndirmə vasitələri - sorğular, yoxlama işləri təhsilalanların təlim müvəffəqiyyətlərini hərtərəfli üzə çıxarıb dəqiq və obyektiv qiymətləndirməyə imkan vermir, əsasən, qiymətin kəmiyyət ölçülərinə (cavabın tamlığı, mühazirə və dərsliyə uyğunluğu və s.) yönəlirdi. Yeni qiymətləndirmə sistemi yeni, əlavə səmərəli vasitə və metodlar tələb edir. Belə vasitələrə reytinq, fərdi sənədlər qovluğu (portfolio), təfəkkürə yönələn düşündürücü, ümumiləşdirici və tətbiqi xarakterli testlər, situativ və tətbiqi məsələ və çalışmalar, problemli suallar, dialoq və diskussiyalar, bilik yarışmaları, müxtəlif növ təmrinlər və s. daxildir [4; 296].

Yeni yoxlama və qiymətləndirmə metod və vasitələri təhsilalanların təlim nəticələrini hərtərəfli, dolğun və obyektiv qiymətləndirməklə yanaşı, fənnə və ixtisasa marağın artırılması, özünə inamın möhkəmlənməsi, imtahan gərginliyinin azaldılması, biliklərlə yanaşı həm də ixtisas və peşə bacarıqlarının formalaşdırılmasına imkan verir. Bu cəhətdən kredit sistemi ilə təhsil alan tələbələrin qiymətləndirilməsi prosesi mühüm əhəmiyyət kəsb edir [5; 2].

Qiymətləndirmədə əsas tutulan vacib məsələlərdən biri bu zaman düzgün, optimal göstəricilərin, meyarların müəyyənləşdirilməsi və obyektiv tətbiqidir. Hazırda ali təhsildə qüvvədə olan qiymət meyarları qiymətləndirmənin məqsədi və prinsipləri baxımından o qədər də təminedici deyildir. Mövcud pedaqoji-metodik ədəbiyyatda bilik və bacarıqların qiymətləndirilməsi üçün 9 əsas və bir neçə törəmə göstərici müəyyən edilmişdir. Əlbəttə, praktik təhsil təcrübəsində bu qədər göstəricini dəqiq nəzərə almaq və obyektiv qiymət vermək çətindir. 10 ballıq qiymət şkalası üzrə mövcud qiymət meyarları yalnız üç göstəriciyə əsaslanır: biliyin tamlığı (həcmi), dərk olunması və düzgünlük səviyyəsi [5]. Bu göstəricilər də ancaq iki şkalada (9 və 10 bal) tam, digər ballarda isə qismən öz əksini tapmışdır [8; 134]. Əsas göstəricilərdən olan biliyin tətbiqi mövcud qiymət şkalasında əks olunmamışdır. Belə vəziyyət qiymətləndirmənin dəqiqlik, obyektivlik tələblərini təmin etməyə imkan vermir, təhsil təcrübəsində müəyyən çətinliklər və narazılıqlar yaradır. Təcrübə göstərir ki, mövcud göstəricilərdən 5-ni (tamlıq, düzgünlük, dərk edilmə, tətbiq və ifadə olunma) əsas götürməklə və düzgün nəzərə almaqla obyektiv qiymətləndirməni həyata keçirmək mümkündür.

Müasir qiymətləndirmənin lazımi səmərə verməsi üçün o, dövlətin təhsil siyasətinə, Təhsil Qanununa, təhsil sahəsində mövcud qanunvericilik tələblərinə, o cümlədən qiymətləndirmə konsepsiyasına, qiymətləndirmə prinsiplərinə uyğun qurulmalıdır. Bu prinsiplərə məqsədyönlülük, obyektivlik, ədalətlilik, elmilik, şəffaflıq, sistemlilik daxildir. Bəzi pedaqoji mənbələrdə (o cümlədən Y.A.Komenskinin "Böyük didaktika" əsərində) qiymətləndirmənin digər

prinsipləri də qeyd olunur: hərtərəflilik (kəmiyyət və keyfiyyət göstəricilərinin nəzərə alınması), humanizm və xeyirxahlıq, ölçünün gözlənilməsi, ciddiliklə əyləncəliliyin əlaqələndirilməsi, mənfi qiymətlərdən mümkün qədər az istifadə edilməsi [4; 213] və s.

Hər bir müəllim qiymətləndirmə prinsiplərini rəhbər tutmalı, onların pozulması hallarına yol verməməlidir. Qiymət çox incə bir pedaqoji vasitədir: o, tələbəni (şagirdi) həvəsləndirə də, ruhdan sala da bilər. Hər şey qiymətin necə verilməsindən, onun mövcud prinsiplərə uyğun olub-olmamasından asılıdır. Təcrübədə ən çox narahatlıq, narazılıq doğuran qiymətləndirmədə obyektivliyin, ədalətin pozulmasıdır. Bilik və bacarıqları düzgün əks etdirməyən qiymət (istər şişirtmə, istərsə də qiyməti kəsmək) ziyanlıdır; Təhsil naziri Emin Əmrullayevin sözləri ilə desək, bu "öz-özünü aldatmaqdır" ("Facebook" profili, 30.01.2021).

Qiymətləndirmənin məsuliyyətli və ziddiyyətli xarakterini nəzərə alaraq müəllimlər bu sahəyə çox diqqət və ustalıqla yanaşmalıdırlar. Elmi pedaqogikanın banisi böyük çex pedaqoqu və mütəfəkkiri Y.A.Komenski müəllimlərə müraciət edərək onlara verilən bu hüquqdan ağılla və ehtiyatla istifadə etməyi məsləhət görmüşdür. Bu tövsiyə hazırda da aktuallığını saxlamaqdadır.

**ƏDƏBİYYAT**


1. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası// Xalq qəz. - 2013, 15 oktyabr. - s. 2.
2. Azərbaycan Respublikasının ümumi təhsil sistemində Qiymətləndirmə Konsepsiyası// Azərbaycan Müəllimi qəz. - 2006, 28 iyul. - s. 3
3. Əhmədov A., Şərifov T., Abbasov Ə. Şagird nailiyyətlərinin qiymətləndirilməsi/ Kurikulum islahatı: tədqiqatlar, nəticələr. Bakı: Mütərcim, 2011, s. 298-310
4. Komenski Y.A. Böyük didaktika. Bakı: Elm və təhsil, 2012. 388 s.
5. Kredit sistemi ilə təhsil alan tələbələrin biliyinin qiymətləndirilməsi haqqında Əsasnamə// Azərbaycan Müəllimi qəz. - 2008, 11 sentyabr, s. 2.
6. Mehrabov A., Əliyev, A. Təhsil sistemində qiymətləndirmə// Bakı: Bilgi dərgisi, 2012. № 12, s. 3-14.
7. Mehrabov A., Cavadov, İ. Şagirdlərin təlim nəticələrinin qiymətləndirilməsi pedaqoji problem kimi/ Kurikulum islahatı: tədqiqatlar, nəticələr. Bakı: Mütərcim, 2011, 284-292 s.
8. Məmmədov F., İmamverdiyeva N. Təhsil nailiyyətlərinin qiymətləndirilməsi pedaqoji prosesin mühüm komponentlərindən biri kimi// "Çağdaş dövr və təhsil" X Respublika elmi-praktik konfransının materialları, - Bakı: - 4-5 may, - 2017, - s. 127-135.
9. Təhsil haqqında Qanun// 19 iyun, 2019-cu ildə qəbul edilmişdir. - Bakı: Hüquq ədəbiyyatı nəşriyyatı, - 2010, - 80 s.
10. Tələbələrin biliyinin qiymətləndirilməsinin çoxballı sistemi haqqında Əsasnamə// - Bakı: Azərbaycan məktəbi. - 1999, № 8, - s. 3-8.


## СОВРЕМЕННЫЕ ПАРАДИГМЫ СИСТЕМЫ АНАЛИЗА И ОЦЕНИВАНИЯ В ОБРАЗОВАНИИ


**М.А.ИСМИХАНОВ, Н.Б.ИМАМВЕРДИЕВА**


**РЕЗЮМЕ**


В статье на основе сравнения традиционного и современного оценивания анализируются недостатки, причины и последствия традиционного оценивания, а также

особенности, преимущества и новые подходы – парадигмы современного оценивания. Инновационные подходы современной системы проверки и оценивания охватывают множество различных областей. Новые подходы системы оценивания основаны, прежде всего, на государственной политике в области образования, новой методологии, концепции и гуманистических принципах оценивания (справедливость, объективность, доброта, прозрачность, научность, систематичность и т.д.), направленных на повышение качества образования. Новые методологии и принципы, в свою очередь, требуют создания совершенно новой системы проверки и оценивания, а также объективного и надёжного механизма ее применения.

Механизмы, присущие традиционному оцениванию (ориентация на память, пассивность, утомляемость, субъективность, несправедливость, непоследовательность и т.д.) теперь уступают место новым подходам. Новые механизмы оценивания, основанные на качестве знаний и умений, логическом мышлении, активности и самостоятельности, интегральных знаниях, практическом решении проблем, дифференцировании критерий оценивания, регулярной проверки и оценки, новых способах стимулирования имеют большое значение в повышении эффективности и качества образования.

**Ключевые слова:** оценка, оценивание, проверка, мониторинг, новая оценочная система, инновационные средства, парадигма

## MODERN INSPECTION AND EVALUATION SYSTEM PARADIGMS IN EDUCATION

**M.A.ISMIKHANOV, N.B.IMAMVERDIYEVA**

### SUMMARY

The article analyzes the shortcomings, causes and consequences of traditional evaluation, as well as its features, advantages, modern approaches - new evaluation paradigms based on the comparison of traditional and modern evaluation.

Innovative approaches to modern inspection and evaluation systems cover many different areas. This new evaluation system is based on the state education policy, a new methodology, concept, humanitarian evaluation principles (justice, impartiality, courtesy, transparency, scientific, systematic, etc.) aiming to improve the quality of education. New methodologies and principles require the establishment of a completely new inspection and evaluation system on a new basis, the establishment of an objective and reliable evaluation mechanism aimed at improving the quality of education, and fundamental changes.

The mechanisms inherent in traditional testing and evaluation (memory orientation, passivity, fatigue, quantitative dependence, subjectivity, injustice, inconsistency, etc.) now lead to new approaches. Quantity, logical thinking, activity and independence, integrative knowledge, practical problem solving, innovative measurement tools, different price indicators, regular review and evaluation, incentives, etc. A modern evaluation mechanism based on new approaches in this field is important for increasing the efficiency and quality of education as a whole.

**Keywords:** price, evaluation, inspection, monitoring, new evaluation's system, innovational methods, paradigma

UOT 37

# PEDAQOJİ PROSES TƏHSİL SƏNƏDLƏRİNDƏ

F.A.İSAYEVA
*Bakı Dövlət Univesrsiteti*

Məqalədə təhsil sənədləri təhlil olunmuş, burada pedaqoji prosesin xüsusiyyətləri və inkişaf istiqamətləri müəyyən edilmişdir. Yeni dəyişiklərə uyğunlaşmaq, özünü dəyişikliklərin tələblərinə görə dəyişdirmək doğru addımdır. Son dövrün tələbləri olaraq tənqidi düşünmə, problemi həlletmə, yaradıcı və innovativ düşünmə kimi idraki fəaliyyətlərin inkişafı ön plana çıxmışdır. Təhsil sahəsində aparılan islahatlar son dövrün tələblərinə uyğun şəxsiyyət yetişdirilməsində böyük əhəmiyyətə malikdir.

**Açar sözlər**: təhsil, təhsil qanunu, təhsil islahatı, təhsil strategiyası, kurikulum.

**Problemin aktuallığı**. Araşdırmalar göstərir ki, XXI əsrin əsas kapitalı ölkələrin maliyyə imkanları və təbii resurslarının zənginliyi deyil, onların intellektual potensialı olacaqdır. Dünyanın aparıcı ölkələrinin inkişaf tendensiyası göstərir ki, intellektual potensialın formalaşması üçün təhsilin modernləşməsi aşağıdakı priortet istiqamətlər üzrə aparılmalıdır:

*millilik və bəşərilik;
*qabaqlayıcı təhsilvermə;
*universal biliklərə yiyələnmə;
*bütün həyatboyu təhsilalma;
*yeni maliyyələşmə modelinə keçid [12, 262].

Cəmiyyətin inkişaf tendensiyası insanları biliklərininin sərhəddini, ixtisasını dəyişmək məcburiyyətində qoyur. İndiki şərait tələb edir ki, insan özünü tez-tez kəskin şəkildə refleksiya etsin, imkanlarını (intellektual, mədəni, fəaliyyət) müəyyənləşdirsin, yeniliyin xüsusiyyətlərini anlamağa çalışsın, effektiv şəkildə kommunikativ və kooperativ əlaqələr qursun . Bu isə insandan bütün həyatı boyu təhsil almağı tələb edir. Ömür boyu fasiləsiz təhsilalmanın vacibliyi XXI əsrdə ixtisaslı kadrların yenidən hazırlanmasını, iqtisasdiyyatın və cəmiyyətin tələbinə uyğun öz ixtisasını müntəzəm artırmasıını, təkmilləşdi-rilməsini ön plana çəkir. XXI əsrin təhsil sistemi kifayət dərəcədə novator xarakterli, çevik və yaradıcı keyfiyyətlərə malik olmalıdır [12, 264].

Bu məqalədə qarşımızda qoyulan **məqsəd** – Azərbaycanda təhsil sənəd-lərində pedaqoji prosesin əks olunması xüsusiyyətlərinin təyin edilməsidir. Bunun üçün həm mövcud elmi ədəbiyyata, həm də qanunverici aktlara

müraciət olunmuşdur.

**Problemin işlənmə dərəcəsi**. Təhsil ölkənin davamlı inkişafı və iqtisadi artımını təmin edən əsas faktorlardandır. Cəmiyyətdə hərtərəfli inkişaf etmiş şəxsiyyət yetişdirməkdə təhsilin böyük rolu vardır. Təhsil hər bir şəxsin səriştəli bir şəxsiyyət kimi formalaşmasında əhəmiyyətli yer tutur. Pedaqoqlarımız M.M.Mehdizadə, N.M.Kazımov, B.A.Əhmədov, S.H.Axundov, M.A.İsmixanov, A.Zeynalov, R.Hüseynzadə və s. təhsilin önəmini vurğulamışlar.

Respublika pedaqoji mətbuatında M.M.Mehdizadə, N.M.Kazımov, B.A.Əhmədov, S.H.Axundov, M.A.İsmixanov, A.Zeynalov və başqaları bu mövzuya həsr olunmuş əsərlərlə çıxış etmişlər. Həmin əsərlər problemin nəzəri inkişafında və praktik tətbiqində mühüm rol oynamışdır. Uzun illər məktəb müəllimləri həmin əsərlərdən faydalanmışlar.

Akademik S.Xəlilov yazır: "Təhsilə yalnız milli və ya yalnız ümumbəşəri hadisə kimi yanaşmaq olmaz. Təhsilin mahiyyətindən irəli gələn və bütün dövrlər və ölkələr üçün qorunub saxlanan əsas prinsiplərlə yanaşı, konkret dövrün, konret ictimai situasiyanın və konkret milli gerçəkliyin, milli düşüncə tərzinin xüsusiyyətləri də mütləq nəzərə alınmalıdır. Təhsil özü sosial institut olmaqla yanaşı, həm də və daha çox dərəcədə ictimai şüurun inkişafını təmin etdiyi, onun strukturunun özünəməxsusluğunu qoruyub saxladığı üçün ictimai həyatın və milli məfkurənin ayrılmaz tərkib hissəsidir. Təhsil həm də milli ruhun inkişafını təmin edən mühüm vasitələrdən biridir" [12, 257].

**Pedaqoji prosesLə əlaqədar başlıca sənədlər**. Azərbaycan Respublikasının "Təhsil haqqında Qanunu"nda təhsil sistemləşdirilmiş bilik, bacarıq və vərdişlərin mənimsənilməsi prosesi və onun nəticəsi kimi təqdim olunur [12, 256]. Təhsil -cəmiyyətin və dövlətin mənafeyi naminə şəxsiyyətin intellektual və emosional sferalarının inkişaf etdirilməsi və həyata hazırlanması məqsədi ilə sistemləşdirilmiş bilik, bacarıq, təcrübə və vərdişlərin mənimsənilməs prosesi və onun nəticəsidir [12, 260].

Azərbaycan Respublikasında təhsilin əsas məqsədi aşağıdakılardır və bunlar "Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu"nda rəsmiləşdirilmişdir;

-Azərbaycan dövləti qarşısında öz məsuliyyətini dərk edən, xalqın milli ənənələrinə və demokratiya prinsiplərinə, insan hüquqları və azadlıqlarına hörmət edən, vətənpərvərlik və azərbaycançılıq ideyalarına sadiq olan, müstəqil və yaradıcı düşünən vətəndaş və şəxsiyyət yetişdirmək;

- milli-mənəvi və ümumbəşəri dəyərləri qoruyan və inkişaf etdirən, geniş dünyagörüşünə malik olan, təşəbbüsləri və yenilikləri qiymətləndirməyi bacaran, nəzəri və praktiki biliklərə yiyələnən, müasir təfəkkürlü və rəqabət qabiliyyətli mütəxəssis- kadrlar hazırlamaq;

-sistemləşdirilmiş bilik, bacarıq və vərdişlərin mənimsənilməsini və ixtisasın daim artırılmasını təmin etmək, təhsilalanları ictimai həyata və səmərəli əmək fəaliyyətinə hazırlamaq [11, 102].

Təhsilin məqsədini həyata keçirmək üçün yeni islahatın zəruriliyi meydana çıxdı. Təhsil proqramına yeni yanaşma yüksək keyfiyyətli təhsil nəticələrinə çatmaq üçün keçirilən islahatların mərkəzində dayanır. Təhsilin məqsədi insanı yaşadığı həyata hazırlamaq, onda tənqidi və yaradıcı düşüncəni, eyni zamanda milli və ümumbəşəri dəyərləri formalaşdırmaqdır. Bir insan 11 il orta məktəbdə təhsil aldığı zaman həyat üçün lazım olan minimal bilik və bacarıqlara yiyələnməlidir.

Ölkəmizdə aparılan təhsil islahatının əsas qayəsini «müstəqil və yaradıcı düşünən vətəndaş və şəxsiyyət yetişdirmək» təşkil edir [2]. Həyatı boyu formalaşan, özünəməxsus fərdi xüsusiyyətləri, müəyyən təfəkkür, davranış tərzi, hissləri olan insan şəxsiyyət adlanır.

Ölkəmizdə təhsil islahatlarının ölçülüb-biçilmiş, əvvəlcədən düşünülüb müəyyən olunmuş nəticələr üzərində qurulmasını təsdiq edən ən mötəbər tarixi sənəd 1998-ci ildə yaradılmış Dövlət Komissiyası tərəfindən hazırlanaraq 1999-cu il iyunun 15-də ulu öndər Heydər Əliyevin sərəncamı ilə təsdiq olunan “Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı”dır. Proqramda islahatların zəruriliyi müasir tələblər baxımından əsaslandırılmış, islahat hədəfləri dəqiqləşdirilmiş və onların mərhələlərlə həyata keçirilməsinin sistemi təsbit olunmuşdur. İslahatyönümlü tədbirlərin əsasını İslahat Proqramında irəli sürülən “demokratikləşdirmə, humanistləşdirmə, inteqrasiya, diferensiallaşdırma, fərdiləşdirmə, humanitarlaşdırma prinsiplərinə əsaslanaraq, təhsilalanın şəxsiyyət kimi formalaşdırılmasını, onun təlim-tərbiyə prosesinin əsas subyektinə çevrilməsini başlıca vəzifə hesab edən, milli zəminə, bəşəri dəyərlərə əsaslanan, bütün qurumların fəaliyyətini təhsilalanın mənafeyinə xidmət etmək məqsədi ətrafında birləşdirən yeni təhsil sisteminin yaradılması” ideyası təşkil etmişdir [1, 29].

Ulu öndər Heydər Əliyev Azərbaycan Respublikasının təhsil sahəsində islahatlar üzrə Dövlət Komissiyasının iclasındakı nitqində bu məsələni xüsusi açıqlamışdır: “İndi təhsil sistemində islahatların əsas məqsədi ondan ibarətdir ki, Azərbaycanın təhsil sistemi dünya təhsil sisteminin standartlarına uyğunlaşsın. Təbii ki, belə bir şəraitdə Azərbaycan özünün təhsil nailiyyətləri ilə inkişaf etmiş ölkələrin səviyyəsinə çatmaqla daha böyük uğurların sahibi ola bilər” [1, 30].

Təhsil sahəsində islahat proqramının əsas məqsədi məktəbəqədər, orta, ali, ali təhsildən sonrakı peşə və ona uyğun əlavə təhsil pillələrində toplanmış potensialı saxlamaq və inkişaf etdirmək, təhsil sistemini tənzimləyən müvafiq normativ hüquqi bazanı yaratmaqdır. İslahat proqramının əsas məqsədi həmçinin Azərbaycan Respublikasının Konstitusiyasında, Təhsil Qanununda təsbit olunmuş tələbləri, siyasi, iqtisadi və sosial həyatın demokratikləşməsinə əsaslanan dövlət siyasətini həyata keçirməkdən ibarətdir.

İslahat aparılan ölkədə qarşıda duran ən vacib vəzifə islahatyönümlü tədbirlərin həyata keçirildiyi sahədə və xüsusilə, bu sahənin nümayəndələrində əvvəllərdən kök salmış köhnə təsəvvürlərin tədricən aradan qaldırılması, eyni

zamanda həmin sahədə mövcud inkişaf səviyyəsinin dəqiq müəyyən edilməsi və buna uyğun surətdə perspektivlərin real şərait baxımından optimal proqnozlaşdırılmasıdır.

İslahat həm də iqtisadi inkişafla sıx bağlıdır. Məhz iqtisadi tərəqqi cəmiyyətdə yeni mütərəqqi ideyalar doğurur və bunların reallaşdırılması arzusu islahatların zəruriliyini gündəmə gətirir. Tarixə nəzər salsaq, bu gün beynəlxalq aləmdə qüdrəti ilə fərqlənən dövlətlər islahat hədəfini müəyyən edərkən ilk növbədə təhsil sahəsini seçmişlər. Çünki bütün sahələrdə inkişafın mənbəyi təhsildən başlanır. Bu mənada, Azərbaycan da istisna deyildir.

Təhsil sisteminin mövcud vəziyyəti günün tələblərinə cavab vermədiyindən bu sahədə islahatların aparılması təkzibolunmaz zərurətdir.Cəmiyyət öz gələcəyini təmin etmək məqsədi ilə yeni nəslin yüksək səviyyədə hazırlığına nail olmalı və buna görə də təhsil üstün inkişaf etdirilən sahəyə çevrilməlidir.

İslahatlar, varisliyi saxlamaqla, təhsilin idarə olunması, bazar iqtisadiyyatı şəraitində mütəxəssis hazırlığı və təhsilin maliyyələşdirilməsi sahəsində mütərəqqi dünya təcrübəsinə əsaslanmalıdır.

Təhsilin inkişafında mühüm irəliləyişlərə nail olmuş ölkələrin təcrübəsi göstərir ki, informasiya kommunikasiya texnologiyalarına əsaslanan, yaradıcı düşüncəni inkişaf etdirən və təhsilalanın fərdi xüsusiyyətlərini nəzərə alan müasir, fəal- interaktiv təlim metodları daha yüksək nəticələr verir. Həmin məqsədlə, davamlı olaraq mütərəqqi tədris metodlarının yaradılması və müəllimlərin səriştəsinin artırlması təhsil siyasətində mühüm yer tutur [3].

”Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyası çərçivəsində hazırlanmış “Azərbaycan Respublikasında Təhsilin İnkişafı üzrə Dövlət Strategiyası” və onun bazasında hazırlanmış “Fəaliyyət Planı” milli təhsil sisteminin modernləşdirilməsi istiqamətində həyata keçirilən dövlət siyasətinin prioritetidir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 19 yanvar 2015-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında Təhsilin İnkişafı üzrə Dövlət Strategiyasının həyata keçirilməsi ilə bağlı Fəaliyyət Planı” dünya təhsilinə inteqrasiya yolunu seçmiş milli təhsilimizin metodoloji əsası, başlıca fəaliyyət istiqamətlərini özündə mərhələli şəkildə əks etdirən konseptual sənəddir. “Fəaliyyət Planı” təxminən növbəti 10 il ərzində mərhələli şəkildə təhsilin bütün pillələrində - məktəbəqədər təhsil pilləsindən başlamış ali təhsilədək bütün səviyyələrdə milli məzmun standartlarının və kurikulumların hazırlanması, təsdiqi və həyata keçirilməsini nəzərdə tutur. “Fəaliyyət Planı” nın hədəflədiyi başlıca məqsədi Azərbaycanda Avropa standartlarına uyğun mükəmməl təhsil sistemi yaratmaqdan ibarətdir [13].

Təhsilin inkişafı üzrə Dövlət Strategiyasında təlim prosesinin təşkilinin əsas forması olan dərsə yeni yanaşma diqqəti cəlb edir. Strategiyada göstərilir ki, son 30-40 il ərzindəki elmi-texnoloji tərəqqi, innovasiyalar və modernləşmə nəticəsində praktiki bilik və vərdişlərlə zənginləşməyən, sırf nəzəri xarakter daşıyan təhsil öz fundamental əhəmiyyətini itirməkdədir . Təhsilin məzmunun formalaşmasında akademik biliklərlə yanaşı, praktik bilik və bacarıqların,

səriştənin vacibliyi önə çəkilir [3].

Strategiyada müasir dərs problemi kurikulumların inkişaf etdirilməsi, səriştəyə əsaslanan şəxsiyyətyönümlü təsilin məzmununun yaradılması innovativ təlim metodlarını tətbiq edən, bilik və bacarıqların səmərəli mənimsənilməsini təmin edən səriştəli təhsilverənin formalaşdırılması ilə sıx əlaqədə götürülür.

Azərbaycan müstəqillik qazandıqdan sonra demokratik, müstəqil ölkənin əsas prinsiplərinə uyğun yeni, müasir tələblərə cavab verən təhsil sisteminin qurulmasına başlanmışdır. Ənənəvi təhsil sistemi artıq öz dövrünü başa vurmuş, yerini yeni kurikulum təhsil sisteminə vermişdir. Cəmiyyətdə yeni ictimai münasibətlərin yaranması, planlı iqtisadiyyatdan bazar iqtisadiyyatına keçid, dünya təhsil sisteminə inteqrasiya, informasiya əsrinin tələbləri, təhsilin məqsəd və vəzifələrinə yeni baxış və yanaşmaların formalaşması, mövcud ümumi təhsil proqramlarının müasir tələblərə cavab verməməsi kurikulum təhsil sisteminə keçidi şərtləndirən əsas amillərdir [4, 79].

Dünyanın sürətlə dəyişdiyini nəzərə alsaq, təhsilə ümumi baxış, onun mahiyyəti və digər məsələlərin də dəyişikliyinin vacibliyini lazımınca dəyərləndirməliyik. Yeni dəyişikliyə etiraz etmək əvəzinə, ona uyğunlaşmaq, özünü dəyişikliklərin tələblərinə görə dəyişdirmək daha doğru addım olardı. Bunun üçün hər bir insanda ömür boyu öyrənmə (Lifelong Learning) mədəniyyətinin formalaşması lazımdır. Son onilliklərdə həyatımızda baş verən dəyişikliklərin istiqamətlərini aşağıdakı kimi qruplaşdırmaq olar:

1.Düşüncəmizdə baş verən dəyişikliklər. 2. İş həyatımızda baş dəyişikliklər. 3.Həyat tərzimizdə baş verən dəyişikliklər [4, 5].

Son dövrlər tənqidi düşünmə, problem həlletmə (critical thinking, problem solving), yaradıcı və innovativ düşünmə, həmçinin öyrənməyi öyrənmək (metakoqnitiv) kimi idraki fəaliyyətlərin inkişafı ön plana çıxmışdır [4, 5].

Bu gün Azərbaycanın ümumi təhsil sistemində məzmun islahatları "Kurikulum islahatları" adı altında aparılır. "Kurikulum" anlayışı ölkəmizin pedaqoji leksikonuna ötən əsrin 90-cı illərinin axırlarında daxil olmuşdur. Mənaca "yol", "istiqamət" anlamı verən latın mənşəli bu söz hələ eramızdan əvvəl işlədilsə də, hazırkı dövrdə beynəlxalq təhsil termini kimi əksər ölkələrdə qəbul edilir. "Kurikulum" ifadəsinin ölkəmizin təhsil sisteminə gətirilməsi Azərbaycan mütəxəssislərinin ideyası deyildir, bu, Dünya Bankının rəsmi sənədlərində təsbit olunmuşdur. İlk vaxtlar həmin anlayış ciddi mübahisələr, fikir ayrılıqları yaratmış, bu sözün Azərbaycan dilində qarşılığının tapılmasına cəhd göstərilmişdir. Nəticə etibarilə "kurikulum" ifadəsi xeyli müzakirələrdən sonra pedaqoji ictimaiyyətdə qəbul olunsa da, yeni Təhsil Qanununda "təhsil proqramı (kurikulum)" formasında rəsmiləşdirilmişdir [5, 51].

Milli kurikulum konsepsiyası Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 30 oktyabr tarixli 233 saylı qərarı ilə təsdiq olunmuşdur. Təhsil Nazirliyinin 2007- ci il 23 iyul tarixli 923 saylı qərarı ilə isə 2008- ci ilin sentyabrında ümumi təhsil məktəblərində fənn kurikulumları üzrə tədrisə

başlanılmışdır.

Kurikulum konseptual xarakterli bir sənəddir və bu sənəd özündə təhsil fəaliyyətinin nizamlanmasını təmin edən əsas istiqamətləri əhatə edir. Bura əsasən təlim nəticələri, dövlət təhsil standartları, təlim strategiyaları, qiymətləndirmə modelləri və s. daxildir. Konseptuallığı ilə yanaşı, nəticəyönümlülük, şəxsiyyətyönümlülük, tələbyönümlülük, şagirdyönümlülük, inteqrativlik kurikulumların mahiyyətini şərtləndirən əsas cəhətlərdir. İstər ümumi təlim nəticələri, istərsə də dövlət təhsil standartları, eləcə də təlim strategiyaları və qiymətləndirmə mexanizmləri məhz həmin prinsiplər nəzərə alınmaqla müəyyən olunur. Bu prosesdə daxili bir harmoniya mövcuddur. Belə ki, təlim nəticələri konkret mərhələ üçün təyin edilən məqsədləri, dövlət təhsil standartları həmin məqsədlərin həyata keçirilməsinə istiqamətlənmiş məzmunu, təlim strategiyaları məqsədlərə görə müəyyən edilmiş məzmunun reallaşdırılması yollarını, qiymətləndirmə mexanizmləri isə əldə olunan nailiyyətlərin obyektiv ölçülməsi, dəyərləndirilməsi vasitələrini özündə ehtiva edir [5, 58].

Kurikulumda nəticəyönümlülük təlim fəaliyyətinə əsaslanır, bütövlükdə təlim prosesinin mahiyyətini təşkil edən son nəticəni proqnozlaşdırmağa imkan verir. Kurikulum çərçivə sənədi hazırlanarkən şagirdyönümlülük prinsipinə də əsaslanmışdır. Kurikulumda əksini tapan bütün nəticələr şagirdlərə, onların inkişafının izləınilməsinə yönəldilməlidir. Bu zaman şagird .əxsiyyətinin formalaşması, inkişafının istiqamətləndirilməsi əsas məqsəd hesab edilir.

İnteqrativlik də kurikulumu səciyyələndirən cəhətlərdəndir. Pedaqoji proses təlim, tərbiyə, təhsil və inkişaf proseslərinin mexaniki deyil, inteqrativ birləşməsidir. İnteqrasiya ayrı- ayrı birləşmələrin məntiqi surətdə bütöv bir tam halında bir- biri ilə qarşılıqlı əlaqədə birləşməsi deməkdir. İnteqrasiya vaxtdan səmərəli istifadəyə imkan yaradır.

Kurikulum məzmununa uyğun müvafiq strategiyaların müəyyən olunmasını vacib sayır. Təlim strategiyasına təlim təşkilində istifadə olunan forma və üsullar, fənn üzrə təlimin planlaşdırılması daxildir.

Bu gün kurikulumlarda yer tutan məzmun standartları şəxsiyyətyönümlü təhsilin nəticələri olmaqla inteqrativ xarakter daşıyır və dəyərləri ifadə edir. Məsələn, "Dinlədiyi fikri əlavələri ilə inkişaf etdirir" ("Ana dili", II sinif), yaxud "çəkdiyi şəkillərə mətnlər daxil edir" ("İnformatika", II sinif) və s. Bu dəyərlər uşaqların ümumi inkişafını, intellekt səviyyəsini müəyyənləşdirmək imkanı yaradır. Məzmun standartlarını reallaşdıran dərslik və ya digər vəsaitlərin müəlliflərinə sərbəstlik verilir. Onlar gözlənilən nəticəyə çatmaq üçün potensial imkanlarına uyğun strategiyaları (vasitələri, formaları, üsulları və s.) özləri seçirlər. [5, 66].

Yeni kurikulumların tətbiqi bu gün təlimin nəticələr üzərində qurulmasını və interaktiv formada təşkilini tələb edir. Bu da şagirdlərin bacarıqlar qazanmasına, müasir təfəkkürə malik şəxsiyyət kimi formalaşmasına zəmin yaradır. Bu gün ümumtəhsil məktəblərində təhsilə yanaşma dəyişmişdir. Belə ki, artıq təhsil şagirdlərə təkcə bilik verməyi deyil, onlarda müəyyən bacarıq və

vərdişlərin inkişaf etdirilməsini də tələb edir. Yəni, şagirdi müstəqil həyata hazırlamaq şəxsiyyətyönümlü təhsilin əsas məqsədinə çevrilib. Şagirdlərin şəxsiyyət kimi formalaşmasında təfəkkürün inkişafı çox mühüm amil sayılır.

Kurikulumların məzmunu texnoloji irəliləyişin gətirdiyi yenilikləri nəzərə almaqla daim inkişaf etdirilir ki, bu da müxtəlif təhsil pillərində spesifik yanaşma tələb edir. Təhsilin inkişafında mühüm irəliləyişlərə nail olmuş ölkələrin təcrübəsi göstərir ki, informasiya- kommunikasiya texnologiyalarına əsaslanan, yaradıcı düşüncəni inkişaf etdirən və təhsilalanın fərdi xüsusiyyətlərini nəzərə alan müasir, fəal təlim metodlarından, informasiya-kommunikasiya texnologiyalarından istifadə daha yüksək nəticələr verir. Odur ki, qarşıya qoyulan məqsədlərə nail olmaq üçün davamlı olaraq mütərəqqi tədris metodlarının yaradılması və müəllimlərin səriştəsinin artırılması təhsil siyasətində mühüm yer tutur.

**Ümumi qənaətimiz** belədir ki, yeni proqlamlar yalnız sistemin, məzmunun dəyişdirilməsini deyil, həm də şagirdlərdə idrak prosesinin maksimum dərəcədə inkişaf etdirilməsini vacib bir məsələ kimi qarşıya qoyur. Bu da təsadüfi deyil. Çünki uzun illərdən bəri diqqət başlıca olaraq müəyyən vərdişlərin aşılanmasına yönəlirdi. Nəticədə müəyyən qaydalar, qanunlar şagirdlər tərəfindən o qədər də şüurlu surətdə mənimsənilmir, dəfələrlə təkrarlar sayəsində mexaniki surətdə əzbərlənirdi. Buna görə də şagirdlərin hafizəsi az-çox dərəcədə inkişaf etsə də onlarda ən mühüm idrak prosesi olan təfəkkür lazımınca inkişaf etmirdi. Şagird oxunmuş materialdan müəyyən nəticəni çıxartmağı, onu bu və ya digər nöqteyi-nəzərdən qiymətləndirməyi tələb edən suallarla rastlaşdıqda çaşıb qalırdı. Buna görə də hazırki dövrdə dərs prosesində lazımi elmi məlumatlar verilməklə yanaşı, şagirdlərdə müşahidəçilik, müstəqil və tənqidi düşünmək və s. kimi idrak qabiliyyətlərinin inkişaf etdirilməsinə xüsusi diqqət yetirilir [5, 89].

Biz artıq torpaqlarımızı düşmən işğaldan azad etmişik. Bizə daha bacarıqlı, XXI əsrin tələblərinə cavab verən səriştəli mütəxəssislər, pedaqoji kadrlar, müəllimlər lazımdır. Təhsil sahəsində aparılan islahatlar səriştəli mütəxəssislərin, tənqidi, yaradıcı və məntiqi düşünə bilən şagirdlərin hazırlanması üçün vacib əhəmiyyətə malikdir və onların yetişdirilməsinə kömək edir.

## ƏDƏBİYYAT


1. Aranlı M., Yusifova C. Kurikulum: metodika və məntiq. Bakı: 2018. 398 s.
2. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası // «Kurikulum» jurnalı, 2013, No 4.
3. "Azərbaycan Respublikasında ümumi təhsilin dövlət standartları"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı // http://www.e-qanun.az/framework/19682
4. Mehrabov A. Azərbaycan təhsilinin müasir problemləri. Bakı: «Mütərcim», 2017.
5. Bayramova L. Kurikulum və Pedaqogika. Bakı: 2020
6. Həsənov İ., Rüstəmova A., Babayeva N. Kurikulum. Metodika. Pedaqogika. Müəllimlərin işə qəbulu (MİQ), Sertifikasiya. Bakı: 2020

7. Həsənli B. Təhsilin inkişafı strategiyası və müasir dərsin təşkili problemləri . Kurikulum Jurnalı 2014, №3
8. Hüseynzadə R., Qəhrəmanova K. Tərbiyə Hüquqi normativ əsaslar. Bakı: BDU-nun nəşriyyatı, 2015. 386 s.
9. Əliyeva F., Məmmədova Ü. Müasir təlim texnologiyaları. Bakı: 2015
10. Abbasov Ə.M., Cavadov İ.A., İbadova B.O., Quliyeva K.R., Sultanova İ.H., Cavadova S.E. Kurikulum bələdçisi (izahlar və tətbiqlər) Bakı: Elm və təhsil, 2019. 320 s.
11. İbadova B.O. Müasir dərs necə olmalıdır? Yeni təhsil proqramlarının (kurikulumların) tətbiqi məsələləri (kitab). Bakı: 2014
12. İsmixanov M.A. Pedaqogikanın əsasları. Bakı: 2002
13. İbrahimov F., Hüseynzadə R. Pedaqogika: 2 cilddə. I cild.-Bakı: Mütərcim, 2012. 706 s.
14. Qasımova A. İzahlı kurikulum və pedaqogika. 2-ci nəşr, Gəncə: 2019
15. Qasımova L.N., Mahmudova R.M. Pedaqogika. Dərslik. Bakı: Çaşıoğlu, 2012. 548 s.

## ПЕДАГОГИЧЕСКИЙ ПРОЦЕСС В ДОКУМЕНТАХ ПО ОБРАЗОВАНИЮ

**Ф.А.ИСАЕВА**

## РЕЗЮМЕ

В статье анализируются документы по образованию, выявляются в связи с этим особенности и направления развития педагогического процесса. Адаптация к новым изменениям, изменение себя в соответствии с требованиями перемен – это развитие образовательной системы в правильном направлении. В последнее время на первый план в качестве основных потребностей вышли развитие познавательной деятельности, в частности, критическое мышление, проблемное решение, творческое и новаторское мышление. Реформы в сфере образования имеют большое значение в развитии личности в соответствии с требованиями времени.

**Ключевые слова**: образование, закон об образовании, реформа образования, образовательная стратегия, учебная программа.

## PEDAGOGICAL PROCESS IN EDUCATION DOCUMENTS

**F.A.ISAYEVA**

## SUMMARY

The article analyzes documents on education, identifies in this connection the features and directions of the development of the pedagogical process. Adapting to new changes, changing oneself in accordance with the requirements of changes is the development of the educational system in the right direction. Recently, the development of cognitive activity, in particular, critical thinking, problem solving, creative and innovative thinking, has come to the fore as basic needs. Reforms in the field of education are of great importance in the development of personality in accordance with the requirements of the time.

**Keywords**: education, education law, education reform, educational strategy, curriculum.

# MÜNDƏRİCAT

## HÜQUQ

**Əliyev Ə.İ., Məmmədrzalı Ş.S.**
İnformasiya sferasında dayanıqlı inkişaf məqsədləri və
insan hüquqlarının uzlaşdırılması ........ 5

## BEYNƏLXALQ MÜNASİBƏTLƏR

**Əliyeva A.M.**
Azərbaycan-Avropa İttifaqı münasibətləri Avropa qonşuluq siyasəti
çərçivəsində........ 24
**Aydınlı F.M.**
1994-cü ildə atəşkəsin əldə olunmasınadək
Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasına dair göstərilən səylər,
qəbul edilmiş qərarlar və onların icrası........ 30

## FƏLSƏFƏ

**Kərimova A.X.**
Azərbaycanın islahatçı düşüncəsində qadın faktoru:
Şəfiqə Əfəndizadə........ 42

## PSİXOLOGİYA

**Əliyeva G.Ə.**
Yaşlılıq dövründə dini inancların həyat keyfiyyətinə təsiri ........ 50

## PEDAQOGİKA

**İsmixanov M.A., İmamverdiyeva N.B.**
Təhsildə yoxlama və qiymətləndirmə sisteminin müasir
paradiqmaları ........ 62
**İsayeva F.A.**
Pedaqoji proses təhsil sənədlərində........ 71

# СОДЕРЖАНИЕ

## ПРАВО

**Алиев А.И., Маммадрзали Ш.С.**
Гармонизация целей устойчивого развития с правами человека
в информационной сфере ........................................ 5

## МЕЖДУНАРОДНЫЕ ОТНОШЕНИЯ

**Алиева А.М.**
Основные направления сотрудничества Азербайджана
и Европейского Союза: Европейская политика соседства .............. 24
**Айдынлы Ф.М.**
Усилия по урегулированию Нагорно-Карабахского конфликта
до прекращения огня в 1994 году, принятые решения
и их выполнение ........................................ 30

## ФИЛОСОФИЯ

**Керимова А.Х.**
Женский фактор в реформаторском мышлении Азербайджана:
Шафига ханум Эфендизаде ........................................ 42

## ПСИХОЛОГИЯ

**Алиева Г.А.**
Влияние религии на качество жизни в пожилом возрасте .............. 50

## ПЕДАГОГИКА

**Исмиханов М.А., Имамвердиева Н.Б.**
Современные парадигмы системы анализа и оценивания
в образовании ........................................ 62
**Исаева Ф.А.**
Педагогический процесс в документах по образованию .............. 71

# CONTENTS

## LAW

**Aliyev A.I., Mammadrzali Sh.S.**
Harmonisation of sustainable development goals with human rights in information sphere ........ 5

## INTERNATIONAL RELATIONSHIPS

**Aliyeva A.M.**
The main directions of Azerbaijan-European Union cooperation: European neighborhood policy ........ 24
**Aydinli F.M.**
Efforts to resolve the Nagorno-Karabakh conflict before a ceasefire was reached in 1994, decisions and their implementation ........ 30

## PHILOSOPHY

**Kerimova A.Kh.**
The female factor in the reformist thinking of Azerbaijan: Shafiga khanum Efendizade ........ 42

## PSYCHOLOGY

**Aliyeva G.A.**
The impact of religion on quality of life in late life ........ 50

## PEDAGOGY

**Ismikhanov M.A., Imamverdiyeva N.B.**
Modern inspection and evaluation system paradigms in education ........ 62
**Isaeva F.A.**
Pedagogical process in education documents ........ 71